AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DÖVLƏT MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT UNİVERSİTETİ

KitabYurdu.az

**Maral Manafova**

# AZƏRBAYCANIN ŞƏRQİ ASİYA ÖLKƏLƏRİ İLƏ MƏDƏNİ ƏLAQƏLƏRİ

DƏRS VƏSAİTİ

**Azərbaycan Respublikası Təhsil Nazirliyinin**
**29.04.2008-ci il tarixli**
**511 №-li əmri ilə təsdiq edilmişdir**

**Bakı - 2008**

**Rəyçilər:**AMEA-nın müxbir üzvü, tarix elmləri
doktoru, professor **Oqtay Əbdülkərim oğlu Əfəndiyev**

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət
Universitetinin professoru, fəlsəfə elmləri doktoru
**Niyazi Musa oğlu Mehdi**

Azərbaycan Dövlət Neft Akademiyasının
professoru, fəlsəfə elmləri doktoru
**Şəhrəddin Mühiddin oğlu Məmmədov**

**Elmi redaktor**:Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət
Universitetinin dosenti, kulturologiya elmləri doktoru **Nigar Əfəndiyeva**

**Maral Manafova.** Azərbaycanın Şərqi Asiya ölkələri ilə mədəni əlaqələri. Dərs vəsaiti. Bakı, 2008, 36 s.

Dərs vəsatində Azərbaycanın Şərqi Asiya ölkələrilə mədəni münasibətləri ictimai, sosial və mədəni hadisə olan «beynəlxalq mədəni əlaqələr» kontekstindən, tarixilik və müasirlik baxımından hərtərəfli təhlil olunur. Professor Maral Manafovanın tərtib etdiyi dərs vəsaiti tələbələrin və ümumiyyətlə ölkəmizin xarici mədəniyyət siyasəti sahəsində zəruri nəzəri biliklərin, informasiya, praktiki vərdiş və bacarıqların mənimsənilməsində bir töhfədir. Dərs vəsatindən bakalavr, magist tələbələr, aspiarntlar və tədqiqatçılar, ümumiyyətlə xarici mədəniyyət siyasəti problemlərilə maraqlananlar faydalana bilərlər.

©M.C.Manafova

# MÜNDƏRİCAT

**Giriş**

**I Fəsil. Azərbaycanın Yaxın və Orta Şərq ölkələri ilə mədəni əlaqələri**

1.1. Azərbaycan – İran mədəni əlaqələri
1.2. Azərbaycan - Pakistan mədəni əlaqələri
1.3. Azərbaycan - İsrail mədəni əlaqələri

**II Fəsil. Azərbaycanın digər Şərq ölkələri ilə mədəni əlaqələri**

2.1. Azərbaycan-Hindistan mədəni əlaqələri
2.2. Azərbaycan – Çin mədəni əlaqələri
2.3. Azərbaycan -Yaponiya mədəni əlaqələri

Ədəbiyyat siyahısı

# GİRİŞ

Müasir dövrdə Müstəqil Azərbaycanın beynəlxalq nüfuzu və regiondakı liderlik mövqeyi gündən-günə artır. Son illərdə Azərbaycan Respublikasının xarici siyasət fəaliyyəti, xüsusilədə xarici mədəniyyət siyasəti sahəsində fəaliyyəti nəzərəçarpacak dərəcədə dinamikliyi ilə fərqlənir.

Azərbaycanın xarici mədəniyyət siyasəti müasir dövrün geosiyasi xüsusiyyətlərini, təhlükə və çağırışlarını nəzərə alaraq, ölkənin milli maraqlarına əsaslanır. Ölkəmizin beynəlxalq səviyyədə dövlətlərarası münasibətlərdə mədəni əlaqələri çox zəngindir. Beynəlxalq mədəni əlaqələr xalqlar arasında qarşılıqlı anlaşılmanın və etimadın formalaşmasına xidmət edir.

Azərbaycan Respublikası müstəqilliyini əldə etdiyi ilk günlərdən etibarən beynəlxalq miqyasda sülhsevərliyini, dostluq münasibətlərinə hazır olduğunu, başqa xalqların, dövlətlərin mədəniyyətinə və incəsənətinə, dilinə, dininə hörmət və rəğbətini nümyaiş etdirmişdir. Eyni zamanda da, Azərbaycan Respublikasının xarici mədəniyyət siyasəti milli maraqların təmin edilməsinə, dövlətin davamlı inkişafı və vətəndaşların, həmçinin də xaricdə yaşayan həmvətənlilərimizin mədəniyyət sahəsində hüquqlarının müdafiəsi üçün əlverişli şəraitin yaradılmasına yönəlmiş ardıcıl fəaliyyətini həyata keçirməyə yönəldilmişdir.

Azərbaycan Respublikasının suverenliyinin, ərazi bütövlüyünün bərpası və etnik təmizlənməyə məruz qalmış məcburi köçkünlərin öz torpaqlarına qaytarılması, müharibə şəraitində təcavüzə məruz qalmış mədəniyyət abidələrimizin bərpa edilməsi ölkə xarici siyasətinin prioritet məsələsi kimi gündəmdədir. Müasir mərhələdə beynəlxalq ictimaiyyətin Azərbaycanın ərazi bütövlüyünün, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmamazlığını dəstəkləmək və ərazilərinin işğalını və etnik təmizləməni pisləmək mövqeyinin daha da möhkəmləndirilməsi yönündə səylər göstərilir.

Müasir dövrdə Azərbaycanın Şərqi Asiya ölkələri ilə mədəni münasibətləri xarici mədəniyyət siyasəti, bu ölkələrin dünya siyasətində və mədəniyyətində artan rolu nəzərə alınaraq həyata keçirilir. Bu ölkələrdə zəngin mədəni infrastrukturun mövcudluğu mədəni əlaqələrin qurulmasında geniş imkan çalarlarını açır. Hal-hazırda Azərbaycan Yaxın və Orta Şərq ölkələri olan İran, Pakistan, İsrail ilə mədəni əlaqələrin qurulması sahəsində əməli addımlar atır. Sadalanan ölkələr ilə ölkəmizin mədəni əməkdaşlığının tarixi ənənələri mövcuddur ki, müasir mərhələdə onların daha da genişləndirilməsinə böyük səy göstərilir.

Hazırda Azərbaycan digər Şərq ölkələri – Hindistan, Çin, Yaponiya ilə mədəni əməkdaşlığın stabilləşməsinə və genişləndirilməsinə çalışır. Azərbaycan bu ölkələrlə mədəniyyət, incəsənət və təhsil sahəsində mübadilələrə geniş yer verir.

Azərbaycanın Şərq ölkələrilə mədəniyyət, elm və təhsil sahəsində çoxtərəfli əlaqələri üzv olduğu UNESKO, İSESKO, İKT və sair kimi beynəlxalq və regional təşkilatlar çərçivəsində də həyata keçirilir. Dünya mədəniyyət siyasəti sistemində ölkənin milli maraqlarının gözlənilməsi əsas şərt tutularaq beynəlxalq konfranslarda, çoxtərəfili mədəni aksiyalarda iştirak Azərbaycanın mədəniyyət siyasətinin təzahür formalarındandır.

«Azərbaycanın Şərqi Asiya ölkələri ilə mədəni əlaqələri» adlı dərs vəsaiti Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində «Beynəlxalq mədəni əlaqələr» ixtisası üzrə təhsil alan tələbələr üçün olduqca zəruridir. Dərs vəsatində Azərbaycanın Şərqi Asiya ölkələrilə mədəni münasibətləri ictimai, sosial və mədəni hadisə olan «beynəlxalq mədəni əlaqələr» kontekstindən, tarixilik və müasirlik baxımından hərtərəfli təhlil olunur. Ümidvarıq ki, təqdim olunan «Azərbaycanın Şərqi Asiya ölkələri ilə mədəni əlaqələri» adlı dərs vəsaiti tələbələrin və ümumiyyətlə ölkəmizin xarici mədəniyyət siyasəti sahəsində zəruri nəzəri biliklərin, informasiya, praktiki vərdiş və bacarıqların mənimsənilməsində bir töhfədir. Dərs vəsatindən bakalavr, magist tələbələr, aspiarntlar və tədqiqatçılar, ümumiyyətlə xarici mədəniyyət siyasəti problemlərilə maraqlananlar faydalana bilər.

# I Fəsil

## AZƏRBAYCAN VƏ YAXIN VƏ ORTA ŞƏRQ ÖLKƏLƏRI ARASINDA MƏDƏNI ƏLAQƏLƏR

### 1.1. Azərbaycan – İran mədəni əlaqələri

Qərbi Asiyanını aparıcı dövləti olan İran şimaldan Azərbaycanla həmsərhəd olduğuna görə bu ölkə ilə mədəni əlaqələrin tarixi keçmişin dərin qatlarına gedib çıxır. Əhalisinin əsas hissəsini farslar təşkil etmiş olsa da, tarixin bütün dövrlərində bir-biri ilə qonşu olan Azərbacan sakinləri İranın mədəniyyətinə, incəsənətinə təsir göstərmişlər. Özü də bu təsir qarşılıqlı səciyyə kəsb edirdi. Hələ III-VII əsrlərdə Cənubi Azərbaycanın siyasi tarixinin İran Sasanilər dövlətinin hökmranlıq dövrü ilə bağlı olduğundan mədəni əlaqələrin vəziyyətini təsəvvürə gətirmək çətin deyildir. Bu tarixi dövr ərzində Azərbaycana və Sasani İranına məxsus mədəniyyətlər bir-birinə qarışaraq, bir-birindən iqtibas edərək, sintez olunmuş vəziyyətdə bəşər mədəniyyətinə layiqli nümunələr bəxş etmişdir. Sasani dövründə Azərbaycanda fars dilinin aparıcılıq statusuna malik olması, azərbaycanlı alim və şairlərin bu dildə yazıb-yaratmasına səbəb olmuş, eyni zamanda onlar tərəfindən həmin dilə məhəbbət, ehtiramla yanaşma İran mədəniyyətinə hörmətin bir timsalı idi. Sasani mədəniyyətinin hər bir element, məqamında Azərbaycan mədəniyyətinin cizgilərini aşkar etmək heç də çətin deyildir. Artıq bu sahədə sənətşünasların kifayət qədər elmi dəlil və sübutları vardır. «Azərbaycan tarixi»nin yeddicildliyinin II cildində yazılır: «… Sasani dövlətinin mədəniyətinin inkişafında… azərbaycanlıların da bu mədəniyyətin tərəqqisində mühüm mövqe tutmaları şübhəsizdir.»[1] həmin kitabda mədəni əlaqələr kontekstinə aydınlıq gətirən digər fikir aşağıdakı kimi səslənir: «Sasinələr həm imperiyanın iqtisadi cəhətdən daha çox inkişaf etmiş hissəsi olan Azərbaycanda, həm də imperiya hüdudlarına daim müdaxilə edən şimal köçəri tayfaları ilə bilavasitə İran arasında bufer rolunu oynayan Albaniyada nüfuzlarının möhkəmlənməsinə xüsusi maraq göstərirdilər. Ona görə də Cənubi Qafqazın digər vilayətlərinə nisbətən Azərbaycanda Sasani təsiri daha güclü idi. Buna müvafiq Sasani mədəniyyəti ünsürləri burada daha parlaq təmsil olunmuşdur.»[1]

1966-cı ilin yayında Tehran arxeoloji muzeyinin əməkdaşı Qəmbəxş Fərd Xuav çayı hövzəsini (Muğanın mərkəzi hissəsi) tədqiq edərkən, Mişkin şəhrdən cənubda, orta əsr coğrafiyaşünaslarının Varavi şəhərinə uyğun gələn yaşayış yerində daş üzərində orta fars kitabəsi aşkar etmişdir. Bu kitabə çiy kərpicdən tikilmiş orta əsr qalasının yaxınlığındakı Baği Novruz dərəsində idi. Kitabədə göstərilən tarix II Şapurun 27-ci ili Mehr (yəni mart) ayı 335-336-cı ilə uyğun gəlir. Yazının məzmunundan görünür ki, Nərse-Hörmüz adlı birisi bu qalanı yeddi ilə tikdirmişdir. Kitabə vasitəsilə qalanın yanından keçənlərə müraciət edən Nəsre-Hörmüz, onlardan qala ürəklərincə olsa, onu xoş sözlə yad etmələrini xahiş edir, qalanı bəyənməyənlərə isə, bundan daha yaxşısını tikməyi tövsiyyə edir. Cənubi Azərbaycan ərazisində bu günədək aşkar edilmiş ən qədim Sasani epiqrafik abidəsi olan Mişkinşəhr kitabəsi tarixi keçmişimizi öyrənmək baxımından qiymətli olduğu kimi, qala İranla mədəni əlaqələrin tarixini tədqiq etmək cəhətdən də maraqlıdır. Tanınmış memar-alim Cəfər Qiyasinin «Yaxın-uzaq ellərdə» adlı kitabında İran memarlıq mədəniyyətinin inkişafına Azərbaycan sənətkarlarının təsiri, məhz mədəni əlaqələrin məhsulu olan mədəni iqtibas kontekstində öyrənilir. Kitabda müəlif mədəni əlaqələrin tarixinə qısa ekskurs edərək yazır: «Hələ Əhəmənilər dövründə farslar Midiyalıların şəhərsalma ənənələri, eləcə də saray və qaya türbələrinin əsas prinsiplərini mənimsəmişdirlər. Eramızdan qabaq VI-V əsrlərdə I Daranın saray tikililərinin dekorativ bəzəklərini Midiya ustaları işləmişdirlər. İslam dövründə də azərbaycanlılar İran memarlığının inkişafına hiss olunan təsir göstərmişlər.»[2]

Azərbaycan – İran mədəni əlaqələrinin inkişaf tarixində ilkin çağlar və orta əsrlərin müstəsna yeri vardır. Bunun da başlıca səbəbi ilk növbədə onunla izah edilir ki, «İran» adı bəzi dövrlərdə içərisində müxtəlif xalqları, ölkələri birləşdirən iri dövlət, imperiya mənasında işlədilirdi ki, Azərbaycan da bu dövlətlər sırasında idi. Lakin yetkin feodalizm çağında Azərbaycan onun həm siyasi, həm də mədəni mərkəzi olub. Bu gün Zərdüştlüyün geneoloji kökləri, onun daha çox İran, yoxsa Azərbaycana məxsusluğu haqqında elmi mübahisələrin əsasında da məhz bu amil, yəni Azərbaycanın İran xalqları arasında qaynayıb qarışması məsələsi durur. Əlbəttə, hazırda bizi bu elmi mübahisələrin nəticələri deyil, Azərbaycan – İran mədəni əlaqələrinin tarixi mövcudluğu məsələsi düşündürür ki, bu haqda da dəlillər kifayət qədərdir.

Azərbaycan – İran mədəni əlaqələrinin inkişaf dinamikasında XIX-XX əsrin özünəməxsus yeri vardır. Artıq orta çağlardan fərqli olaraq hər iki dövlətin – Azərbaycan və İranın siyasi vəziyyətində ciddi stabillik yaranmış, bu əsrlərdə mədəni əlaqələr ölkələrarası, dövlətlərarası mahiyyət kəsb edir. Çünki XIX əsrin

---

[1] Azərbaycan tarixi, II cild, B., 1998, səh 125
[1] Azərbaycan tarixi, II cild, B., 1998, səh 128-129
[2] Qiyasi C. Yaxın-Uzaq ellərdə B., 1985, s. 65

əvvəllərində Rusiya çarlığı və İran şahlığı arasında aparılan müharibələrin sonunda 1813-cü ildə məşhur Gülüstan sülh müqaviləsi imzalandı. Həmin müqaviləyə görə Azərbaycan ərazisi iki dövlət tərəfindən iki hissəyə bölündü. Şimal hissəsi Rusiya dövləti, cənub hissəsi isə İran dövlətinin dördüncü əyaləti (Azərbaycan əyaləti) adı ilə İranın tərkibində qaldı. Azərbayan əhalisinin böyük bir hissəsinin İranın tərkibində qalması İranla mədəni əlaqələrin daha da inkişafı üçün başlıca səbəb oldu. Lakin bu tarixi hadisənin ilk çağlarında Çar hökuməti bu sahədə xüsusi bir siyasət yeritmək marağında olmadığına görə İran azərbaycanlıları, eləcə də İranla mədəni ünsiyyəti davam etdirmək dövrün tanınmış və görkəmli ziyalılarının üzərinə düşdü. Fars dilinin tədqiqində XIX əsrin görkəmli maarifpərvər xadimi A.Bakıxanovun (1794-1847), Mirzə Kazımbəyin (1802-1870) xidmətlərini xüsusi vurğulamaq lazımdır. Görkəmli Azərbaycan filosofu, mütəfəkkiri M.F.Axundovun (1812-1878) iranlı diplomat və yazıçı Mirzə Mülküm Xan Nizam üd-dövlə (1833-1908) ilə səmərəli ədəbi əlaqələrinin məğzində məhz bu məsələ dururdu.

XX əsrin əvvəllərində Bakıda neft mədənlərinin fəaliyyətə başlaması İrandan (əsas etibarı ilə Cənubi Azərbaycandan) buraya işləmək üçün fəhlələrin axınına səbəb oldu ki, bu da mədəni əlaqələrin yeni tarixi şəraitə uyğun yaranmasına zəif də olsa təkan verdi. XX əsrin ilk onilliklərində İranda milli hərəkatların (Səttarxan hərəkatı) geniş vüsət tapmasında Azərbaycan mədəniyyətinin bir çox istiqamətlərinin təsiri mövcud idi. Böyük demokrat, azərbaycanlı Cəlil Məmmədquluzadənin redaktorluğu ilə Azərbaycan dilində Tiflisdə nəşr olunan «Molla Nəsrəddin» jurnalının nömrələri Cənubi Azərbaycanda da yayılmağa başlayırdı.

İranda genişlənməkdə olan demokratik hərəkatlar (1906-1911) Bakıda yaradılmış «Hümmət» (1904), «Ədalət» (1917) partiya təşkilatları və İranda yaradılmış mücahid dəstələri xətti ilə İran - Azərbaycan əlaqələri genişlənirdi. «Hümmət» təşkilatı Cənubi Azərbaycanda yaradılmış «İctimaiyyun amiuyun» (Mücahid) təşkilatı ilə əlaqələr yaratmışdır. Azərbaycan filosofu Ə.Hüseynzadənin «Siyasəti–fürusət» («At oynatmaq siyasəti») fəlsəfi əsərində Səttarxan hərəkatı – «çəkiliniz ortadan, mədəniyyət gəlir. Təbriz mücahidlərinin, səttarxanların qalibiyyəti ilə gəlir», - deyə alqışlamışdır.

Həmin illərdə İranla mədəni əlaqələrin yaranmasında «Mola Nəsrəddin» məcmuəsinin bu ölkənin Təbriz, Tehran kimi iri şəhərlərinə göndərilməsinin çox böyük mədəni əhəmiyyəti var idi. Azərbaycanın məşhur teatr xadimi Sidqi Ruhulla Təbrizdə öz dəstəsi ilə qastrolda olmuş və yerli ziyalıların da iştirakı ilə Ə. Haqverdiyevin «Bəxtsiz cavan» əsərinin tamaşasını göstərmişdir.

1901-1917-ci illərdə aşağıdakı görkəmli ziyalıların həyat və yaradıcılığı İranla bağlı olmuşdur. Hüseyn Cavid (1882-1941) 1899-1903-cü illərdə Cənubi Azərbaycanda yaşamış və Təbriz mədrəsəsində təhsilini davam etdirmişdir. Şərqşünas alim Məhəmməd ağa Şahtaxtlı (1846-1931) 1911-1913-cü illərdə İranda yaşamışdır. Dramaturq Ə.Haqverdiyev (1870-1933) 1907-ci ildə yazdığı «Əhmədin qeyrəti» hekayəsini Cənubi Azərbaycanda gedən milli azadlıq mübarizəsinə həsr etmişdir.

Tanınmış azərbaycanlı demokrat Mirzə Bala Məmədzadə 1927-ci ildə İstanbulda nəşr etdirdiyi «Ermənilər və İran» adlı əsərində Cənubi Azərbaycanın İrana, xüsusilə də, buradakı azərbacanlıların mədəni inkişafa necə təsir göstərdiyi haqda yazırdı: «XX əsrin əvvəllərində azadlıq hərəkatının İran daxilində mərkəzi – Təbriz, İran xaricində isə – Bakı idi… Şimali Azərbaycanın iqtisadi nüfuzu altında olan İran Azərbaycanına da bu «iqtisadi inqilab» öz təsirini göstərirdi. Digər tərəfdən isə İranda feodal üsul-idarəsi (Məhəmməd Əli şah Qacar istibdadı) hökm sürürdü. Belə bir şəraitdə Qafqaz Azərbaycanı (ilk növbədə Bakı) Cənubi Azərbaycanda azadlıq hərəkatına geniş miqyasda mədəni köməklik edirdi. Cənubi Azərbacanda nəşr edilən ilk demokratik qəzetlər, ilk teatr və məktəbləri də əsasən şimali azərbaycanlılar təşkil etmişdirlər.»[1]

XX əsrin 20-ci illərində Azərbaycanın məşhur incəsənət xadimləri, aktyorlarından olan S.Ruhulla, A.M.Şərifzadə, M.R.Vaizzadə və digərləri Cənubi Azərbaycanda Ü.Hacıbəyovun bir neçə səhnə əsərinin tamaşasını yaratmışdar. Ü.Hacıbəyovun əsərlərindən başqa Təbrizdə yerli artistlərin iştirakı ilə N.Nərimanovun «Nadir şah» pyesi, Z.Hacıbəyovun «Əlli yaşında cavan» əsərləri də səhnələşdirilmişdir.

Hüseyn Cavidin «Şeyx Sənan», «İblis», «Peyğəmbər» pyesləri, M.F.Axundovun «Müsyö Jordan və dərviş Məstəlişah» tamaşaları Təbrizdən başqa, İranın Tehran, Məşhəd, Xoy və digər şəhərlərində də səhnələşdirilmişdir.

İran xalqları ilə Azərbaycan arasında mədəni əlaqələrin qurulması işində 1920-ci ilin sentyabrında Bakıda keçirilmiş Şərq xalqlarının I qurultayının da əhəmiyyətli dərəcədə rolu olmuşdur. İranı həmin qurultayda 204 nəfər təmsil edirdi ki, heyətə Heydər Əli oğlu Tarıverdiyev və İ.Şəbüstəri rəhbərlik edirdi.

Çox yaxın qonşu və həmsərhəd olmasına baxmayaraq Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra Azərbaycan – İran mədəni əlaqələri yalnız Moskvanın razılığı ilə diplomatik səviyyədə aparılırdı. Digər tərəfdən İran dövlətinin özü də mədəni əlaqələrin ardıcıl təşkili məsələsində həm fəal, həm də maraqlı deyildi. Çünki İran tərəfi Cənubi Azərbaycan məsələsinə görə münasibətlərin, xüsusilə də mədəni ünsiyyətin fəallığına çox qısqanclıqla yanaşırdı. Lakin bütün bunlara baxmayaraq Moskvanın çox ciddi və senzuralı siyasəti əsasında İranla mədəni əlaqələr məhdud səviyyədə olsa da, aparılırdı. Özü də SSRİ – İran mədəni əlaqələri daha çox

[1] Məmmədzadə M.B. Ermənilər və İran. B., 1993, s. 33-34

Azərbaycanla əməkdaşlıq sistemində həyata keçirilirdi. Xüsusilə, ədəbi əlaqələr qənaətbəxş səviyyədə idi. Hər iki ölkənin ədibləri istər Azərbaycanda, istərsə də İranda demək olar ki, kütləvi şəkildə mütaliə edilirdi. Azərbaycan ədəbiyyatında İran, Cənubi Azərbaycan tematikası mühüm əhəmiyyət və özü də aktuallıq kəsb edirdi. C.Cabbarlının «Nəsrəddin şah», «Araz çayı», M.S.Ordubadinin «Dumanlı Təbriz», S.Vurğunun «Təbriz gözəli» bu qəbildən olan əsərlərdəndir. 1928-ci ildə M.Kazıminin «Qorxulu Tehran» əsəri farscadan Azərbaycan dilinə tərcümə edilərək Bakıda nəşr olundu.

Təhsil, maarif sistemi sahəsində də əlaqələr mövcud idi. 1922-ci ildə ADU-də təşkil olunmuş «Şərqşünaslıq» fakültəsində İran bölməsi yaradılmış və burada fars dili və ədəbiyyatı, İran tarixi üzrə mütəxəsisslər hazırlanmağa başlanılmışdır.

1934-cü ildə böyük fars şairi Əbülqasim Firdovsinin 1000 illik yubileyinin beynəlxalq səviyyədə keçirilməsi Azərbaycan – İran mədəni əlaqələrinin inkişafına da xeyli dərəcədə təsir göstərdi. Belə ki, şairin «Şahnamə» əsəri farscadan tərcümə olunaraq «Seçilmiş əsərlər» silsiləsində Bakıda nəşr edildi. Yubiley tədbirlərində iştirak üçün Bakıya İranın məşhur alimi Səid Nəfisinin başçılığı ilə nümayəndə heyəti gəlmişdir.

XX əsrin 30-cu illərində İranda aparılan mədəni islahatlar zamanı digər milli azlıqlar kimi azırbaycanlıların hüququna biganəlik, hökumətin farslaşdırma siyasətinin tətbiqi əslində demokratiyaya zidd bir hadisə idi. Fars millətçiliyinin təsiri ilə İranda yaşayan digər müsəlman xalqlar kimi azərbaycanlıların da öz mədəniyyətindən, kökündən, soyundan təcridi göz qabağında idi. Bunu dərk edən hər iki xalqın qabaqcıl ziyalıları xalqlar arasında mədəni əlaqələrin inkişaf etdirilməsi işinə xidmət edirdilər. Bu işdə Seyid Məhəmməd Hüseyn Şəhriyar (1906-1995), Məmməd Səid Ordubadinin xidmətlərini (1872- 1950) xüsusi qeyd etmək lazımdır. Azərbaycan – İran mədəni əlaqəlrinin davam etdirilməsində bu yazarların rolu çox böyük olmuşdur. Onlar hər iki ölkədə sevilir, əsərləri dildən-dilə gəzirdi.

Azərbaycan – İran mədəni əlaqələri tarixi prosesində XX əsrin 40-cı illərinin özəllikləri mövcud idi. Bu ilk növbədə, II Dünya müharibəsinin səbəbkarı olan Almaniyanın İran dövlətindən müəyyən dəstək alması ilə izah edilirdi ki, bu da SSRİ ilə əlaqələrin bir qədər soyuq münasibətləri ilə müşayiət edilirdi. Rəsmi sənədlərə əsasən İran dövləti Almaniyanın SSRİ-yə qarşı başladığı müharibədə bitərəf mövqeyini elan etdiyinə görə 1941-ci ilin avqustunda SSRİ öz ordusunu İranın SSRİ ilə həmsərhəd olan şimal ərazisinə (Cənubi Azərbaycan) yerləşdirməli oldu. Yerləşdirilmiş bu ordunun tərkibində Azərbaycanın 77-ci, 396-cı, 402-ci milli diviziyaları da var idi. Diviziyanın mövcudluğu azərbaycanlı əskərlərlə İran əhalisi arasında səmimi ünsiyyətin yaranmasına səbəb oldu. İranın Urmiya, Rəşt şəhərlərində nəşr olunan qəzetlərdə azərbaycan döyüşçüsü tematikası başlıca yer tuturdu.

1943-cü il noyabrın 28-də Tehranda işə başlamış SSRİ, ABŞ və Böyük Britaniya dövlətləri başçılarının konfransı Azərbaycan – İran mədəni əlaqələrinin genişlənməsinə bir təkan oldu. 1943-cü ilin payızında SSRİ – İran Mədəni Əlaqələri Cəmiyəti yaradıldı. Bu illərdə Cənubi Azərbaycanda mədəni muxtariyyət məsələsində də irəliləyişlər əldə olundu ki, bu da İranla mədəni əlaqələrin inkişafının bir istiqaməti idi. 1946-cı ilin martında Təbrizdə Azərbaycan dövlət dram teatrı açıldı. Onun yaradılması tanınmış rejissor Hidayət Əfəndiyevin adı ilə bağlıdır. Sovet Azərbaycanının incəsənət xadimləri İranda geniş proqramlarla əhali arasında görüşlər keçirməyə davam edirdilər.

1942-ci ilin fevralından aprelin əvvəlinə qədər İranda Rəşid Behbudovun qastrolları, həmin ilin martında Sara Qədimovanın başçılığı altında konsert proqramının açılışları, iyun-sentyabr aylarında Xan Şuşinski, Hüseynağa Hacıbabayev, Əlövsət Sadıqov, Bəhram Mansurov, Hacı Məmmədov və başqalarının Təbriz, Maku, Xoy və digər şəhərlərdə təşkil etdikləri konsertlər böyük maraqla izlənilmişdir.

1944-cü ilin iyununda Təbrizdə yaradılmış «Sovet mədəniyyəti evi»nin xəttilə İranın 40-dan çox şəhərində «Sovet – İran Mədəni Əlaqələr Cəmiyyəti»nin şöbələri fəaliyyət göstərirdi.

Təbrizin tərəqqipərvər ziyalıları 1945-ci ilin noyabrın 19-da «Sovet Azərbaycanı dostları» cəmiyyətini yaratdılar. Diqqətəlayiq hadisələrdən biri elə həmin ilin oktyabrında Bakıda görkəmli şair Səməd Vurğunun sədrliyi altında «İranla Mədəni Əlaqələr Üzrə Sovet Cəmiyyəti»nin yaradılması faktı oldu. Bu qurumlar Azərbaycan – İran mədəni əlaqələrinin inkişaf dinamikasına əhəmiyyətli şəkildə təsir göstərmişdir. S.Vurğun çıxışlarının birində demişdir: «Azərbaycanda yaradılan İranla Mədəni Əlaqələr Cəmiyyətinin məqsədi Azərbaycan xalqının mədəniyyət sahəsindəki nailiyyətlərini İranda tanıtdırmaq, habelə İranın elm, ədəbiyyat və incəsənət sahəsindəki müvəffəqiyyətlərini Azərbaycanın geniş zəhmətkeş kütlələrin malı etməkdir.»

1943-cü ilin oktyabrında Tehranda yaradılmış «İranın SSRİ ilə Mədəni Əlaqələr Cəmiyyəti»nin idarə heyəti tərkibinə fəxri sədrlər səviyyəsində İranın Baş naziri Bəyat, SSRİ-nin İrandakı səfiri Maksimov da daxil idi. Cəmiyyət 1944-cü il avqustun 1-dən etibarən «Yeni xəbər» jurnalını nəşr etdirməyə başladı. Jurnalda SSRİ Ali Sovetinin deputatı Çimnaz Aslanovanın, akademik Heydər Hüseynovun, Şeyxülislam Əlizadənin məqalələri çap olunmuşdur.

Mədəni əlaqələr cəmiyyətinin Təbriz şöbəsi Sovet Azərbaycanına aid 180 mühazirə və 17 konsert keçirmişdir.

Keçən əsrin 40-cı illərinin ortaları İranın ictimai-siyasi, sosial həyatında ziddiyyətlər, böhranlarla dolu bir dövr idi. Xüsusilə, ölkənin azərbaycanlıar məskunlaşmış Cənubi Azərbaycan hissəsində demokratların qətlə yetirilməsi İrandan Sovet Azərbaycanına pənah gətirənlərin sayının artmasına səbəb oldu. Əslində doğma vətəninə pənah gətirmiş bu demokratların bir hissəsi sonradan ədəbiyyat, incəsənət üzrə yüksək nailiyyətlər əldə etdilər. Belələrinə Balaş Azəroğlu, Tahir Zöhrab, Rübabə Muradova və digərlərini misal göstərmək olar.

Ötən əsrin 50-ci illərində Azərbaycan – İran mədəni əlaqələrini davam etdirilməsində şair Şəhriyarın adı xüsusi olaraq çəkilməlidir. Onun məşhur «Heydər babaya salam» (əsər ilk dəfə 1951-ci ildə Təbrizdə çap olunub) poeması Azərbaycan – İran dostluğunun himninə çevrilmişdir.

Artıq 1960-cı illərdə İranla mədəni əlaqələr digər istiqamətlər üzrə geniş vüsət tapırdı. 1960-cı ilin avqustunda Moskvada keçirilmiş Şərqşünasların XXV Beynəlxalq konfransında yaradılmış İran seksiyasında Azərbaycan alimlərindən akademiklər Əbdülkərim Əlizadə, Əlövsət Sumbatzadə fars dilində məruzə etdilər. Azərbaycanın digər alimi Rüstəm Əliyev məşhur İran şairi Sədinin əsərlərinin tam külliyatını çapa hazırlamaq üçün İrana dəvət edildi və İranda onun özünün 20-yə yaxın əsəri çap olunaraq geniş yayıldı.

Azərbaycan – İran mədəni əlaqələrinin inkişafında 1963-cü ilin mayın 16-da Moskvada SSRİ- İran Mədəni Əlaqələr Cəmiyyətinin təsisi mühüm tarixi hadisəyə çevrildi. Əvvəlki cəmiyyətlərdən fərqli olaraq bu qurumun fəaliyyət dairəsi daha geniş və məzmunlu əhəmiyyət kəsb edirdi.

1962-ci ilin oktyabrında «Sovet Azərbaycanının Xarici Ölkələrlə Mədəni Əlaqələr Cəmiyyəti»nin xətti ilə M.F.Axundovun anadan olmasının 150 illik yubileyində iştirak etmək üçün dəvət alan görkəmli İran alimi, professor Səid Nəfisi Tehrana qayıtdıqdan sonra «Pəyami Nəvin» jurnalında yubiley haqqında təəssüratlarını səmimi şəkildə bildirmişdir. Həmin məqalədə alim Azərbaycan alimlərinin İran mədəniyyətinə, elminə olan maraq və məhəbbətini də etiraf edərək yazırdı: «Azərbaycan Elmlər Akademiyası Tarix İnstitutunun alimlərinin çoxu (qadın və kişi) İran tarixi üzərində də ciddi məşğul olub, elmi tədqiqat işləri aparırlar. Bu barədə çoxlu maraqlı əsərlər yazılmış və tərcümə edilmişdir. O cümlədən mənim «Babək Xürrəmdin» əsərimi də tərcümə etmişlər.»[1] Müəllif məqaləsində ADU-nun şərqşünaslıq fakültəsində fars dilinin tədrisinini yüksək səviyyəsindən də ürək dolusu danışaraq iranlılara Azərbaycan ölkəsinin mədəni əlaqələr sahəsindəki nailiyyətlərini təbliğ edirdi.

Sovet – İran Mədəni Əlaqələr Cəmiyyətinin Azərbaycan şöbəsinin dəvətilə 1964-cü ilin payızında SSRİ-yə ilk dəfə qastrola gələn İran musiqiçiləri – müğənnilər İlahə xanım (Elahə), Məsudi, skripkaçı Həbibulah Bədin, tarzən Fərhəng Şərifin konsertləri M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında böyük anşlaqlarla keçmişdir.

1964-cü ilin avqustunda Xarici ölkələrlə Sovet Dostluq və Mədəni Əlaqə Cəmiyyətləri İtttifaqının dəvətilə İranın Sovet İttifaqı ilə Mədəni Əlaqə Cəmiyyətinin nümayəndə heyəti Bakıya rəsmi görüşə gəlmişdir. Cəmiyyətin prezidentinin müavini Həmid Səyyahın başçılığı ilə iranlı qonaqlar Azərbaycanın bir çox tarixi-mədəni yerlərində olmuş, mədəniyyət , elm, təhsil ocaqlarında görüşlər keçirmişlər. Səfərin başlıca missiyası İran – Azərbaycan arasında mədəni yaxınlığın təmini məqsədi ilə birgə fəaliyyətin qurulması məsələsi idi. Bakıda iranlı qonaqları İranla Sovetlərin Mədəni Əlaqələr Cəmiyyəti Azərbaycan şöbəsinin sədri, SSRİ xalq artisti Rəşid Behbudov çox mehribanlıqla qarşılamışdı. Səfər çox işgüzar və səmərəli xarakter daşımışdı.

1966-cı ilin aqustunda Tehranda SSRİ – İran dövlətləri arasında mədəni əlaqələrin genişləndirilməsi üzrə bağlanan müqavilə, xüsusilə Azərbaycan – İran mədəni əməkdaşlığına təkanverici təsir göstərdi. İranla mədəniyyətin bütün istiqamətləri üzrə əlaqələrin yaradılmasına diqqət gücləndirildi. İranın özündə Azərbaycan mədəniyyətinə maraq getdikcə artmaqda idi. İranın SSRİ ilə Mədəni Əlaqələr Cəmiyyətinə məxsus zəngin kitabxanada Azərbaycanın görkəmli ədibləri – S.Rüstəm, R.Rza, S.Vurğun, S.Rəhimov, M.İbrahimov və digərlərinin ədəbi, publisistik əsərləri iranlıların maraqla mütaliə etdikləri yazı nümunələrindən idi. Bu kitabxanada, eləcə də Azərbaycan SSR EA Yaxın və Orta Şərq xalqları İnstitunun elmi əməkdaşlarının çap etdirdikləri əsərlərə də maraq aparıcı yer tuturdu. Bu Azərbaycan mədəniyyətinə marağın təzahürü idi. Belə bir maraq qarşılıqlı idi. Azərbaycanda da İran incəsənətini sevir, bakılılar İran sənətkarlarının qastrollarını intizarla gözləyirdilər. 1968-ci ilin fevralında İranın simli musiqi ustalarından ibarət qrupun Bakı zəhmətkeşləri qarşısında çıxışları alqışlarla qarşılanmışdır. On dörd ifaçı ilə Bakıda qastrol zamanı İran sənətkarları eyni zamanda bəstəkar Emin Mahmudovla (sonradan Sabit oğlu), rəqqasə Əminə Dilbazi ilə yaradıcılıq mübadiləsi edərək bir sıra Azərbaycan musiqi əsərlərini mənimsəmişlər. E.Mahmudovun «Dərələr» mahnısı, Əminə Dilbazinin rəhbərliyi ilə «Ceyran» rəqsini sonralar iranlılar öz vətənlərində ifa etmişlər.

Azərbaycan – İran mədəni əlaqələri çərçivəsində elmi əlaqələrin rolu böyükdür. Əsas məsələ onda idi ki, bu əlaqələrin elmi cəhətdən çox böyük qiyməti vardı. İranın görkəmli alimi, Pəhləvi kitabxanasının müdir müavini Məcid Yektanın 1967-ci ilin əvvəllərində Bakıya gəlişi elmi ictimaiyyətdə mühüm hadisə oldu. Alim Azərbaycan SSR EA-nın bir sıra institutlarının alimləri ilə tanış olmuş, xüsusilə, onun respublikanın məşhur arxeoloqları ilə yaradıcılıq görüş və mübadilələrinin nəticələri sonradan Tehranda nəşr olunan «Bərrəsihaye

[1] Ədəbiyyat və İncəsənət qəzeti 1963-cü il 18 may

tarixi» (Tarixi tədqiqat) jurnalının 5-ci nömrəsində «Kür və Araz çayları sahillərində qazıntılar» adlı məqalədə öz əksini tapmışdı. Məqalədə qeyd olunurdu ki, bu mühüm arxeoloji tapıntılar və Azərbaycan alimləri tərəfindən çıxarılan dəyərli nəticələr həm də İran tarixinin öyrənilməsinə imkan yaratdığı üçün diqqətəlayiqdir.

Tarix elmləri doktoru, professor Püstəxanım Əzizbəyovanın da 1969-cu ildə İrana elmi yaradıcılıq səfəri hər iki ölkənin elmi əlaqələrinin inkişaf etdirilməsi işində mühüm tədbirlərdən idi. İranın SSRİ ilə Mədəni Əlaqələr Cəmiyətinin 25 illik yubileyində iştirak etmək məqsədilə, həmçinin İranın elmi təşkilatları, mədəniyyət ocaqları, qadın təşkilatları ilə yaxından tanış olmaq üçün bir qrup sovet nümayəndəsi ilə İranda olmuş P.Əzizbəyova öz təəssüratlarını mətbuat səhifələrində azərbaycanlı oxucularla bölüşmüş, İran mədəniyyəti, xalqları haqqında kifayət qədər müfəssəl, ətraflı məlumat vermişdir.*

Azərbaycan – İran mədəni əlaqələrinin inkişaf dinamikasında keçən əsrin 70-ci illərinin özünəməxsus yeri olmuşdur. Çünki 1972-ci ilin oktyabrında SSRİ – İran mədəni əlaqələri üzrə beşillik plan hazırlandı. 1978-ci ilin iyununda bu plana uyğun olaraq iki ölkə arasında mədəni əməkdaşlıq haqqında protokol imzalandı. 1972-ci ildə Cənubi Azərbaycanda ilk televiziya verilişlərinə başlanıldı.

1975-ci ilin iyununda Bakıda SSRİ və İran gənclərinin dostluq həftəsi keçirildi. 1978-ci ilin mayında isə Bakıda Sovet – İran elmi-texniki əməkdaşlıq konfransı təşkil olundu. Göründüyü kimi, SSRİ – İran mədəni əlaqələrinin təşkili sistemində həm məsafə, həm də mənəvi dəyərlər baxımından bir-bri ilə yaxınlıq amili də Azərbaycan – İran mədəni əməkdaşlığını daha da gücləndirirdi. Bu əməkdaşlığın inkişafını təmin edən dəgər dəlil vaxtilə bu ölkədən Azərbaycana mühacirət etmişlərin, yaxud da əksinə, İrana köçmüş azərbaycanlıların tarixi əlaqələri davam etdirmək missiyası idi. Qulamrza Səbri Təbrizi, Cavad Heyət, Balaş Azəroğlu və başqaları nəinki, 70-ci illərdə, hətta indiyədək İranla Azərbaycan arasında mədəni əməkdaşlıq işində canlı körpü rolunu oynayan şəxsiyyətlərdir.

Ümumiyyətlə, qeyd etmək lazımdır ki, 70-80-ci ilər İranın sosial-siyasi həyatında qeyri-stabil bir dövr olduğundan, bu vəziyyət mədəni əlaqələr sistemində də öz əks-sədasını təzahür etdirmişdi. Məsələn, 1978-1979-cu illərdə İranda baş verən milli hərəkat mütləq monarxiyanın devrilməsi və əvəzində dini hakimiyyət əsasları üzərində dövlətin yaraması ilə nəticələndi. İlk baxışda bu tarixi hadisə İran azərbaycanlılarının bir çox demokratik azadlıqlara nail olmasından xəbər versə də, bu sona qədər özünü doğrultmadı. İnqilabın ilk günlərində Cənubi Azərbaycanda ana dilində bir çox jurnallar nəşrə başlasa da, lakin sonrakı illərdə bunlardan yalnız bir neçəsi üçün fəaliyyətini davam etdirmək imkanı yaradıldı. Lakin bütün bunlara baxmayaraq Azərbaycan – İran mədəni əməkdaşlıq çərçivəsində İranda yaşayan müxtəlif xalq və millətlərlə yanaşı azərbaycanlıların mədəni inkişafı üçün də mövcud imkanlardan bacarıqla istifadə olunurdu.

1991-ci ilin noyabrında Azərbaycanda müstəqilliyin elan edilməsi Azərbaycanla – İran arasında mədəni əlaqələrin tarixində yeni bir səhifənin açılmasına səbəb oldu. 1992-ci ilin əvvəlindən başlayaraq müstəqil Azərbaycan Respublikasının Xarici işlər Nazirliyi və Mədəniyyət Nazirliyi İran ilə mədəni əlaqələrin müstəqil olaraq təşkil edilməsinə başladılar. 1993-cü ilin dekabrında İran prezidenti Əli Əkbər Haşimi Rəfsəncaninin Azərbaycana gəlişi zamanı mədəni əlaqələrin yeni demokratik prinsiplər əsasında yenidən qurulması ilə bağlı sənədlər imzalandı. Həmin sənədlərə İran İslam Respublikasının mədəniyyət mərkəzi ilə Azərbaycan Elmlər Akademiyası arasında elmi sahədə əməkdaşlıq haqqında saziş, İran İslam Respudikası ilə Azərbaycan Respublikası arasında elm, mədəniyyət sahəsində saziş (Naxçıvan Muxtar Respublikasına dair), Azərbaycan Respublikası ilə İran İslam Respublikası ararsında mədəniyyət, elm, təhsil sahəsndə əməkdaşlıq haqqında qarşılıqlı anlaşma protokolu, Azərbaycanın Təhsil Nazirliyi ilə İran İslam Respublikasının Ali Təhsil və Mədəniyyət Nazirliyi arasında elm, təhsil və tədqiqatlar sahəsində əməkdaşlıq haqqında memorandum imzalandı. İmzalanan bu sənədlər, hər şeydən əvvəl, Azərbaycan – İran mədəni əlaqələrinin ümidverici perspektivlərini müəyyənləşdirən hüquqi-normativ baza rolunu oynadı.

1994-1996-cı və sonrakı illərdə İranda rəsmi səfərdə olmuş Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev mədəni əlaqələrin inkişafı ilə bağlı sənədlərin imzalanmasına da mühüm önəm vermişdi. Prezident H.Əliyevin 1997-ci ilin dekabrında Tehranda keçirilən İslam Konfransı Təşkilatının (İKT) zirvə görüşündə iştirakı zamanı İranın Prezidenti S.M.Hatəmi, Ali dini rəhbər Ayətullah Xomeyni və digər yüksək səviyyli rəsmilərlə görüşləri ikitərəfli mədəni münasibətlərin inkişafına təkan oldu. 1998-ci ilin payızında Bakıda prezident H.Əliyevin himayəsi ilə «Qafqazda islam mədəniyyəti» adı altında təşkil olunan Beynəlxalq Konfransda İrandan gəlmiş qonaqlara dərin hörmət və ehtiram göstərilmişdir. 1999-cu ilin avqustunda Azərbaycan Respublikası prezidenti H.Əliyevin tanınmış İran müğənnisi Yaqub Zurufçu ilə görüşü də İranla mədəni əlaqəlrin inkişafında mühüm hadisədir.

Azərbaycan – İran mədəni əlaqələri tarixində 2002-ci ilin mayın 20-də bu ölkəyə rəsmi səfərə getmiş Azərbaycan Respublikasının Prezidenti H.Əliyevlə İran İslam Respublikasının Prezidenti Məhəmməd Hatəmi arasında imzalanan «Azərbaycan Respublikası ilə İran Respublikası arasında dostluq və əməkdaşlıq münasibətlərinin prinsipləri haqqında» müqavilənin tarixi, mədəni əhəmiyyətli oldu. Bunun ardından həmin

* Бах Коммунист гязети 1969-ъу ил 5,6,8,10 феврал

görüş zamanı «Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə İran İslam Respublikasının Elm, Tədqiqatlar və Texnologiya Nazirliyi arasında təhsil və tədqiqat sahəsində əməkdaşlıq haqqında memorandum», «Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə İran İslam Respublikasının Mədəniyyət və İslam İrşad Naziriliyi arasında mədəni əməkdaşlıq haqqında memorandum» sənədləri də imzalandı. Azərbaycan – İran mədəni əməkdaşlığı üçün yaradılmış hüquqi baza iki ölkə arasında mədəni yaxınlaşmanın yeni-yeni forma və üsullarının tapılması, ondan istifadə üçün kifayət qədər imkanlar yaratdı. Bu hüquqi bazaya söykənərək Cənubi Azərbaycanda yaşayan azərbaycanlıların mədəni tərəqqisi üçün mövcud imkanların səfərbər olunması, Azərbaycan tərəfindən bu işə yaxından köməkliyin göstərilməsi və dəstəyin verilməsinə şəraitin yaradılması bu imkanlar sırasına daxildir. Bundan başqa İran azərbaycanlılarının mədəni fəaliyyətindən İran – Azərbaycan mədəni əməkdaşlığında fəal qüvvə kimi istifadə edilməsi də yeni tarixi şəraitin tələblərindən biri kimi təzahür tapdı. Azərbaycan – İran mədəni əlaqələri tarixində hərəkətverici statusa malik olan bu amilin rolu bu gün daha da səmərəli və zəruri əhəmiyyət kəsb edir.

İki ölkə arasında mədəni əlaqələrin inkişafı tarixində 2007-ci ilin fevralında Azərbaycanda «İsfahan mədəniyyəti günləri»nin keçirilməsi keyfiyyətcə yeni bir hadisə oldu. İran İslam inqilabının 28-ci ildönümü ilə İsfahan şəhərinin 2006-cı ildə İslam dünyasının mədəni paytaxtı seçilməsi münasibəti ilə Bakıda «İsfahan mədəniyyətəi günləri»nin təşkili Azərbaycanın mədəni həyatında mühüm mədəni hadisə idi. Bu mədəniyyət günləri çərçivəsində bakılılar İsfahana məxsus olan təsviri sənət sərgisi, musiqi görüşləri, kino həftəsi ilə yaxından tanış oldular. Hələ vaxtilə Səfəvilər dövlətinin paytaxtı olmuş İsfahan çox zəngin mədəniyyətə malik bir İran şəhəridir. Öz gözəlliyi, qədim və zəngin mədəniyyəti ilə Azərbaycan xalqına tanış olan bu şəhərin nailiyyətlərini görmək bakılılara xoş təəssürat bəxş etdi. V.Səmədova adına sərgi salonunda təşkil olunan sərgidə azərbaycanlı sənətsevərlər İsfahanın təsviri sənət nümunələri ilə yaxından tanış oludular.

Yeni mərhələdə Azərbaycan-İran arasında əməkdaşlığın təzahürü kimi 2007-ci il iyunun 21-də İran İslam Respublikasının Prezidenti Mahmud Əhmədineyad və İranın İslam Şurası Məclisinin sədri Qulaməli Həddad Adel tərəfindən Tehranda səfərdə olan Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarovun başçılıq etdiyi nümayəndə heyətinin qəbulu oldu. Xəzəryanı ölkələrin xarici işlər nazirlərinin Tehran toplantısında iştirak edən nümayəndə heyətinin rəhbəri Elmar Məmmədyarov iki gün ərzində İran rəsmiləri ilə keçirilmiş ikitərəfli görüşlərin faydalı və səmərəli olduğunu qeyd etmiş, həmin görüşlərdə ölkələrimiz arasında münasibətlərin inkişaf perspektivlərini müzakirə etmişdir. E.Məmmədyarov İranın xarici işlər naziri Məniçehr Mottəki ilə görüşdə, nəqliyyat sahəsində əməkdaşlıq perspektivləri müzakirə edilərək, xüsusi ilə Orta Asiya .lkələrində çıxarılan təbii qazın İran vasitəsilə Azərbaycana nəql olunması, İranın Bakı-Tbilisi-Ceyxan kəmərinə qoşulma imkanları, Şimal-Cənub nəqliyyat dəhlizi, Naxçıvan-Biləsuvar, Culfa-Culfa və Astara-Astara layihələri haqqında fikir mübadilələri aparılmışdırlar.

Azərbaycın və İran arasında əməkdaşlıq müxtəlif sahələrdə həyata keçirilir ki, 2007-ci ilin sentyabırn 12-də İran-Azərbaycan Dostluq qrupunun sədri Əhəd Qazainin başçılıq etdiyi nümayəndə heyəti Azərbaycan Respublikası Prezidenti İlham Əliyev tərəfindən qəbul edilmişdir. Görüşdə qeyd edilmişdir ki, İran parlamentində fəaliyyət göstərən İran-Azərbaycan Dostluq qrupu parlamentlərarası əməkdaşlığın genişlənməsinə öz tövhəsini verməkdədir.

Azərbaycan – İran mədəni əməkdaşlığının müasir mərhələsində hal-hazırda Bakıda fəaliyyət göstərən İran Mədəniyyət Mərkəzinin çox böyük tarixi əhəmiyyəti vardır. Bu mərkəzin başlıca məqsədi Azərbaycan və İranda hər iki ölkənin mədəniyyətlərini təbliğ etmək, bu mədəniyyətin müasir nailiyyətlərinin tarixini dərindən öyrənmək təşkil edir. Həmin məqsəddən irəli gələrək Mərkəz mədəniyyət və incəsənətin bütün istiqamətləri üzrə fəaliyyət göstərir. İran Mədəniyyət Mərkəzi xüsusi bir təşkilat kimi fəaliyyət göstərərək Azərbaycan – İran mədəni əməkdaşlığının bütün forma və metodarından məqsədyönlü şəkildə istifadə edir. Mərkəzin fəaliyyətində islami dəyərlərə istinad başlıca yer tutur.

Bebəliklə Azərbaycan – İran mədəni əlaqələrinin tarixi və müasir vəziyyəti haqqında təhlil aparılan bu məqalədən belə bir ümumi nəticə əldə etmək olar ki, qonşu və dost ölkələrin bu iki xalqı arasında əməkdaşlıq bütün zamanlarda obyektiv zərurət olmuşdur. Tarixən İran ərazinin bir hissəsinin vaxtilə Azərbaycanın tərkibində olması, tarixi səhv addımlardan sonra həmin ərazinin müasir Azərbaycanın tərkibindən zorla qopardılması, azərbaycanlıların çox hissəsinin burada yaşaması, faktı və bundan başqa müxtəlif vaxtlarda Şimali Azərbaycandan İrana çoxlu sayda mühacirlərin getməsi və nəhayət, bu ölkə ilə həmsərhəd olmaq mədəni əlaqələr üçün ən zəruri amillərdəndir. Düzdür, bu əlaqələr sistemində bəzən soyuq münasibətlər də mövcud olmuş və olmaqdadır (azərbaycanlı əhaliyə soyuq münasibətə görə, azərbaycan dilinin məhdudlaşdırılması və s.). Lakin bütün bunlara baxmayaraq Azərbaycan və İran dövlətləri mədəni əməkdaşlıq üçün mövcud potensialdan səmərəli istifadə etməkdədir.

### 1.2. Azərbaycan - Pakistan mədəni əlaqələri

Pakistan İslam Respublikası Cənubi Asiyanın, İslam Şərqinin və İslam Konfransı Təşkilatının ən fəal, nüfuzlu dövlətlər sırasındadır. Pakistan Azərbaycanın müstəqilliyini tanıyan (12 dekabr 1991-ci il), onunla diplomatik əlaqələr yaradan (9 iyun 1992-ci il) və Azərbaycanda səfirliyini açan (12 mart 1993-cü il) ilk müsəlman dövlətlərindən biridir. Ümumiyyətlə, Azərbaycana ən yaxın və dost ölkələrdən biri olan Pakistan ölkəmizin mənafeyini bütün beynəlxalq təşkilatlarda ayrıca olaraq müdafiə etməkdədir. Qeyd edək ki, Pakistanın Azərbaycanla dost və yaxın münasibətlərinin tarixi ötən əsrlərdə öz təzahürünü tapmışdır. Xüsusilə, bu münasibətlər mədəni əlaqələr səviyyəsində daha geniş şəkildə vüsət tapmışdır. Bu Azərbaycanın SSRİ-nin tərkibində ikən SSRİ-Pakistan diplomatik münasibətlərin yaranması tarixi faktı ilə daha çox bağlıdır. Belə ki, 1947-ci ilin avqustunda Müstəqil Pakistan Dominion dövlətinin yaranması ilə SSRİ ilə diplomatik münasibətlər (1948-ci il mayın 1-də) yaranır. Beləliklə, öz xarici siyasətində SSRİ - bu ölkə ilə bütün, eləcə də mədəniyət sahəsində əməkdaşlığa mühüm yer ayırdı. Şübhəsiz ki, SSRİ müsəlman respublikası kimi Pakistanın Azərbaycanla mədəni əməkdaşlığı ön plana çəkdi. Bu məqsədlə hər iki xalqın mədəniyyətlərinin tanınması üçün bir çox mədəni formatlardan istifadəyə yer verildi. Yaradıcılıq ezamiyyətləri, elmi-mədəni toplantılarda birgə iştirak, qastrol səfərləri mədəni əlaqələrin aparıcı formaları kimi çıxış etdi. Lakin bütün bunlarla yanaşı qeyd etmək lazımdır ki, Azərbaycan mədəniyyəti haqqında artıq Pakistanda hələ lap əvvəlki dövrlərdən başlayaraq təsəvvürlər var idi. Azərbaycanın klassik ədəbiyyatının simaları – Nizamidən başlamış M.F.Axundova qədər demək olar ki, Azərbaycan ədibləri bu ölkədə tanınırdı. 1962-ci ilin oktyabrında M.F.Axundovun anadan olmasının 150 illiyi münasibəti ilə keçirilən təntənələrdə iştirak edən görkəmli Pakistan yazıçısı, Beynəlxalq Lenin mükafatı laureatı Əhməd Fəna bu barədə demişdir ki, coğrafi cəhətdən Axundov Azərbaycana və onun xalqına məxsus olsa da, lakin özünün ideyaları ilə həm də digər şərq ölkələri kimi, mənim Vətənimin-Pakistanın da yazıçısıdır.

Elə həmin il 1962-ci ildə SSRİ-yə səfər çərçivəsində Pakistanın Milli Məclisinin sədri Fəzlulla Kadar Çoudrinin rəhbərliyi ilə bir qrup pakistanlı Azərbaycana gəlmiş, buranın həyatı, təsərrüfatı, eləcə də mədəniyyəti ilə yaxından tanış olmuşdur. Bu səfərdən çox məmnun qalan nümayəndə heyətinin başçısı Azərbaycan xalqı ilə tanış olduqlarına görə özlərini xoşbəxt saydıqlarını söyləmişdir.

Artıq XX əsrin 60-cı illərində Azərbaycan-Pakistan mədəni əlaqələrində bir canlanma müşahidə olunurdu. Mədəniyyət xadimlərinin bir-birilə yaradıcılıq mübadilələrinin yaradılması məqsədilə ezamiyyət, səfər və görüşlərin təşkilinə xüsusi diqqət yetirilirdi. 1965-ci ilin aprelində görkəmli Pakistan dramaturqu, rejissor və kinooperatoru Henri Çayasenin Bakıya gəlişi Azərbaycanın kino ictimaiyyəti tərəfindən böyük hörmət və ehtiramla qarşılanmışdır. Pakistanlı sənətkar Azərbaycan mədəniyyəti ilə yaxından tanış olmuş, incəsənət, ədəbiyyat xadimləri ilə sənət mübadilələri aparmışdır. Azərbaycan mədəniyyətinin inkişafından məmnun qalan pakistanlı dramaturq-rejissor bu inkişafın Pakistan-Azərbaycan mədəni əlaqələrinin inkişafı üçün stimul olacağını əminliklə bildirmişdir.

Azərbaycan mədəniyyətinin nailiyyətlərindən məmnun qalan və bunların Pakistan mədəniyyətində də əxzini görmək istəyən digər pakistanlı nümayəndələrdən biri də görkəmli ictimai xadim Mirzə Abel Həsən İspahan idi. SSRİ-yə səfər çərçivəsində Azərbaycana gəlmiş bu görkəmli pakistan nümayəndəsi vətənə döndükdən sonra təəssüratlarını bildirdi. «Leninqraddan Səmərqəndədək» adlı kitabında Azərbaycan haqqında çox böyük ehtiramla, məhəbbətlə bəhs edir. Bu kitabda Azərbaycan mədəniyyəti inkişaf etmiş bir ölkə kimi pakistanlılara təbliğ olunur.

Artıq Azərbaycan-Pakistan mədəni əlaqələrində gedən intensivləşmə prosesi bu əlaqələrin səmərəli və fəal əməkdaşlıq səviyyəsində inkişaf etdirilməsi məqsədi ilə bunu tənzimləyən bir qrupun yaradılmasını obyektiv zərurətə çevirdi. Bundan irəli gələrək 1966-cı ilin aprelin 1-də Bakıda Sovet-Pakistan mədəni əlaqə cəmiyyətinin şöbəsi təsis edildi. Şöbəyə Azərbaycan SSR Səhiyyə nazirinin müavini R.Cavadov sədr seçildi. Şöbənin təsis yığıncağında iştirak edən Pakistan-Sovet Mədəni Əlaqə Cəmiyyəti mərkəzi idarənin üzvü, Ləlpur ştatında həmin cəmiyyətin prezidenti Mirabdul Qəyyumun çıxışı Azərbaycan-Pakistan mədəni yaxınlığının qədimliyini sübut edən fakt kimi diqqəti cəlb edir. O öz çıxışında demişdir: «40 il bundan əvvəl mən kollecdə böyük Nizaminin əsərlərini öyrənmişəm. O vaxtdan bəri daim Azərbaycana gəlmək arzusunda olmuşam. İndi mən xoşbəxtəm ki, əzəli arzum həyata keçmişdir.»[2]

Yeni təşkil olunmuş bu şöbə Azərbaycan-Pakistan mədəni əlaqələrinin sistem və ardıcıl dinamikasına əhəmiyyətli şəkildə təsir göstərdi. Şöbənin məqsədyönlü iş prinsipi əsasında mədəniyyətin bütün sahələri, xüsusilə incəsənət, elmi mübadilələrin dinamikası sürətləndirildi. Pakistandan Azərbaycana səfər edən müxtəlif səviyyələrdə qonaqlar Azərbaycan mədəniyyəti ilə də yaxından tanış olurdular. 1967-ci ilin avqustunda Camiruddin Prodxan başda olmaqla Şərqi Pakistan Qanunvericilik Məclisinin bir qrup nümayəndəsi Bakı və Sumqayıtın mədəni müəssisələrinin fəaliyyəti ilə də yaxından tanış olmuşlar.

[2] Коммунист гязети 1966-ъы ил 2 апрел

Pakistanla mədəni əlaqələrin inkişaf etdirildməsində Azərbaycandan elm, təhsil və sənət adamlarının bu ölkəyə turist səfərlərinin təşkili həyata keçirildi. Aşıq Pənah Pənahovun dost ölkəyə 1968-ci ilin yayında etdiyi turist səfərinin təəssüratları el sənətkarlarında məmnunluq doğurmuşdu. Turistlərin Karaçi, Lahor şəhərlərində pakistanlılarla, şəhərin ziyalıları və tələbələri ilə görüşləri unudulmaz iz buraxmışdır. Mərhum aşıq P.Pənahovun xatirələrində həmin görüşlər zamanı pakistanlıların Azərbaycan mədəniyyət və incəsənətilə yaxından tanış olmaları və buna böyük maraq, həvəs göstərmələri faktı xüsusi yer tuturdu. Həmin səfərdə olmuş digər Azərbaycan ziyalılarının da təəsüratları zəngin idi. Filologiya elmləri doktoru, professor Fərhad Zeynalovun Karaçi Universitetində türk dilini tədris edən gənc professor Məhəmməd Samirlə yaradıcılıq mübadiləsini Azərbaycan-Pakistan mədəni əməkdaşlığının töhfəsi kimi də dəyərləndirmək olar.

Azərbaycan-Pakistan mədəni əlaqələrinin inkişaf dinamikasının xüsusi bir mərhələsini 1991-ci ildə Azərbaycanda müstəqilliyin bərpasından sonrakı dövr təşkil edir. Məhz bu tarixi hadisədən sonra Azərbaycan-Pakistan mədəni əməkdaşlığının hüquqi təminatı yaradıldı. İkitərəfli və çoxtərəfli münasibətlər əsasında Azərbaycan-Pakistan mədəni əlaqələri tarixi şəraitə münasib şəkildə yenidən quruldu. Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin 1994-ci ilin dekabrında Kasablankada Pakistanın o vaxtkı baş naziri mərhum Bənazir Bhutto ilə görüşlərindən sonra ikitərəfli münasibətlər yüksək səviyyədə inkişaf etməyə başladı ki, bu da mədəni əməkdaşlığın inkişaf tempinə əhəmiyyətli şəkildə təsir göstərdi. Bundan sonra Azərbaycan və Pakistan dövlət və hökumət başçılarının ardıcıl görüş və bir-birlərinin ölkələrinə rəsmi səfərləri çərçivəsində mədəni əlaqələrin inkişafını tənzimləyən sənədlər imzalandı. Belə ki, 1996-cı ilin aprelində Azərbaycan Prezidenti Heydər Əliyevin Pakistana səfəri çərçivəsində iki ölkə arasında dostluq və əməkdaşlıq haqqında müqavilə imzalandı. Həmin müqavilənin müddəalarında iki ölkə arasında dostluq əlaqələrinin inkişafında mədəni əməkdaşlığın gücləndirilməsi prioritet kimi göstərilmişdir. 1995-ci ilin oktyabrında Pakistan Prezidenti Faruq Əhməd Xan Leqarinin Azərbaycana rəsmi səfəri çərçivəsində «Elm, mədəniyyət və humanitar sahələrdə əməkdaşlıq haqqında Razılaşma» imzalanmışdır. Bir il sonra 1996-cı ilin aprelində Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Pakistana rəsmi səfəri zamanı «Turizmin inkişafı üzrə Anlaşma-Memorandum»u imzalandı. Bu sənədlərdən irəli gələn müddəalar təcrübədə reallığa çevrilir. Pakistan humanitar yardım siyasəti üzrə Qarabağ qaçqınlarına humanitar və mənəvi dəstək göstərmişdir. Çünki Azərbaycan və Pakistanda turizmin inkişafı üçün geniş potensial vardır və bundan istifadə zamanı tərəflərin bir-birinə mübadiləsinə, təcrübəsindən istifadəsinə geniş imkanlar açılır.

Müəllif A.İsabəyli «Pakistan müasir beynəlxalq münasibətlər sistemində» adlı monoqrafiyasında yazır: «… 1990 və 2000-ci illərdə Pakistana gələn xarici turistlərin sayı müvafiq olaraq 424 min və 432 min, Azərbaycanda isə buna uyğun olaraq 77 min və 602 min təşkil etmişdir. Bu rəqəmlərdən görünür ki, istər turistlərin ümumi sayı, istərsə də 10 il ərzində turistlərinin sayının artımına görə Azərbaycan öndədir. İki ölkə arasında turist və bu sahədə mövcud təcrübə mübadiləsi bir tərəfdən hər iki ölkənin müvafiq sahələrinin daha yaxşı inkişaf etməsinə, digər tərəfdən xalqlarımız arasında əlaqələrin güclənməsinə, hər iki ölkə ictimaiyyətinin bir-birini daha yaxından tanınmasına şərait yaradar.»[1]

Elm, təhsil sahəsində əməkdaşlıqda yeni nailiyyətlər əldə olunmuşdur. Belə ki, Pakistan tərəfi hərbi təhsil, informasiya texnologiyaları və telekommunikasiya sahəsindəki zəngin təcrübəsindən bəhrələnməyi Azərbaycan dövlətinə bəyan etmiş və bu sahədə əməli tədbirlər həyata keçirmişdir.

Azərbaycan-Pakistan mədəni əlaqələri ənənəvi formalarından əlavə çoxtərəfli münasibətlər sistemində bəzi mədəni problemlərin həllinə də istiqamət götürmüşdür.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Pakistan İslam Respublikasının Prezidenti Pərviz Müşərrəfin dəvəti ilə 2004-cü ilin aprel ayının 12-də bu ölkədə rəsmi səfərdə olmuşdur. Səfər hər iki dost ölkə arasında ikitərəfli və çoxtərəfli əlaqələrin yüksələn xətt üzrə inkişafı üçün təkan vermişdir. Səfər zamanı hər iki ölkə prezidentlərinin görüşündə rabitə və informasiya texnologiyaları sahəsində əməkdaşlığa böyük önəm verildiyi, Pakistanda bu sahənin sürətlə inkişaf etdiyi vurğulanmışdır. Bundan başqa, mədəniyyət, maliyyə sektoru, təhsil, nəqliyyat, aviasiya və digər sahələrdə əməkdaşlığın inkişaf üçün böyük potensialın olması vurğulanmışdır.

Səfər çərçivəsində Azərbaycan və Pakistan Prezidentlərinin geniş tərkibdə görüşündə ikitərəfli siyasi və iqtisadi əlaqələrin hazırki vəziyyəti və gələcək perspektivləri müəyyənləşdirildi. Səfərin ikinci günü Prezident İlham Əliyev Pakistan Müdafiə Nazirliyi nəzdində Hərbi İxraca Yardım Təşkilatına getmiş və burada təşkilatın sərgisi ilə tanış olmuşdur.

Səfər müddətində aparılan danışıqlarda Pakistan-Azərbaycan münasibətlərinin daha da inkişaf etdirilməsi yolları barədə müzakirələr aparılmışdır. Aperil 13-də İslamabadda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Pakistan İslam Respublikasının Baş Naziri Şövkət Əzizin iştirakı ilə iki ölkə arasında əməkdaşlıq barədə bir sıra mühüm sənədlərin imzalanması mərasimi keçirilmişdir. Azərbaycan Respublikası hökuməti və Pakistan İslam Respublikasının hökuməti arasında mədəniyyət sahəsində

[1] İsabəyli A.T. Pakistan müasir beynəlxalq münasibətlər sistemində. B., 2005, səh. 132

əməkdaşlıq haqqında sazişi Azərbaycanın Baş Nazirinin birinci müavini Yaqub Eyyubov və Pakistanın mədəniyyət, idman və gənclər naziri Məhəmməd Acmal Xan, Azərbaycan Respublikası Nəqliyyat Nazirliyi və Pakistan İslam Respublikasının Kommunikasiya Nazirliyi arasında nəqliyyat sahəsində əməkdaşlıq haqqında memorandumu Azərbaycan Respublikasının Baş nazirinin birinci müavini Yaqub Eyyubov və Pakistanın kommunikasiya naziri Məhəmməd Şəmmim Siddiqi, Azərbaycan Respublikası Təhsil Nazirliyi və Pakistan İslam Respublikası Təhsil Nazirliyi arasında təhsil sahəsində əməkdaşlıq haqqında sazişi Azərbaycan Respublikasının Baş nazirinin birinci müavini Yaqub Eyyubov və Pakistanın Sosial təminat və xüsusi təhsil naziri xanım Zübeydə Cəlal imzalamışlar. Bundan başqa hər iki ölkəarası rabitə və informasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında saziş və aviasiya hakimiyyətləri arasında əməkdaşlıq haqqında protokollarda təsdiq edilmişdir. Azərbaycanın dövlət başçısının Pakistan İslam Respublikasına rəsmi səfəri Bakı-İslamabad münasibətlərinin yüksələn xətt üzrə inkişafı üçün əsaslı zəmin yaratmışdır.

2004-cü ilin iyulun 7-də Azərbaycanda Pakistan İslam Respublikasının yanacaq və təbii sərvətlər naziri Nauriz Şakur Xan rəsmi səfərdə olmuşdur. Nauriz Şakur Xanın Azərbaycan Respublikası Prezidenti İlham Əliyevlə görüşdə iki ölkənin beynəlxalq təşkilatlar çərçivəsində bir-birini dəstəkləməsi vurğulanaraq iqtisadiyyat, enerji, ticarət, mədəniyyət, incəsənət və digər sahələrdə dinamik şəkildə inkişaf edən qarşılıqlı faydalı əməkdaşlığın hər iki ölkənin xalqlarının mənafeələrinə xidmət edəcəyi qeyd edilmişdir. Enerji sahəsində əməkdaşlıq məsələlərinə toxunan nazir bildirmişdir ki, quruda karbohidrogen ehtiyatları yataqlarının işlənilməsində Pakistan mütəxəssislərinin təcrübəsi olsada, dənizdə neft çıxarılması sahəsində onlar azərbaycanlı həmkarlarının təcrübəsindən istifadə etməkdə maraqlıdırlar.

2004-cü il noyabr ayında Pakistanın informasiya texnologiyaları və telekommunikasiya naziri Əvəys Əhməd Xan Leqari Bakıda keçirilən «Qlobal informasiya kommunikasiya texnologiyaları - 2004» konfransında iştirak etmişdir. Nazir Əvəys Əhməd Xan Leqari Azərbaycan Respublikası Prezidenti İlham Əliyevlə görüşdə konfransın işində məmnun qaldığını bildirərək Azərbaycan və Pakistan rabitə sistemləri arasında əməkdaşlığın genişləndirilməsinin böyük əhəmiyyətini xüsusilə qeyd edilmişdir.

2004-cü ildə Azərbaycanda rəsmi səfərdə olan P.Müşərrəfin səsləndirdiyi maraqlı ideyalardan biri də maarifçi liberalizm ideyası oldu. Bu ideya hələ Kuala-Lumpurda keçirilmiş İslam Konfransı Təşkilatının toplantısında qəbul edilmişdir. Pərviz Müşərrəfin İKT-ə üzv olan müsəlman dövlətlərində maarifçi liberalizm cərəyanının geniş təbliğini və bu yolla savadsızlığın aradan qaldırılmasını prioritet məsələ kimi diqqətə çatdırmışdır. Bu məsələdə Pakistan prezidenti müsəlman ölkələrinin bir-birinə mədəni yardımına əsas diqqəti yönəldir. O, demişdir: «… Mən maarifçi liberalizm dedikdə, iki məsələni nəzərdə tuturam. Birincisi, müsəlman dünyası öz-özünə yardım etməlidir… İKT çərçivəsində islahatlar aparılmalı və o, dünyada özünəməxsus bir yer tutmalıdır.»[3] Bu fikrin Pərviz Müşərrəfdən digər müsəlman dövlətləri kimi Azərbaycanın da bu ideyaya dəstəyi olmasını tövsiyyə edərək mədəni əməkdaşlığın yeni istiqamətini təklif edir.

2004-ci ildə Azərbaycana səfəri zamanı Azərbaycan sənətkarlarının verdiyi konsertdən böyük zövq alan P.Müşərrəf skripkaçı Ceyhun İsmayılova və digər ifaçılara dəvət ilə Pakistana qastrol konsertinə gəlməyi təklif etdi. 2005-ci ilin fevralında həmin təklifə əsasən Pakistana qastrol səfərinə çıxmış adı çəkilən musiqi ifaçıları Pakistan Silahlı Qüvvələri hərbi qərargahının yerləşdiyi Rəvaltindi şəhərində ölkənin dövlət və hökumət rəhbərləri üçün konsert vermişlər. Konsertdə ölkənin prezidenti P.Müşərrəflə yanaşı Baş Nazir və digər hökümət üzvləri iştirak etmişdilər. «Mariott» mehmanxanasında verilən konsert də Pakistan ictimaiyyətinə böyük zövq vermişdir.

2005-ci il aprelin 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Prezident sarayında Pakistan İslam Respublikasının çox nüfuzlu «Observer» qəzetinin baş redaktoru Zahid Məlikə müsahibədə Pakistana qarşıdakı səfər, dövlətlərimizin ikitərəfli, beynəlxalq təşkilatlar çərçivəsində və digər başqa sahələrdə əməkdaşlığının daha da genişləndirilməsi məsələləri barədə ətraflı məlumat vermişdir.

2006-ci ilin may ayının 5–də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Pakistan İslam Respublikasının Baş naziri Şövkət Əzizi qəbul etmişdir. Görüşdə Pakistanla Azərbaycan arasında iqtisadi əməkdaşlığın genişləndirilməsinin, elm və texnologiyalar sahəsində əməkdaşlığın zəruriliyi qeyd olunmuşdur. Görüşdə regional əməkdaşlıq, təhlükəsizlik, iqtisadi əməkdaşlıq, bölgədəki vəziyyət barədə geniş fikir mübadiləsi aparılmış, neft və qaz sahəsində Azərbaycanın təcrübəsini öyrənmək və bundan yararlanmağın nə dərəcədə Pakistan üçün əhəmiyyətli olduğu bildirilmişdir.

2006-ci ildə keçirilən digər əlamətdar hadisələrdən biri Pakistan Senatının İnsan hüquqları daimi Komitəsinin sədri, senator Seyid Məhəmməd Zəfərin rəhbərlik etdiyi nümayəndə heyətinin Azərbaycana səfəri idi. Mayın 6-da Prezident sarayında senator Seyid Məhəmməd Zəfər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə «Ən yaxşı idarəolunan müsəlman dövləti» mükafatını təqdim edərək qeyd etmişdir ki, Pakistanda böyük oxucu auditoriyası olan «Pakistan observer» qəzeti tərəfindən islam dünyasında yaxşı idarəçiliyin inkişaf etdirilməsinə kömək məqsədilə 2005-ci ildə təsis edilmişdir. Senator bildirmişdir ki,

[3] Azərbaycan qəzeti 10 iyul 2004

çoxsaylı mütəxəssislərin, analitiklərin, tədqiqatçıların və Pakistanın bir sıra tanınmış şəxsiyyətlərinin iştirakı ilə keçirilmiş geniş müzakirələr və məsləhətləşmələr nəticəsində «Pakistan observer» qəzetinin redaksiya heyəti bu mükafatın dövlət başçısı İlham Əliyevə təqdim olunmasını qərara almışdır. «Pakistan observer» qəzeti barədə geniş məlumat verən senator bildirmişdir ki, bu mükafatı islam dövlətləri arasında yaxşı həyat üçün ümid və arzularının gərçəklənməsi və dünya millətləri sırasında layiqli yer tuta bilmələri üçün ən mühüm amil və vasitə olduğundan, onun təsis edilməsi zəruri sayılmışdır. Seyid Məhəmməd Zəfər bu mükafatın Azərbaycana verilməsi haqqında qərarın qəzetin redaksiya heyəti tərəfindən yekdilliklə qəbul edildiyini və bunun dövlət başçısı İlham Əliyevin zəhmətinin bəhrəsi olduğunu diqqətə çatdırmışdır. Bu qərarın Prezident İlham Əliyevin idarəçilik səriştəsi nümayiş etdirilərək istər ölkə daxilində, istərsə də beynəlxalq aləmdəki yüksək səviyyəli fəaliyyətinə olan böyük ehtiramın bariz nümunəsidir. Azərbaycanın siyasi, iqtisadi, sosial, mədəni sahələrdə böyük irəliləyişə malik olduğu senator tərəfindən vurğulanmışdır. O, qeyd etmişdir ki, keçmiş imperiyadan miras qalmış birpartiyalı dövlət idarəetmə sistemi müasir konstitusiyalı quruluşa söykənən qurum və təsisatla əvəzlənməklə çağdaş siyasi, iqtisadi və sosial təşkilati tələblərə cavab verən icraedici qurumlar, xalq tərəfindən seçilən parlament, müstəqil ədliyyə və güclü təhsil sistemi vətəndaşların ölkədə gedən demokratik proseslərdə iştirakını təmin edən möhkəm sütunlardır.

Azərbaycan-Pakistan mədəni əlaqələrinin uğurla genişləndirilməsinin bariz nümunəsi kimi turizm sahəsində inkişaf etdirilən əməkdaşlıq misal gətirilə bilər. Belə ki, 2006-ci ilin sentyabrın 11-də Pakistan İslam Respublikasının turizm naziri Nilufər Bəxtiyar Azərbaycanda rəsmi səfərdə olmuşdur.

2007-ci ilin mayın 15-də Pakistan paytaxtı İslamabadda İslam Konfransı Təşkilatı (İKT) Xarici İşlər Nazirləri Şurasının «Sülh sessiyası: tərəqqi və harmoniya» başlığı altında 34-cü sessiyası işə başlamışdır. Sessiyanın açılışında İKT Xarici İşlər Nazirləri Şurasına sədrlik Azərbaycandan Pakistana keçmişdir. Nazir Elmar Məmmədyarov İKT-nin 34-cü sessiyasında Türkiyə, Misir, Pakistan, İran və Qazaxıstan nümayəndə heyətlərinin başçıları ilə görüşmüş, ikitərəfli münasibətləri, İKT çərçivəsində islahatları və qurumun yeni əsasnamə layihəsini müzakirə etmişdir. Sesiyada Azərbaycan tərəfi Müsəlman Ölkələri Təşkilatı (Organization of Muslim Countries) kimi adlandırılmasını təklif etmişdir. Burada müsəlman ölkələrini narahat edən problemlər, o cümlədən Fələstin məsələsi, Ərəb-İsrail münaqişəsi, İraq, Somali və Əfqanistandakı vəziyyət, üzv ölkələr arasında iqtisadi, elm və təhsil, informasiya texnologiyaları, səhiyyə, mədəni və humanitar sahələrdə əməkdaşlığın genişləndirilməsi məsələləri müzakirə olunmuşdur. İKT-nn 34-cü sessiyasında nazir Elmar Məmmədyarova İKT-nin Dialoq və Əməkdaşlıq Uğrunda Gənclər Forumunun illik xüsusi mükafatı təqdim edilmişdir. O, bu mükafata İKT çərçivəsində gənclərin rolunun yüksəldilməsi, habelə İKT-nin nüfuzunun artırılması istiqamətindəki fəaliyyətinə görə layiq görülmüşdür.

2007-ci ilin may ayının 15-də Azərbaycanın Xarici İşlər Naziri Elmar Məmmədyarov Pakistanda rəsmi səfərdə olmuşdur. Pakistanın Prezidenti Pərviz Müşərrəf Azərbaycanlı diplomatı ayrılıqda qəbul etmişdir. Görüşdə Nazir E. Məmmədyarov Pakistan Prezidenti Pərviz Müşərrəfin artıq dünyada çox populyar olan, ABŞ-da, Böyük Britaniyada və bir sıra digər ölkələrdə ən çox satılan kitablar sırasına düşən «Atəş Xəttində» kitabın «Təhsil» nəşriyyatında Azərbaycan dilinə tərcümə edilərək çap edildiyini bildirmiş və kitabın nüsxələrini təqdim etmişdir. Azərbaycan xalqının Pakistan Prezidenti, general Pərviz Müşərrəfə olan maraq və rəğbətinin təcəssümü olan bu kitabın nəşrinin iki ölkə arasında mədəni mübadilənin təcəssümü kimi qiymətləndirmək olar. Həmin kitabın nüsxələri Azərbaycanda kitabxanalara, tədris və elmi müəssisələrə aid olan dövlət və özəl qurumlara göndərilmişdir.

Azərbaycan-Pakistan mədəni əlaqələri sistemində elm, mədəniyyət, turizm, təhsil sahəsində hökumətlərarası, nazirliklər səviyyəsində imzaladıqları əməkdaşlıq sənədləri iki ölkə arasında bu sahədə tərəqqinin təmimatı rolunu oynayır. Bütün bunlardan irəli gələrək söyləmək olar ki, gələcəkdə Pakistan və Azərbaycan mədəniyyətlərinin qarşılıqlı tərəqqisi sahəsində çox işlər görüləcəkdir.

## 1.3. Azərbaycan - İsrail mədəni əlaqələri

Müasir Azərbaycanın xarici siyasətində Yaxın və Orta Şərq ölkələri sırasında xüsusi diqqət yetirilən ölkələrdən biri də İsraildir. Müasir tarixdə çox böyük nüfuza malik olan bu ölkə ilə Azərbaycanın mədəni əlaqələrinin tarixinə gəldikdə, onu demək olar ki, xüsusilə sovet quruluşu dövründə bu ölkə ilə SSRİ arasında bəzi beynəlxalq problemlərin həlli məsələsində müəyyən kəskin ziddiyyətlər olduğuna görə hətta bu ölkə ilə diplomatik münasibətlər belə yox dərəcəsində idi. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra 1992 – ci ildə İsraillə diplomatik münasibətləri qurdu. Lakin 1998 – ci ilə qədər iki dövlət arasında münasibətlər yenə də zəif xarakter daşıyırdı. Hətta bu gün də İsraillə diplomatik münasibətlərdə Azərbaycan çox ehtiyatla davranma prinsipindən çıxış edir. Tarixdən məlum olduğu kimi, İsraillə müsəlman Şərqi,ələlxüsus, ərəb dünyası arasındakı kəskin ziddiyyətlər Azərbaycanın da bu mövqedən çıxış etməsinə səbəb olmuşdur. Azərbaycanın bu mövqeyini yaxşı dərk edən İsrail tərəfi, bütün sahələrdə Azərbaycanla ikitərəfli əlaqələrin intensivlşdirilməsinə çalışır ki, mədəni əlaqələr də bu sistemdə xüsusi yer tutur.

1998 – ci ildə İsrailin baş naziri Binyamin Netanuahunun Bakıya səfəri zamanı iki ölkə arasındakı əlaqələrin kompleks istiqamətləri müzakirə olunmuş və bəzi razılaşmalar haqqında qərar qəbul edilmişdir. Lakin bir şey həqiqətdir ki, israillilər Azərbaycan mədəniyyətinə həmişə maraq göstərmişlər. Hələ sovet hakimiyyətinin son çağlarında SSRİ-də milli şüurların oyandığı dövrdə İsraillə də müəyyən əlaqələr fraqmental səciyyə daşısa da təzahür etməyə başladı. 1989 – cu ilin dekabrında SSRİ Mədəniyyət Nazirliyinin xətti ilə Azərbaycana səfər etmiş ilk İsrail nümayəndələrindən biri İsrail Mədəniyyət Nazirliyinin Mədəniyyət və Təhsil şöbəsinin müdiri, doktor D.Ronen, folklorun öyrənilməsi və yayılması üzrə mərkəzin direktoru İosif Ben Azərbaycanla mədəni əlaqələrin yaradılmasına, yaradıcı kollektivlərinin mübadiləsinə hazır olduqlarını bəyan etmişlər. Onu da qeyd etmək lazımdır ki, artıq bu illərdə Azərbaycan mədəniyyətinin bir çox nümayəndələri İsraildə qastrolda olmuşlar. D.Ronen İsrailə qostrola gəlmiş Azərbaycan sənətkarlarının çıxışlarını qiymətləndirərək demişdir: «Biz belə əlaqələri möhkəmləndirmək istərdik. Çünki bu əlaqələr İsrail sakinlərinin Azərbaycan xalqının gözəl musiqi və xoreoqrafiya sənəti ilə tanış olmasına imkan verir.» Bu görüşdən sonra İsrailin ən böyük mədəniyyət mərkəzlərindən birində Azərbaycan mədəniyyətinə həsr olunmuş böyük bir tədbir keçirilmişdir.

İsraillə diplomatik əlaqələr qurulduqdan sonra bu ölkə ilə mədəni əlaqələrin istiqamətlərindən birini də İsrail dövlətinin yaranması münasibəti ilə hər il təntənələrin təşkili, rəsmi qəbulların həyata keçirilməsi üzr tədbirlərdir. 1998 – ci ilin aprelin 30 – da İsrail dövlətinin yaranmasının 50 illiyi şərəfinə Azərbaycanın İsrail səfirliyində keçirilən qəbulda ölkələr arasındakı dostluğun davam etdirilməsi fikirləri səsləndirilmişdir.

Burada bir məqamı da qeyd etmək lazımdır ki, Azərbaycanda çoxlu sayda yəhudi yaşayır. Azərbaycanda bu xalqın yaşayıb-yaratması, öz mədəni dəyərlərini qoruyub saxlaması üçün kifayət qədər imkan yaradılmışdır. İsrail hökuməti yəhudilərlə dinc, əmin-amanlıq şəraitində yaşadıqlarına görə Azərbaycan dövlətinə hər zaman minnətdarlığını bildirir. Digər tərəfdən isə İsraildə də azərbaycanlıların yaşaması, və bu bu ölkənin sakinləri ilə səmimi ünsiyyətdə olması Azərbaycan-İsrail münasibətlərinin dostluq şəraitində davam etdirilməsinə kömək edən amillərdəndir.

2000 – ci il oktyabrın 3– də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Yəhudi təqvimilə Yeni il Roş-Ha-Şana bayramı münasibətilə Azərbaycanın Yəhudi icmasına ünvanladığı təbrik teleqramında deyilirdi: «Çoxmillətli cəmiyyətimizin tam və bərabərhüquqlu üzvləri olan yəhudilər öz milli adət və ənənələrini qoruyub saxlamaqla, tarixən olduğu kimi, bu gün də Azərbaycanın ictimai-siyasi, elmi-mədəni həyatında yaxından iştirak edir, respublikamızın tərəqqisi və inkişafı üçün vətəndaşlıq borclarını yerinə yetirir».

Ümumdünya Yəhudi Konqresinin iri qitə şöbəsi sayılan Avro-Asiya Yəhudi Konqresinin Azərbaycandakı missiyası da İsrail-Azərbaycan mədəni əlaqələrinin çoxtərəfli əlaqələr çərçivəsində davam etdirilməsi deməkdir. 2003 – cü ildə bu konqresin prezidenti, qazaxstanlı iş adamı Aleksandr Maçkeviç Azərbaycana səfər etmişdir. Səfər Bakıda aşkenazi - Avropa və gürcü yəhudilərinin yeni sinaqoqunun açılması mərasiminə təsadüf etdi.

2005-ci ilin sentyabrın 13-də Prezident sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İsrailin Azərbaycanda yeni təyin edilmiş səfiri Artur Lenkini qəbul etmişdir. Qəbulda yəhudi icmasının çox fəal yaşadığı Azərbaycanda etnik və dini tolerantlığın yüksək olduğu qeyd olunaraq səmərəli diplomatik fəaliyyət nəticəsində iki dövlət arasında münasibətlərin müxtəlif istiqamətlərdə inkişafına, o cümlədən siyasi, iqtisadi və mədəni əməkdaşlığın daha da genişlənməsinə xidmət edəcəyi vurğulandı.
Dahi Azərbaycan şairi Nizami Gəncəvinin «Xəmsə»sindən bir parça şer oxuyan səfir qeyd etmişdir ki, əsərdə deyildiyi kimi, «biz də yaxşı əməkdaşlıqdan bəhrələnə bilərik».[4] Azərbaycanda yəhudi icması çox böyük

[4] Dövlət idarəçiliyində varislik, novatorluq və dinamizm. İlham Əliyevin prezidentlik fəaliyyətinin xronikası: rəsmi qəbul və səfərlərinin icmalı (2003-2006). Bakı: «Azərbaycan» nəşriyyatı, 2007, 944 s., s. 500

tarixə, ənənələrə malik olaraq və özününü bənzərsiz özgürlüyünü, mədəniyyətini qoruyub saxlayaraq cəmiyyətimizə çox fəal sürətdə inteqrasiya etmişlər. Respublikada yəhudi mədəniyyətinin inkişafına göstərilən diqqətin bariz nümunəsi kimi, inşa edilən yeni sinaqoq, yəhudi evi və Bakıda Moskvadan sonra tikilən ikinci məktəb misal gətirilə bilər.

2006-ci ilin fevral ayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ABŞ-nin aparıcı Yəhudi Təşkilatları Konfransının ölkəmizdə səfərdə olan nümayəndə heyətini qəbul etmişdir. Nümayəndə heyətinin rəhbəri Harold Tanner Azərbaycanda tolerantlığın daim təmin edildiyini vurğulayaraq bütün millətlərin nümayəndələri, o cümlədən də dini icmalar üçün çox yaxşı yaşayış şəraitin yaradılmasını bildirmişdir.

2006-ci il iyunun 6-da İsrailin milli infrastruktur naziri Benyamin Ben-Eliezerin rəhbərlik etdiyi nümayəndə heyəti Bakıda keçirilən XIII Beynəlxalq Xəzər neft-qaz sərgi və konfransında iştirak etmişdir. Azərbaycanın sürətli iqtisadi, mədəni inkişafı İsraildə böyük maraqla izlənildiyindən, bu sərgi və konfransın iki dövlət arasında mədəni əməkdaşlığının daha da inkişaf etdirilməsi sahəsində ki əhəmiyyəti xüsusilə vurğulanmışdır.

Ümumiyyətlə, Azərbaycan-İsrail münasibətləri ölkələrimizin milli mənafelərini xidmət edir. 2006-ci il mayın 16-da Bakıda Xarixi İşlər naziri Elmar Məmmədyarovun İsrail Parlamentinin üzvü Yosif Şaqalın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş zamanı Azərbaycan ilə İsrail arasında siyasi, iqtisadi və mədəni əlaqələrin ölkələrimizin milli maraqlarına uyğun olduğu vurğulanmışdır.

2006 – ci ilin noyabrın 19-dan başlayaraq Bakıda keçirilən İsrail filmləri həftəsi də bu ölkə ilə mədəni əməkdaşlığın mühüm tədbirlərindən biridir. Həftə ərzində İsrail kinematorqrafçılarının lentə aldıqları «Kolumbiya məhəbbəti», «Evlənmək», «Suriyalı gəlin», «Dünyanın sonunda sola dön», «Salam, müsyö Şlomi» və d. adlı ekran əsərləri təkcə paytaxtda deyil, Quba, Sumqayıt, Lənkəranda da nümayiş etdirilmişdir. Qeyd etmək lazımdır ki, adları çəkilən bu filmlərin hamısı Kann, Toronto, Yerusəlim və d. beynəlxalq kino festivallarının mükafatlarına layiq görülüb. İsrail filmləri həftəsinin açılışı bu ölkə ilə mədəni əməkdaşlıq sahəsində təcrübəsi olan Azərbaycan Dövlət Dillər Universitetində olmuşdur. Çünki hazırda bu Universitetdə İsrailin dövlət dili olan ivrit dili öyrədilir. Bundan başqa Universitetin nəzdində Yəhudi mədəniyyət mərkəzi də fəaliyyət göstərir.

2007 – ci ilin iyununda Azərbaycan-İsrail diplomatik əlaqələrinin yaranmasının 15 illiyinin qeydi münasibətilə qastrola gələn israilli bəstəkar və zərb ustası Yinen Müallen Azərbaycan musiqisi və muğamına böyük maraq göstərənlərdən biridir. Özünün xüsusi fərqli ansamblı olan israilli musiqiçi Azərbaycan müğənnisi Alim Qasımovla birgə layihələr də hazırlamışlar.

Qeyd etmək lazımdır ki, Azərbaycan – İsrail mədəni əlaqələrinin müasir tarixində 2007 – ci il çox uğurlu olmuşdur. İsrailin baş nazirinin müavini Aviçdor Libermanın həmin ilin avqustunda Azərbaycana rəsmi səfəri, eləcə də həmin ayda Bakıda İsrail Mədəniyyət Mərkəzinin açılışı bu baxımdan diqqəti cəlb edir. Bu mərkəzin təşkilində başlıca cəhət iki ölkə arasında mədəni əlaqələri inkişaf etdirməkdir. Müxtəlif zamanlardan üzü bəri bu günədək Azərbaycanda yaşayan yəhudilərin azərbaycanlılarla səmimi ünsiyyətin qurulması və eləcə də İsraillə mədəni əlaqələr yaratmaq baxımından mərkəz bir çox vəzifələrin yerinə yetirilməsini öhdəsinə götürmüşdür. Hazırda İsrail mədəniyyət mərkəzinin nəzdində xor, müxtəlif dərnəklər, ivrit dilini öyrədən kurslar da fəaliyyət göstərir. İsraillə mədəni əlaqələrin davam etdirilməsində Azərbaycan hökuməti bu mərkəzin fəaliyyətindən səmərəli şəkildə istifadə edir.

Azərbaycan – İsrail mədəni əməkdaşlığının inkişaf etdirilməsində yenə də 2007 – ci lin aprelində AZİZ - parlamentlərarası, yəni İsrail Knesseti ilə Azərbaycan Milli Məclisinin birgə yaratdıqları bu mədəni təşkilat hər iki ölkənin mədəni maraqlarının ödənilməsinə xidmət məqsədilə yaradılmışdır. Azərbaycandan bu ölkəyə getmiş insanları İsraildə bir araya gətinə bu təşkilat azərbaycanlıların mədəni irsinin həmin ölkədə tanıdılması, təbliği məqsədilə çoxtərəfli işlər həyata keçirir. Bu məqsədlə təşkilat İsraildə bazar günü məktəbi təşkil olunmuşdur. AZİZ – in birinci vitse-prezidenti Rauf Ağalarov, qurumun Azərbaycan mədəni-tarixi irsinin qorunması üzrə komitəsinin sədri Yeganə Salmandır. AZİZ – in özünün azərbaycan, rus, ingilis, hətta ivrit dillərində kitabları olan kitabxanası təşkil olunmuşdur. Kitabxana bir çox Azərbaycan yazarlarının əsərlərini həm doğma, həm də digər əcnəbi dillərə tərcümə edərək təbliği ilə məşğuldur. 2008 – ci ilin yanvarında İsraildə Yeganə Salmanın şəxsi mənzilində Azərbaycan mədəniyyəti güşəsi təşkil olunmuşdur. Güşənin açılışında iştirak edən AZİZ – in prezidenti, İsrail Knessetinin deputatı İosif Şaqal bu güşənin iki ölkə arasında mədəni və dostluq əlaqələrinin inkişaf etdirilməsinə xidmət edəcəyinə əmin olduğunu bildirmişdir.

AZİZ-in Almaniya, Avstriya, Avropada da birlikləri açılıb və fəaliyyət göstərməkdədir. Bu təşkilat beynəlxalq, dövlətlərarası qurum olmaqla yanaşı, Azərbaycan diasporuna da kifayət qədər mədəni əlaqələrin inkişaf etdirilməsinə imkan yaradır. Azərbaycan və İsrail hökümətləri mədəni əməkdaşlıq sahəsində AZİZ-in imkanlarından məqsədəuyğun şəkildə faydalanır.

İsral parlamenti – Knessetin spikerinin müavinləri Amnon Kohen və Qideon Saarın rəhbərlik etdiyi nümayəndə heyəti 2007-ci ildə ölkəmizdə işgüzar səfərdə olaraq Azərbaycanda yəxudi icmasının fəaliyyəti üçün yaradılmış şəraitdən məmnun olduqlarını bildirmişlər. Həmin ildə yaradılmış Azərbaycan İsral Beynəlxalq Assosiasiyasının ikitərəfli əlaqələrdə mühüm bir addım kimi vurğulana bilər. 2007-ci il iyunun 11-də İsrail xarici işlər nazirinin birinci müavini Yossi Qal Bakıda olaraq ölkələrimiz arasında siyasi dialoqla yanaşı, iqtisadi əlaqələrin də inkişaf etdirilməsinin, ticarət dövriyyəsinin artırılmasının zəruriliyini bildirmişdir.

Beləliklə, faktlardan göründüyü kimi, Azərbaycan-İsrail mədəni əlaqələrinin inkişafında dinamik dövr hesab edilən son illər bu sahədə bir çox planlı və ardıcıl tədbirlər həyata keçirilməkdədir. Azərbaycan və yəhudi xalqı arasında dostluq münasibətlərinin qorunub-saxlanmasında mədəni əməkdaşlığın imkanlarından istifadə əhəmiyyət kəsb edir.

# II Fəsil

## AZƏRBAYCANIN DIGƏR ŞƏRQ ÖLKƏLƏRI ILƏ MƏDƏNI ƏLAQƏLƏRI

### 2.1. Azərbaycan-Hindistan mədəni əlaqələri

Azərbaycanla qədim mədəni və mənəvi yaxınlığa malik olan ölkələrdən biri də Hindistan olmuşdur. Əhalisinə görə dünyanın ikinci böyük dövləti olan Hindistan, həm də qədim və zəngin sivilizasiyalardandır. Çox zəngin və mədəni rəngarəngliyə malik bu ölkə ilə Azərbaycan arasında mədəni yaxınlaşma və əlaqələrin tarixinin qədim kökləri tunc dövründən başlayır. Bu iki ölkə arasındakı mədəni əlaqələrin tarixi təşəkkülü və inkişafı problemlərini öyrənərək tədqiq edən tanınmış alimlər S.Aşurbəyli, A.Seyidzadə bu əlaqələrin qədim və orta əsrlərdə dövründə mövcudluğunun tarixi faktlar əsasında sübuta yetirmişdir. Hazırkı məqalənin yazılması prosesində biz bu tədqiqatçıların məqalə və monoqrafiyalarına istinad etmişik.[5]* Azərbaycan rayonlarının bir çoxundan Hindistana xas balıqqulaqlarının aşkar edilməsi bu ölkə ilə Azərbaycan arasında əlaqələrin lap qədimdən - tunc dövründən mövcudluğuna ehtimal yaradır. Azərbaycan Hindistan arasında mədəni əlaqələrin tarixi qədimliyini sübut edən dəlillər X əsrə aid edilir. Xüsusilə, məsafəcə bir-birindən çox uzaqda yerləşən bu iki ölkə arasında mədəni əlaqələrin təşəkkülündə filosof, ilahiyyatçılar, şair və səyahətçilərin çox böyük xidmətləri olmuşdur. Bu sırada görkəmli Azərbaycan şairi Nizami Gəncəvinin adı xüsusi qeyd olunmalıdır. N.Gəncəvi Azərbaycan – hind xalqı arasında mənəvi yaxınlığın formalaşmasına güclü təsir göstərmiş simalardandır. Belə ki, zəngin fəlsəfi məktəbi olan Hindistanın fəlsəfi təlimlərinə yiyələnən, onları dərindən və diqqətlə öyrənən görkəmli mütəfəkkir özünün «İsgəndərnamə», «Xosrov və Şirin», «Yeddi gözəl» adlı məşhur poemalarında Hindistana xüsusi yer vermişdir. Şairin «İsgəndərnamə» əsərinin birinci hissəsi-şərəfnamə Hindistanın mədəniyyəti, fəlsəfəsi və əhəmiyyətinə həsr edilmişdir. «Şərəfnamə»də İsgəndərin Hindistana səfəri, onun Keyduya məktubu, İsgəndərin Hindistandan Çinə gedişi əks etdirilmişdi. Poemanın ikinci-«İqbalnamə» hissəsində İsgəndərin hind müdriki ilə söhbət səhnəsində hind fəlsəfəsinin mahiyyətini Nizami Gəncəvi bədii dil ilə ifadə edir.

XII əsrdə Hind fəlsəfəsinin Azərbaycanda tanınması və yayılmasında Nizami Gəncəvidən sonra xidməti olmuş görkəmli şairlərdən biri də Xaqani Şirvani olmuşdur. Yunan fəlsəfəsindən imtina edərək hind fəlsəfəsinə, fəlsəfi məntiqinə yüksək qiymət verən Xaqani özünün «Mirətüs-Səfa» əsərində bunu bədii-obrazlı tərzdə əks etdirmişdir. Bu əsəri şair özü Xorasandan Hindistana göndərmişdir. Bununla yanaşı o, özünün digər əsərlərində «Pançatantra», hind rəqs, melodiyaları və d. mədəni nailiyyətlər barədə xüsusi hörmətlə bəhs edir.

Azərbaycan-Hindistan mədəni əlaqələrinin yaranma tarixi təkcə elmi-fəlsəfi görüşlərin qarşılıqlı təsiri ilə deyil, eləcə də ədəbi, poeziya əlaqələrinin inkişafı ilə bağlıdır. Bu sahədə Nizami Gəncəvinin yaradıcılıq yolu xüsusilə seçilir.

XI əsrdən XIII əsrin birinci rübünədək Azərbaycanda poeziyanın çiçəklənmə dövrü dünyanın bir çox ölkələrinin ədəbi mühitinə əhəmiyyətli şəkildə təsir etdiyi kimi, bu təsir Hind ədəbiyyatından da yan keçməmişdi. Şirvanşah I Axsitanın sifarişilə Nizami Gəncəvinin ərəb mövzusunda yazdığı dünyaşöhrətli «Leyli və Məcnun» poeması eləcə də fars dilində yazıb-yaradan görkəmli hind şairi Əmir Xosrov Dəhləvinin (1253-1325) böyük marağına səbəb olmuş və eyni mövzuda bu şair də poema yazmışdı. Ümumiyyətlə, təkcə «Leyli və Məcnun» əsəri deyil, Dəhləvi N. Gəncəvini özünün müəllimi hesab edərək «Xəmsə»ni iqtibas edərək «Pənc hənc» («Beş xəzinə») adlı əsərini yazır.

Dəhləvinin «Pənc hənc» əsərlər toplusuna «Mətlə əl-ənvar», «Xosrov və Şirin», «Məcnun Leylinin yanında», «Həşt-behişt»i və «İsgəndərnamə» poemaları daxildir ki, bunların hər biri Nizami Gəncəvinin adı ilə başlayır və beləcə də tamamlanır. Dəhləvinin beşliyinə daxil olan «Mətlə əl-ənvar» («Nurun doğuluşu») poeması N. Gəncəvinin «Sirlər xəzinəsi»nə həsr edilən ən qədim nəzirələrdəndir. Onun həcmi üç min altı yüz on beytdən ibarətdir.

Əvvəldə qeyd etdiyimiz kimi, Nizami Gəncəvi qədim hind ədəbi abidələrinə yaxından bələd idi. O özünün ikinci əsəri olan «Xosrov və Şirin» poeması üzərində çalışarkən qədim hind ədəbi abidəsi olan «Pançatantra»nın («Beş kitab») motivlərindən əxz edərək istifadə etmişdir.

Hind mədəniyyətinə olan dərin ehtiram hissi Nizami Gəncəvinin «Yeddi gözəl» adlı poemanın zərif novellalarında da öz bədii ifadəsini tapmışdı. Bu məşhur poemada şair Hindistan şahzadəsi Furakın gözəlliyini vəsf edərək ay işığının hind qızının gözəlliyi qarşısında qaranlığa büründüyünü göstərmişdi.

Azərbaycan-Hindistan ədəbi əlaqələrin inkişafı prosesində məşhur hind yazılı abidəsi olan «Kəlilə və Dimnə» dastanının da özünəməxsus rolu olmuşdu. Bu dastan Azərbaycan dilinə (türk) 1809-cu ildə Əvəz-Əli

---

[5] Ашурбейли С. «Экономические культурные связи Азербайджана с Индией в середине века». Б.Элм, 1990

Səfiqulu oğlu tərəfindən çevrilmiş, tərcüməçi tərəfindən hətta çoxlu sayda miniatürlərlə illüstrasiyalaşdırılmışdı. Tərcüməçi dastan haqqında əlavə etdiyi müqəddimədə kitabın yaradılması tarixi, digər dillərə tərcümələrin icmalı və hind ədəbiyyatının bu görkəmli abidəsinin dəyəri haqqında bəhs edir.

Tarixi faktlardan göründüyü kimi birbaşa ünsiyyət üçün nəqliyyat, texniki imkanların olmadığı istər qədim, istərsə də tarixin orta çağlarında Azərbaycan-Hindistan mədəni əlaqələrin təməli, daha çox ədəbi münasibətlər, əlaqələr müstəvisində qoyulmuş və bu proses inkişafa doğru istiqamət götürmüşdü. Məsafə baxımından bir-birindən uzaq olan bu xalqların bir-birinə mədəni təsirinin başlıca səbəbi mənəvi yaxınlıq idi. Şərq dünyasının üzvləri olan hər iki xalqın düşünmə tərzi, yaradıcılıq meyarları oxşar olduğuna görə, mədəniyyətlərin bir-birinə inteqrasiyası üçün əlverişli mühit mövcud olmuşdu. Faktlar söyləməyə imkan verir ki, bu mədəni inteqrasiya öz-özünə, yəni yalnız mədəniyyət nümayəndələrinin təşəbbüsü, maraq və istəyi sayəsində həyata keçirilirdi. Ədəbiyyat, poeziya sahəsində şairlərin bir-birilərinin gözəl, dahiyanə əsərlərinə nəzirələr yazması mədəni əxz, iqtibasın bir forması kimi təzahür tapırdı. Ədəbi əlaqələrdə bu proses hələ bir çox əsrlər davam edir. Mədəni əxz, iqtibasın çıxış nöqtəsi ədəbiyyatların bir-birini tanıması və maraqlanması prosesindən ibarətdir.

Azərbaycanın görkəmli lirik şairi Məhəmməd Füzuli(XVI əsr) özünün Nizami Gəncəvinin şagirdi adlandıran Əmir Xosrov Dəhləvini dünyanın ən gözəl şairlərindən bir sayırdı. Füzuli özü də, hind mədəniyyəti-fəlsəfə, ədəbiyyatı ilə dərindən maraqlanan bir ədib idi. Onun «Ənisül-qəlb» adlı poemasında şairin hind fəlsəfəsinə yaxından bələd olduğunu hiss etmək olur. Məhəmməd Füzuli hind fəlsəfəsini yunan fəlsəfəsinə qədər dəyərləndirirdi.

Füzuli yaradıcılığı hind müsəlman ziyalılarına çox yaxşı tanış idi və onlar Azərbaycanın bu görkəmli şairini yüksək qiymətləndirirdilər.

XVI əsrdə Hindistanda Böyük Moğol imperiyasının yaranması Hindistanda yeni mədəniyyətin çiçəklənməsində bir təkan oldu. Xüsusilə, Baburlar nəslinin nümayəndəsi Əkbər şah və onun varisləri dövründə (XVI əsrin axırı-XVII əsrin əvvəlləri) Azərbaycan-Hindistan mədəni əlaqələrində də canlanma hiss olunur. Bu, xüsusilə, XVI əsrin sonuncu rübündə Azərbaycanda baş vermiş səfəvi-türk müharibəsi zamanı bir çox azərbaycanlı ziyalılarının-alim, şairlərin məhz Hindistana mühacir etməsi fakı ilə bağlı idi. Bu hadisə həmin ölkə ilə mədəni əlaqələrin inkişafı dinamikasına əhəmiyyətli dərəcədə təsir göstərdi. Hələ qədim dövrlərdən digər dinlərə və müxtəlif əqidələrə ehtiramla yanaşan hindlilər azərbaycanlı alim, şair, rəsam, ədəbiyyatçılarla hörmətlə davranır, mehriban ünsiyyət şəraitində mədəni təmas qururdular. Hindistanın dövlət hakimləri uzaq ölkədən pənah gətirmiş bu elm, mədəniyyət adamlarının öz yaradıcılıqlarını davam etdirmək üçün lütfkarlıq göstərir, hər cür şərait yaradırdılar. Yazıb-yaratmaq üçün, məhz elə Hindistana üz tutmuş azərbaycanlı ziyalılarının mühacirətinin başlıca səbəbi bu idi. Qəzəli bunu öz şerində daha aydın və qabarıq şəkildə tərənnüm etmişdi: «Mən Hindistana tərəf gedirəm, çünki orada istedadlı adamlara yaxşı qiymət verirlər».

Uzun müddət Hindistanda yaşamış Azərbaycanın məşhur şairlərindən Məsihi, Saib Təbrizi, İbrahim Ordubadi, Məhəmməd Sadıx Təbrizi və başqalarının adlarını çəkmək olar.

Hindistana pənah gətirmiş və bu ölkədə yazıb-yaratmış Azərbaycan şairləri bu qədim və gözəl ölkə, onun insanlarını ürək dolusu və böyük məhəbbət, ehtiramla tərənnüm edirdilər. XVII əsrdə Hindistanda yazılmış təzkirələrdə Azərbaycan şairləri, yazarları haqqında əsaslı rəylər, fikirlər də mövcuddur. Məsələn, «Şəmi-əncumən», «Nigaristani-suxən», «Miratül-xiyal», «Hezane-amirə»də Nizami, Xaqani, Nəsimi, Füzuli, Səib Təbrizinin yaradıcılıqlarına yüksək qiymət verilir, onlardan bəzilərinin Hindistandakı fəaliyyətləri təhlil olunur.

Azərbaycan-Hindistan mədəni əlaqələrinin inkişaf tarixinin öyrənilməsi baxımından hazırki qədim mənbələr çox böyük mədəni-tarixi əhəmiyyət kəsb edir. Çünki bu mənbələrdə, həmçinin XVII əsrdə Hindistanın müxtəlif şəhərlərindən mədrəsə, elm ocaqlarında çalışan Azərbaycan alim və müəllimlərinin fəaliyyəti haqqında da kifayət qədər tarixi fakt və fikirlər mövcuddur.

Bütün bunlarla yanaşı, Hindistanı azərbaycanlılara, eləcə də bütün dünyaya tanıtmaq məqsədilə Azərbaycanın məşhur coğrafiyaşünas-səyyahlarından Əbdürrəşid Əl-Bakuvi (XV əsr), Hacı Zeynalabdin Şirvaninin (1780-1838) adları xüsusi olaraq çəkilməlidir. Ayrı-ayrı əsrlərdə Hindistana səfər etmiş bu səyyahlar bu ölkənin tarixi, əhalisi, şəhərləri, abidələri, həyat-tərzi, mədəniyyəti haqqında zəngin biliklər təqdim etmişlər.

Böyük Moğol dövləti dövründə Azərbaycan-Hindistan mədəni əlaqələrinin səmərəli səciyyə kəsb etdiyini sübut edən tarixi faktlardan biri də, xüsusilə, memarlıq, şəhərsalma sənətində bir-birindən bəhrələnmə, iqtibas və əxzetmə yolu ilə mədəni sintezin qurulması idi.

Tanınmış alim Cəfər Qiyasi bu haqda yazır: «Bu iki qədim ölkə arasında ən sıx memarlıq əlaqələri Böyük Moğol dövlətinin qüdrətli çağlarına təsadüf edir».

Memarlıq əlaqələrinin mövcudluğunu, inkişaf etdirildiyini təsdiq edən müəllif bu əlaqələrin Azərbaycanlı sənətkarların həmin ölkəyə gedərək birgə əməkdaşlıq etdiklərini bildirərək yazır: «Siyasi və ictimai amillərlə bağlı olaraq XVI-XVII yüzillərdə bir çox azərbaycanlı usta Hindistana getmiş və müxtəlif sənət sahələrində «Moğol üslubunun» formalaşmasında iştirak etmişlər».

Memarlıq sahəsində Azərbaycan-Hindistan ustaları arasında mədəni əməkdaşlıq Baburun oğlu Nasirəddin Humayunun hakimliyi dövrünə təsadüf edir. Belə ki, Təbriz, Ərdəbil və Azərbaycanın digər yerlərini görmüş Humayun azərbaycanlı sənətkar və ustaların yaratdıqlarından böyük zövq alır, Hindistana qayıdarkən özü ilə onlardan bəzilərini aparır. Bu tarixi hadisədən sonra nəinki memarlıq, eləcə də digər mədəniyyət sahələrində azərbaycanlı sənətkarların hörmət və nüfuzu daha da artdı.

Humayunun özünün «Dövlətin nadiri» adlandırdığı məşhur Azərbaycan rəssamı Mir Seyid Əli Təbrizi uzun müddət baş saray rəssamı kimi çalışıb. Bu rəsam Moğol miniatür məktəbinin formalaşmasında aparıcı rol oynamışdı. Cəfər Qiyasinin adı, çəkilən kitabda azərbaycanlı memar Ağa Mirək Mirzə Qiyasın Moğol memarlığının formalaşmasında roluna diqqət yetirilir. Xüsusilə, memarın Yeni Dehli şəhərində tikdiyi Humayun türbəsi memarlıq əlaqələrinin timsalı kimi çıxış edir.

Moğol sülaləsinin gənc varisi olan Humayunun adı ilə bağlı Azərbaycan muğamı, eləcə də «Mahur-hindi» muğamı iki ölkə arasında, həmçinin musiqi sahəsində əlaqələrin də mövcudluğunu sübut edir. Hind musiqi motivləri əsasında mövcud olan «Humayun» muğamının Humayun şahın Təbrizdə Şah Təhmasibin sarayında olarkən bəstələndiyi söylənilir.

Tarixi faktlardan göründüyü kimi, Azərbaycan-Hindistan mədəni əlaqələri təşəkkülü, inkişafının kökləri qədim çağlara, orta əsrlərə gedib çıxır. Dünyanın ilk sivilizasiyalarından biri kimi tanınan Hind mədəniyyətinə yaxınlaşmaq, bu mədəniyyətlə ünsiyyətdə olmaq Azərbaycan üçün də həmişə maraqlı və aktual olmuşdur. Mədəniyyət incəsənətində zəngin dəyərlərə malik olan Hindistanla mədəni yaxınlıq, əməkdaşlıq ən yeni tarixdə daha geniş və hərtərəfli səciyyə kəsb etdi. Hələ 1920-ci ilin sentyabrında Bakıda keçirilən Şərq xalqlarının birinci qurultayında Hindistandan da nümayəndənin Azərbaycana səfəri iki ölkə arasında yeni prinsiplər əsasında mədəni əlaqələrin başlanğıcında tarixi hadisə oldu.

Xüsusilə, XX əsrin ortalarından başlayaraq Azərbaycan-Hindistan mədəni əlaqələr tarixində yeni bir dinamik inkişaf dövrü başlayır. Bu ilk növbədə, Hindistanın müstəmləkəçilik zülmündən qurtularaq müstəqillik qazanması və bu yolda SSRİ-nin həmin ölkəyə himayədarlıq siyasətinin prinsipləri ilə bağlı idi. Azərbaycan SSRİ-nin tərkib hissəsi kimi bu siyasətin prinsip və istiqamətləri üzrə Hindistan dövləti ilə dostluq münasibətlərini daha da gücləndirdi ki, bu da mədəni əlaqələrin məqsədyönlü əməkdaşlıq səhiyyəsində davamına təkan verdi. Yenicə müstəqillik əldə edən Hindistana elmi-tədris, mədəni, mənəvi dəstək məqsədilə hər iki ölkə, dövlət qarşılıqlı əməkdaşlıq siyasətinə üstünlük verdi.

Yeni tarixi dövrdə yazıb-yaradan Azərbaycan sənətkarları üçün hind tematikası doğma və aktual idi. Azərbaycan şair və yazıçıları, musiqi xadimləri, rəssamları müstəqillik uğrunda mübarizə aparan hind xalqı ilə mənəvi həmrəy olduqlarını yaratdıqları sənət əsərlərində bariz şəkildə tərənnüm edirdilər. Səməd Vurğunun 1948-ci ildə yazdığı məşhur «Zəncinin arzuları» poemasında Hindistanın vəziyyəti zəncinin dili ilə təsvir olunmuşdu.

Qeyd etmək vacibdir ki, hələ ötən əsrin 30-cu illərində iki ölkə arasında mədəni yaxınlığın qabarıq nümunəsi tarixin mövcud olmuş ədəbi əlaqələrin yeni məzmunda təkanında müşahidə olunurdu. Belə ki, 1930-cu illərdə görkəmli hind yazıçısı və mütəfəkkiri Rabindranat Taqorun «Fəlakət» romanı artıq Azərbaycan dilinə tərcümə olunaraq oxuculara təqdim olunmuşdu. Bunun ardınca Azərnəşr tərəfindən nəşr olunan «Hindistan və Pakistan hekayələri» məcmuəsinə Hindistanın görkəmli yazıçılarından Prem Çand, Mülk Rac Anand, Notac Sinqxin, Xaca Əhməd Abbas və digərlərinin maraqlı hekayələri azərbaycanlı oxucuların diqqətinə çatdırılmışdı. Hindistan yazarlarının bu və digər silsilə əsərlərinin Azərbaycan dilinə tərcüməsində Məmməd Rahim, İ. Soltan, M.Seyidzadə, Əhməd Cəmil, Böyükağa Qasımov, eyni zamanda Azərbaycan əsərlərinin hind dilinə tərcüməsində isə, hind şairlərindən M.İqbal, Mankulal Şarma Şil, Rameşvar Şukla Ançal, İsrar Ulxan Macaz, Şankar Şaylandra və digərlərinin adlarını çəkmək lazımdır.

Beləliklə, Azərbaycan-Hindistan mədəni əlaqələri tarixində orta əsrlərdən sonra hökm sürmüş müəyyən durğunluq XX əsrin 20-30-cu illərində sona yetdi.

1946-cı ilin yanvarın 25-də Moskvada Sovet-Hind mədəni əlaqələri cəmiyyətinin təşkili bu sahə üzrə işin planlı şəkildə həyata keçirilməsini təmin etdi.

Müstəqillik quruculuğunda digər Şərq ölkələri kimi, Hindistana da mənəvi yardım məqsədilə sovet hökuməti Azərbaycan elmi, mədəniyyətinin bu missiyaya cəlb edilməsinə diqqət yetirdi. Elmi-mədəni, incəsənət sahələri üzrə mübadilələrin aparılması məqsədilə, yaradıcılıq ezamiyyətləri, görüşləri, dekada və həftələrin təşkilindən bu missiyanın reallaşmasında bir vasitə kimi istifadə olundu. Azərbaycan alimlərindən məşhur cərrah M.A.Topçubaşov, görkəmli filosof A.O.Makovelski həmin ölkəyə elmi mübadiləyə ezam olunmuş ilk alimlərdəndirlər. Onlar Hindistanın bəzi təşkilat və ilk növbədə, universitetlərin fəxri üzvü seçilmişlər.

1955-ci ildə texnika elmləri doktoru, professor Ə.İ.Tağıyevin rəhbərliyi altında ilk sovet neftçi elmi-texniki mütəxəssislər qrupu Kambey və Ankleşvarenin zəngin neft yataqlarının tapılmasında hindlilərə kömək etmişlər. Azərbaycan neftçiləri Hindistanın nefti kadrlar və neft avadanlıqları ilə təmin olunmasında da müstəsna rol oynamışlar.

50-ci illərdə bir çox hind alimləri də mübadilə məqsədilə Azərbaycanda ezamiyyətdə olmuşlar. Hind elminin tanınmış nümayəndələri-fiziklər M.Q.Saxa, Ç.V.Raman, X.Baxvha, D.Kothari, geoloq S.P.Çatterci, tarixçi D.R.Kosambi, riyaziyyatçı və statistik P.Ç. Maxolonovis, politoloq M.Sahni və başqalarının elmi fəaliyyəti, Azərbaycan səfərləri haqqında respublika qəzetləri - «Kommunist», «Bakinski raboçi», «Vışka», «Bakı» və d. məqalələr dərc olunmuşdur.

Elmi əlaqələr getdikcə daha geniş məzmun kəsb etməyə başlayırdı. Artıq 1960-cı illərdə Azərbaycan-Hindistan alimləri arasında elmi əməkdaşlığın yeni formaları-birgə elmi ekspedisiyaların təşkili ənənəvi xarakter almağa, ayrı-ayrı elmi sahələrdə əməkdaşlıq müqavilələr əsasında həyata keçirilməyə başladı.

Eyni nailiyyətlər mədəniyyətin digər sahələrində də - ədəbiyyat, musiqi, təsviri incəsənət və s. təzahür olunmağa başladı. 1947-ci ildə yaradılmış Azərbaycanın Xarici ölkələrində Dostluq və Mədəni Əlaqələr Cəmiyyətinin Hindistanla yuxarıda adları sadalanan mədəniyyət sahəsində əlaqələrin inkişaf etdirilməsini planlı və ardıcıl şəkildə həyata keçirtməyə başladı. Xüsusilə, Hindistan, onun mədəniyyəti ilə tanış olunması məqsədilə bu qızmar günəş ölkəsinə ezam olunmuş Azərbaycan mədəniyyət xadimləri, sənətkarlar təəssüratlarını yaratdıqları əsərlərdə tərənnüm edirdilər. Azərbaycanın görkəmli yazıçısı Mirzə İbrahimov Hindistan müstəmləkə zülmündən azad olmamışdan (1947-ci il), həm də Hindistan respublika elan edildikdən sonra (1954-cü ildə) bu ölkəyə gedərək əldə etdiyi təəssüratlarını «Çandranın üsyanı» kimi bədii cəhətdən dolğun povestində və digər məqalə, məruzələrində bildirmişdir. 1955-ci ilin yanvarında bir qrup sovet yazıçıları ilə Hindistana gələn sovet nümayəndə heyətinin rəhbəri Əli Vəliyev «Hindistan tayms» qəzetinin müxbirinə verdiyi müsahibədə Heydərabad şəhərində Azərbaycan Teleqraf Agentliyinin açılmasını «iki ölkə arasında mədəni əlaqələrin yeni mübadiləsi» adlandırmışdı. Burada Azərbaycan zəhmətkeşləri, o cümlədən elm, mədəniyyət və incəsənət ustalarının əsərləri tərənnüm edilirdi.

Azərbaycan-Hindistan mədəni əlaqələrinin canlanması prosesində 1950-ci illərin xüsusi tarixi yeri olmuşdu. Artıq iki ölkənin sənətkarları arasında dostluq əlaqələri güclənmişdi. Artıq dörd dəfə Hindistana səfər etmiş yazıçı Mirzə İbrahimovu hindlilər yaxından tanıyırdı. Bu illərdə Azərbaycanın görkəmli rəssamı Mikayıl Abdullayevin Hindistana etdiyi yaradıcılıq səfəri və bir müddət bu ölkədə yaşayıb-fəaliyyət göstərməsi iki ölkə arasında mədəni əlaqələrin inkişafına əhəmiyyətli təsir göstərmişdi. Mikayıl Abdullayevin Hindistan mövzusunda yaratdığı silsilə əsərlərilə, demək olar ki, dünya sənətsevərləri də bələddir.

1956-cı ildə Bakıda olmuş Hindistan vitse-prezidenti cənab S.Radhakrişnan və Hindistanın SSRİ də fövqəladə və səlahiyyətli səfiri cənab K.P.Ş.Menon respublika gənclər festivalında çıxış etmiş gənc müğənni Elmira Rəhimovanın ifasında hind filmlərinin mahnılarını diqqətlə dinlədikdən sonra onu Hindistanda təhsilini davam etdirməyə dəvət etdi. Təklifi məmnuniyyətlə qəbul edən gənc azərbaycanlı qızın sonrakı fəaliyyəti iki dost xalq arasında mədəni əməkdaşlığın inkişafına bir töhfə oldu. Hindistanın musiqi institutunda təhsil alan Elmira Rəhimovanın ifasını dinləmiş Hindistan Respublikasının Baş Naziri Cəvahirləl Nehru gənc müğənni ilə söhbətində belə söyləmişdi: «Vətəninizə-SSRİ-yə gedərkən özünüzlə bərabər Hindistanın qəlbini də aparın. Siz elə indinin özündə də o qəlbə sahib ola bilmisiniz. Siz Hindistanın qəlbi olan onun mahnılarını olduğu kimi ifa edirsiniz».

Hər zaman-istər hal-hazırki günlərdə, istərsədə haqqında söhbət gedən tarixin hazırkı çağında hind musiqisi, mədəniyyətinə məhəbbət, maraq bu ölkənin istehsal etdiyi rəngarəng kinofilmləri vasitəsilə əldə olunur. Azərbaycan xalqı hind filmlərinə həmişə maraq göstərmiş, bunları sevmiş, ayrı-ayrı film qəhrəmanlarını yaradan aktyorlar populyarlıq qazanmışdı. Hələ 50-60-cı illərin məşhur hind rejissor və aktyorlarından Rac Kapur, Kumari Surayyə, Nərgiz, Kaminə Kauşal, Abxi Bhataçariya 1956-cı ilin noyabrında Bakı şəhərinə səfər etmişlər. Həmin səfər Azərbaycanın mədəni həyatında tarixi bir hadisə kimi əhəmiyyətli yer tutmuşdur. Sonralar Rac Kapur, Nərgizlə Azərbaycanın görkəmli sənətkarları Rəşid Behbudov, Şövkət Ələkbərova arasında dostluq və sənət əlaqələri davam etdirilmişdir.

Azərbaycan-Hindistan mədəni əlaqələrinin inkişaf dinamikasında xüsusi çəkisi olan 1950-ci illər digər tarixi hadisə ilə də yadda qaldı. Bu 1959-cu il iyunun 16-da Azərbaycan-Hindistan Dostluq və Mədəni Əlaqələr Cəmiyyətinin təsisi ilə bağlıdır. Cəmiyyətin sədri seçilən akademik Mirəli Qaşqay; üzvləri bəstəkar Tofik Quliyev, Rəşid Behbudov, müğənni Elmira Rəhimova, şairlər Hüseyn Hüseynzadə, Məmməd Rahim və b. Azərbaycan-Hindistan mədəni əməkdaşlığının qarşıdan gələn illərdə daha səmərəli şəkildə davam etdirilməsi işinə şərəflə xidmət etmişlər.

Digər tərəfdən 1960-cı ildə Azərbaycanın xarici ölkələrlə dostluq və mədəni əlaqələr cəmiyyətinin Azərbaycan-Hindistan şöbəsinin yaradılması da iki ölkə arasında mədəni əməkdaşlığın vüsətinə yeni təkan verdi. Azərbaycan-Hindistan mədəni əməkdaşlığı sahəsində xüsusi təşkilat və qurumların yaradılması bu istiqamət üzrə fəaliyyətin planlı, ardıcıl və sistemli şəkildə qurulmasına əlverişli şərait yaratdı. Mədəniyyət, elm-təhsilin bütün istiqamətləri üzrə əlaqələr əməkdaşlıq səviyyəsində davam etdirildi. Bu sahələr üzrə intensiv fəaliyyətə üstünlük verildi. Əməkdaşlığın bu cür davam etdirilməsinə maraqlı olan sovet dövləti rəngarəng tədbirlərin həyata keçirilməsinə diqqət yetirirdi. Xüsusilə, sənətkarların yaradıcılıqlarının təbliği məqsədilə, konsert, festival, sərgilərin təşkili aparıcı yer tutmağa başladı. Xüsusilə, hind ədəbiyyatının klassik nümunələri

Azərbaycan dilinə tərcümə edilərək nəşr olundu. Bu dövrdə «Riqvyad himnləri», hind folklorunun epik sənət əsərləri: «Mahabharata», «Ramayana», orta əsrlər poeziyasının lirik və epik əsərləri, klassik dramaturgiya ilə bərabər qədim və orta əsr fəlsəfi ədəbiyyatı, estetikası, etikası, tarixi və mədəniyyətinə dair toplular, hind ədəbiyyatşünasları S. E. Hüseyn və Ş. Çauxanın tədqiqat əsərləri nəşr olundu.

Bundan əlavə, Azərbaycan sənətkarları üçün hind tematikası həmişəki kimi yenə də aktuallıq kəsb etməkdə idi. Hindistanda olmuş, bu ölkənin mədəniyyətindən, insanlarından zövq almış azərbaycanlı sənətkarlar sələfləri kimi bu tematikasının inkişaf etdirilməsinə bir çox töhfələr bəxş etmişlər. Bəstəkar Sultan Hacıbəyovun «Hind mövzusunda suita» yazıçı-dramaturq Qeybulla Rəsulovun «Əlvida, Hindistan» pyesi, maestro Niyazinin «Çitra» baleti və başqalarının əsərlərində hind xalqının mədəniyyətinə, tarixinə ehtiram və məhəbbət bədii obrazlarla öz ifadəsini tapmışdı. «Çitra» balet və hind mövzusunda silsilə əsərlərə görə maestro Niyazi də Cəvahirləl Nehru adına Beynəlxalq mükafata layiq görülmüşdü.

Azərbaycan-Hindistan mədəni əlaqələrinin keyfiyyətcə yeni olan inkişafının bu dövründə mühüm hadisələrdən biri də mədəniyyət ongünlüklərinin (dekada) keçirilməsi faktıdır. Mədəniyyət dekadaları xalqların bir-birini yaxından tanıması, mədəniyyətlərin təbliği üzrə həyata keçirilən ən səmərəli formalardan biridir. Azərbaycan-Hindistan mədəni əlaqələri tarixində həyata keçirilən mədəniyyət dekadaları, məhz bu məqsədə xidmət edirdi. 1968-ci ilin martında Hindistanın Hücərat ştatında keçirilən Azərbaycan mədəniyyəti dekadası ərzində 70-dən artıq mitinq və yığıncaq keçirilmişdi ki, burada da 8-10 min adam iştirak etmişdi. Azərbaycandan getmiş nümayəndə heyəti 10 gün müddətində Milli Mədəniyyətin təbliği məqsədilə rəngarəng tədbirlərdə iştirak etmişlər.

Azərbaycan xalqının mədəni həyatı, incəsənəti hindlilərdə böyük maraq doğurmaqda davam edirdi. 1968-ci ilin sentyabrında Bakıda olmuş Hindistan-Sovet Mədəni Əlaqələr şöbəsinin vitse-prezidenti Heydərabad ştatının hüquqşünası Ramanləl Mahanləl Şahın başçılıq etdiyi nümayəndə heyəti müasir Azərbaycan mədəniyyət və incəsənəti ilə yaxından tanış olmuş, bu mədəniyyəti sevmiş və belə bir xalqla mədəni mübadilənin zəruri olduğunu bəyan etmişdi.

Elə 1969-cu ilin sentyabrın 25-də Azərbaycanda başlanan Hindistan mədəniyyəti ongünlüyünün də əsas missiyası sovet Azərbaycan xalqı ilə dostluq münasibətlərinin gücləndirilməsi ilə yanaşı, eyni zamanda Azərbaycan mədəniyyəti ilə münasibətlərdə tarixi ənənələrə malik olmuş mədəni əlaqələrin də gücləndirilməsi təşkil edirdi. Azərbaycanda qeyd olunan bu dekada ümumxalq bayramına çevrilmişdi. O vaxtlar həmin tədbirdə iştirak edən sənətkarlar, adi vətəndaşlar bu bayramı xoş təəssüratla xatırlayırlar. Hind mədəniyyəti, incəsənətini, xüsusilə də, kino və musiqisinə böyük sevgi və marağı olan Azərbaycan vətəndaşları Hindistanın məşhur sənətkarları ilə – aktyor və rejissor Caşvant Thaker, müğənnilər Puşna Upender Trivedi, Lakhaç Bran Qindiv, Priça Devi, Hafiz Əhmədxan, musiqiçilər Lətif Əhməd, Mahmud Mirzə Səbri xan və digərləri ilə görüşlərə tükənməz şəkildə can atırdılar. Hind sənətkarları Azərbaycan artistlərindən Şövkət Ələkbərova, Roza Cəlilova, Elmira Rəhimova, İslam Rzayev, F. Yarməmmədovun idarəsi ilə «Xəzər» adlı çalğı alətləri orkestri və b. birgə çıxışlar etmiş, sənət haqqında söhbət, görüşlər keçirtmişlər. Bu qəbildən olan mübadilələrin vüsəti 1970-ci illərdə də davam etdirilməkdə idi. Görkəmli Azərbaycan rəssamı Mikayıl Abdullayevin Hindistana ikinci dəfə yaradıcılıq səfəri, məhz bu illədə həyata keçdi. Belə ki,bu yaradıcılıq səfərində rəssam «Hindistanla ikinci görüş» başlığı altında çəkdiyi yeni natura əsərləri yenə də bu xalqın həyat tərzi, mədəniyyəti, ölkənin gözəl təbiətinə həsr edilmişdi. Mikayıl Abdullayevin, məhz bu illərdə yaratdığı hind xalqının böyük qızı «İndira Qandinin portreti» əsəri Azərbaycan hökuməti tərəfindən Hindistanın baş naziri İndira Qandiyə hədiyyə olunmuşdu. Bu silsilə əsərlərinə görə rəssam 1970-ci ildə Cəvahirləl Nehru adına Beynəlxalq mükafata və qızıl medala layiq görülmüşdür. Ən önəmli və tarixi hadisə bundan ibarət idi ki, yüksək mükafat rəssam M.Abdullayevə İndira Qandinin özü tərəfindən təqdim olunmuşdu. Görkəmli rəssamı artıq Hindistan xalqı çox yaxşı tanıyır, bu ölkədə onun əsərlərdən ibarət sərgilərin təşkili Azərbaycan-Hindistan mədəni əməkdaşlığının inkişafında xüsusi bir əhəmiyyət kəsb edirdi. Təsviri sənət sahəsində əməkdaşlıq qarşılıqlı idi. Artıq bu illərdə Hindistanda yaradıcılıq səfərində olmuş Azərbaycan rəssamlarından SSRİ xalq rəssamı, SSRİ Rəssamlıq Akademiyasının həqiqi üzvü Tahir Salahov, Azərbaycan xalq rəssamı Toğrul Nərimanbəyov, Elbəy Rzaquliyev, əməkdar rəssam Asəf Cəfərov da Hind tematikasında dəyərli əsərlər yaratmışlar. Respublikanın xalq rəssamı Kamil Əliyevin eskizləri əsasında yaradılan İndira Qandinin rəsmi əks olunmuş xalça isə, öz nəfisliyi ilə hamını heyran qoyurdu.

70-ci illərdə tanınmış hind rəssamları M.S.Hüseyn, Biren De, B.Khakkar, Qulam Şeyx, A.Ramaçandran və digərlərinin əsərləri ilə azərbaycanlılar Azərbaycan Şəkil Qalereyası, R.Mustafayev adına İncəsənət Muzeylərində təşkil olunmuş sərgilərdə tanış olmuşlar.

Göründüyü kimi, 1980-ci illərdə Azərbaycan-Hindistan mədəni əlaqələrin səmərəli əməkdaşlıq səviyyəsində davam etdirilməkdə idi. Mədəniyyət və incəsənətin elə bir sahəsi yox idi ki, bu əməkdaşlığın təzahürləri özünü göstərməsin. Elmi-təhsil, tədris sahəsində əlaqələrin qurulması, ədəbiyyat, musiqi, təsviri, sənətin bütün sferalarında səmərəli əməkdaşlığın aparılması Azərbaycan-Hindistan xalqları arasındakı tarixi dostluq ənənələrinin layiqincə davam etdirilməsinin təzahürləri idi. Məhz bu əməkdaşlıq sayəsində Azərbaycan

və Hind xalqı bir-birinə dost münasibətlərini daha da gücləndirmişlər. Yəni həmin dövrdə bir-birindən uzaq məsafələrdə əməkdaşlıq üstünlük təşkil edirdi. Əməkdaşlığın bütün prinsiplər üzrə (ikitərəfli, çoxtərəfli) davam etdirərək gücləndirilməsi üçün tarixi şəraitin yetişdiyi bir dövrdə, yəni müasir gündə Azərbaycan-Hindistan mədəni əlaqələrdə əzəl dinamikliyin olmaması təəssüf doğurur. Düzdür, Azərbaycanın dövlət müstəqilliyini tanıyan 1991-ci il (26 dekabr) ilk dövlətlərdən – biri olan Hindistanla diplomatik əlaqələr 1992-ci ilin fevralın 28-dən qurulmuşdur. Bəzi sahələr, o cümlədən mədəniyyət sahəsində də qarşılıqlı münasibətlər yaranmış, yeni tarixi şəraitə uyğun təşkil olunsa da, zəngin və tarixi ənənələri olan əməkdaşlıq fonunda bu qənaətbəxş təsir bağışlamır. Mədəni əməkdaşlıq sahəsindəki hazırki durğunluğun əsas səbəbi Hindistan dövləti tərəfindən bəzi prinsipial məsələlərdə (ilk növbədə Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsi, Ermənistan tərəfindən işğal olunmuş Kəlbəcər rayonu ərazisindəki «Zod» yataqlarının Hindistan şirkəti tərəfindən işlənməsi) Azərbaycana dəstək verilməməsi, bitərəf mövqeyinin nümayişidir. Əlbəttə, Hindistan tərəfindən nümayiş etdirilən bu mövqe Azərbaycan-Hind xalqları arasında əsrlərlə mövcudolmuş sıx dostluq və mədəni əlaqələrini sarsıtmır. Ruhən və mənəvi cəhətdən bir-birinə yaxın olan bu iki xalqın qarşılıqlı ünsiyyətə, münasibətlərə, inteqrasiyaya həmişə ehtiyacı vardı.

2001-ci ilin oktyabrında Azərbaycan Respublikasının müstəqilliyinin 10 illiyi ərəfəsində Bakıya səfər etmiş Hindistanın Xarici İşlər Nazirinin birinci müavini Racindra Madhikar ilə görüşündə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev digər sahələrlə yanaşı, mədəni əməkdaşlığın tarixi ənənələrinin yenidən dirçəldilməsinə təkan verilməsi təklifini bildirmişdi.

2002-ci ildə Hindistanın tanınmış Odissi rəqqası xanım Aloka Kanun Çonun konserti, Hindistan gəlincikləri və paltarlarının sərgisi, görkəmli rejissor və aktyor Rac Kapur filmlərindən ibarət Hind kinosu festivalının təşkili mədəni əlaqələrin daha da canlanmasına dəlalət edir.

2003-cü il dekabrın 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Hindistanın xarici işlər nazirinin müavini Racindra Madhukar Abhyankare və onun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir. Həmin görüş Azərbaycan – Hindistan münasibətlərinin bütün istiqamətlərdə inkişafını yeni dinamik xətt yzrə davamını şərtləndirdi. Hər iki dövlət Şimal – Cənub nəqliyyat dəhlizində iştirak etmək amilini qarşılıqlı münasibətlərin gücləndirilməsində vacib şərt kimi müəyyənləşdirmşdi.Hindistan ildə 80 milyon ton neft idxal etdiyi üçün, ölkənin qara qızıla olan ehtiyacını qarşılamaq məqsədilə Azərbaycanın neft sənayesinə sərmaye qoymasında maraqlıdır. Belə ki, 2005-ci ildə Bakıda keçirilən «Xəzər neft, qaz, neftayırma və neft kimyası – 2005» XII Beynəlxalq sərci sənayesi və qaz naziri Mani Şankar Ayyar iştirak etmişdir.

Azərbaycan – Hindistan arasında ticarət – iqtisadi əlaqələrin genişləndirilməsi üçün böyük potensial mövcuddur. Bundan çıxış edərək, 2007-ci ilin mart ayının 13-15-də Xarici İşlər nazirinin müavini Xələf Xələfovun rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycan və Hindistan Xarici İşlər Nazirlikləri arasında məsləhətləşmələr aparmaq məqsədilə bu ölkədə rəsmi səfər çərçivəsində iki ölkə arasında ticarət, iqtisadi və elmi əməkdaşlıq üzrə hökumətlərarası işçi komissiyasının yaradılması qərara alınmışdır. Nümayəndə heyəti martın 14-də Hindistan MDB Ticarət və Sənaye Palatasının və Azərbaycanın Hindistandakı səfirliyinin təşkilatçılığı ilə Azərbaycan iqtisadiyyatına həsr edilmiş təqdimat mərasimində iştirak etmişdir. Səfər çərçivəsində Azərbaycan nümaündə heyəti məsləhətləşmələr zamanı, həmçinin ölkəmizin Hindistandakı səfirliyininfəaliyyətinin lazımi səviyyədə qurulması məqsədi ilə Nyu Dehli şəhərində yeni binanın tikilməsi üçün torpaq sahəsi ayrılması məsələsi qaldırılmışdır.

Azərbaycan – Hindistan münasibətlərinin müxtəlif sahələrdə olduğu kimi mədəniyyət sahəsində də uğurla inkişaf etdiyinin bariz nümunə kimi 2007-ci il sentyabrın 27-də Bakıya Hindistanın Yerli, Özünüidarə, Gənclər və İdman, Şimal-Şərq regionu naziri Mani Şankar Aiyarın səfərini qeyd etmək olar. O, Azərbaycan Prezidenti İlham Əliyevlə görüş zamanı ikitərəfli əməkdaşlığın daha da genişləndirilməsi perspektivləri ilə bağlı fikir mübadiləsi aparmışdır.

Beləliklə, Azərbaycan-Hindistan mədəni əlaqələrinin tarixi xronologiyasının öyrənilməsindən belə bir ümumi qənaət əldə etmək olur ki, tarixi kökləri qədim dövrdən başlayaraq üzü bəri inkişaf edən bu əlaqələrin inkişafının başlıca amili ruhi və mənəvi yaxınlıq olmuşdur. Ruhən və mənəvi yaxınlığa istinadən bu xalqlar arasında möhkəm dostluq ənənələrinin formalaşmasında mədəni əlaqələr müstəsna rola malik olmuşlar.

## 2.2. Azərbaycan – Çin mədəni əlaqələri

Mərkəzi və Şərqi Asiyada böyük bir dövlət olan Çin tarixin bütün mərhələlərində dünyada öz yeri, mövqeyi və təsiri olan ölkə kimi diqqəti cəlb etmişdir. Onunla qədim sivilizasiyalardan biri hesab edilən, Çindən məsafəcə uzaqda yerləşən Azərbaycan arasında mədəni əlaqələrin tarixi qədimlərə təsadüf edir. Aralarında məsafə uzaqlığına baxmayaraq hər iki ölkə arasındakı mədəni münasibətlərin təşəkkülü eramızdan əvvəllərə gedib çıxır. E.ə. II əsrin əvəllərindən başlayaraq Azərbaycan Şərqi Asiya ölkələrinin Qərblə beynəlxalq tranzit ticarəti yolunda yerləşdiyinə görə onun bu ölkələrlə ticarət, iqtisadi sahələrdə olduğu kimi mədəni sahədə də əlaqələr yaratmasına geniş imkanlar açılmışdır.

Antik müəlliflərdən Strabon, Plininin verdiyi məlumatlara əsasən Çin malları - ilk növbədə ipək və ipək parçalar, ədviyyat, ətirli məmulatlar, fil sümüyü, çini mallar və qiymətli daş-qaş karvan yolu ilə Orta Asiya və Xəzər dənizindən keçib, Kür və Rioni boyu Qaradənizin sahillərindəki Fazisə (Poti) gətirilibmiş. Çindən digər ticarət yolu isə cənubdan – Orta Asiyadan İrana, Ekbatan və Atropaten Qandzakana Azərbaycanı görmədən keçirdi. Hər iki yol uzun müddət öz rolunu qoruyub saxlamışdır.

VIII-IX əsrlərdə Avropanı Çinlə əlaqələndirən şimal yolu Orta Asiya, İran, Araks düzənliyi və Trapezunddan keçirdi. Çindən gətirilən malların içərisində ən böyük əhəmiyyət kəsb edən ipək və ipək parçalar idi ki, bunlar da qızılla dəyərləndirilrdi. Azərbaycanda Çinin ipək parçaları XII-XIII əsrin əvvəllərində geniş vüsət tapmışdı.

Azərbaycana gətirilən bu malların içərisində çini qabların da özünəməxsus yeri vardır. Ticarət əlaqələri, iqtisadi münasibətlərin mövcudluğunu sübut edən bu faktların arasında Çin-Azərbaycan mədəni əlaqələrinin mövcudluğunu təsdiqləyən məqamlar da vardır. Azərbaycan ərazisindən tapılmış çoxlu sayda çini qablar, fil sümüyündən hazırlanmış aşkar edilmişdir.

Qiymətli çin qablarına Azərbaycanda çox böyük tələbat vardı. Belə ki, bunlardan feodal əyanları istifadə edirdilər. Çin qablarının naxış vurma üsulu yerli keramika sənətinə böyük təsir göstərirdi. XIII əsrdən başlayaraq bütün Şərqdə olduğu kimi, Azərbaycanda da nəbati ornamentlərlə bəzədilmiş gözəl fayans qablar geniş vüsət aldı. Burada tətbiq edilən rəsmlər çin keramika sənətinə məxsus ornamentlərin təsiri ilə yaranmışdı. Azərbaycan dilində bu qabların adının «çini» adlandırılması faktı isə bu ölkənin adı ilə bağlıdır. Bu termin bir çox şərq xalqları kimi azərbaycanlıların da dilinə daxil olmuşdur.

Azərbaycan mədəniyyətinə Çin sənətinin təsiri xüsusiyyətlərini incəsənətin digər sahələrində də açıq aydın müşahidə etmək mümkündür. Məsələn, XIII əsr abidəsi olan Pirsaat Ərazisində yerləşən Pirhüseyn xanəgahındakı türbənin işləmələrində çin motivləri açıq-aydın hiss olunur.

Orta əsrlərdə Azərbaycanın Çinlə mədəni əlaqələrinin inkişafına təsir edən mühüm tarixi hadisə, Azərbaycanın 200 il Monqol dövlətçiliyini təmsil edən Hülakülərin əsarəti altında olması faktıdır. Çünki bu dövlət Çinlə digər sahələrdə olduğu kimi mədəni sahədə də intensiv əlaqə saxlayırdı. XIII əsrin II yarısında Hülakülər dövlətinin Yaxın Şərqdəki ticarət məntəqəsini Cənubi Azərbaycan şəhəri olan Təbriz təşkil edirdi. Azərbaycan və İranı idarə edən Hülakülər hakimləri taxta gələrkən Çindən razılıq yarlıqları, dövlət möhürləri və fəxri çin titulları əldə etdilər.

1285-ci ildə Azərbaycana Pulad adı altında Çin missiyası təşrif gətirdi. Bu Hülakilərin rezidenti oldu. O, Qazan xanın hakimiyyəti dövründə də ölkənin idarə edilməsində mühüm rol oynadı. Bir qədər sonra ona Şirvan sərhədlərinə rəislik etmək kimi məsul və səlahiyyətli bir iş etibar edildi. XIII əsrdə Azərbaycana Hülaki ordusu ilə hərbi mütəxəssislər, körpüsalan, möhkəmləndirici qurğular, istehkamlar salan, hədəfi nişan alan hərbi sursatın hazırlanması üzrə mütəxəssislər də gəlmişdi. Orta əsrlərdə Çin Orta Şərqin qədim sivilizasiyaya malik bir ölkəsi kimi tanınırdı. Elə bu dövrdə də Çində alim, həkim, mühəndis, incəsənət sahələri üzrə tanınmış hörmətli sənətkarlar yaşayıb-yaradırdı. Bu sənətkarlarla Azərbaycan arasında da əlaqə mövcud idi. Məsələn, görkəmli astronom Nəsrəddin Tusinin rəhbərlik etdiyi Marağa rəsədxanasında Çindən dəvət olunmuş alimlər də çalışırdılar.

Bu dövrdə Azərbaycana eyni zamanda öz işini gözəl bilən həkimlər də dəvət olunurdular. Məsələn, məlumdur ki, həmin çağlarda Təbrizdə Çindən gəlmiş əlli təcrübəli həkim çalışırdı ki, bunların da hər birinin 5-10 qabiliyyətli şagirdi var idi. Hülakü həkimləri Qazan xanı, başqalarını isə əsasən Çin həkimləri müalicə edirdi. Qazan xanın özü isə çin tibbinin metodları ilə yaxından tanış idi. Çin ilə mədəni əlaqələrin intensiv inkişaf dövrü XIII-XV əsrlərə təsadüf edir, hətta bundan sonra da davam edir. XVII əsrin I yarısının görkəmli türk səyyahı sayılan Övliya Çələbinin 1647-ci ildə Bakıya səyahəti zamanı verdiyi məlumatlara əsasən Çinlə bu ölkə (Azərbaycan) arasında əlaqələr həmişə mövcud olmuşdur. Orta əsr alimləri Vəssaf, Həmdullah, Qəzvini və digərlərinin əsərlərində Çin-Azərbaycan mədəni əlaqələrinin mövcudluğunu təsdiqləyən məlumatlar çoxdur.

Görkəmli Azərbaycan alimi Əbdürrəşid Bakuvi özünün 1403-cü ildə yazdığı coğrafiyaya aid əsərində məlumat verir ki, Çində şəhərlərin sayı 300, yeraltı və yerüstü sərvətlər tükənməzdir. Çin məhsulları arasında Bakuvi çiniyə xüsusi əhəmiyyət verərək yazırdı: «Ölkədə özünə xas xüsusiyyəti olan vazlar hazırlanır ki, bunlar

da ağ və şəffafdırlar, deyirlər ki, həmin qablara zəhər qoyarkən bunlar zəhəri özündən kənarlaşdırır». Ə.Bakuvi eyni zamanda çinlilərin dini təsəvvürləri, onların məişət mədəniyyəti, hətta görkəmli memarlıq abidələri haqqında da kifayət qədər ətraflı məlumat verir ki, bu da azərbaycanlı alimin Çin mədəniyyətinə olan ehtiram və məhəbbətini təzahür etdirir.

XV-XVI əsrlərdə Azərbaycan Çin mədəni əlaqələrinin təzahürü Azərbaycan incəsənətində müşahidə edilir. Məsələn, Abşeronun Şüvəlan kəndində qəbirüstü abidələrdən birinin üstündəki Dərbəndin memarlıq abidələri, Ağdam yaxınlığındakı türbələrin birində əjdaha başlarından ibarət relyef, məhz çin motivləri əsasında yaradılmışdır ki, bu da Çin-Azərbaycan mədəni iqtibasının ən bariz nümunələrindəndir. XVI əsrin Azərbaycan miniatürləri Sultan Məhəmməd Təbrizi, Mirzə Əli, Müzəffər Əli, Mir Seyid Əli, Ağa Mirək də çin sənətindən təsirlənmişlər. Onların yaratdıqları əsərlərdə qaya, bulud, insan və geyimlərin təsviri zamanı çin motivlərindən istifadə etmələri aşkar müşahidə olunur.

Bir çox tədqiqatçılar belə hesab edirlər ki, Müsəlman Şərqi memarlığına aid olan məscid, türbələrdəki günbəzlər, onların səthlərinin şirələnmiş təbəqə-kaşı ilə örtülməsi də çinlilərdən, onların mədəniyyətindən iqtibas edilir. Azərbaycanın görkəmli klassik şairi Nizami Gəncəvinin «Yeddi gözəl» poemasındakı çin mövzusuna müraciətin özü Azərbaycan-Çin mədəni əlaqələri kontekstindən diqqəti cəlb edir. Əsərdə çin gözəlinin füsunkar obrazı, ona məxsus əql və zəkanı təsvir edən şair çin mədəniyyətinə ehtiramını da ifadə etmişdir.

Azərbaycan-Çin mədəni əlaqələrinin tarixi mənzərəsinə nəzər saldıqda sovet dövründə bu əlaqələrin xüsusi bir ardıcıllıqla həyata keçirldiyinin şahidi oluruq. Bu ilk növbədə onunla əlaqədar idi ki, əvvəlki tarixi dövrlərdən fərqli olaraq Çinlə mədəni əlaqələrin aparılması sovet dövlətinin xüsusi siyasəti çərçivəsində həyata keçirilirdi. Bu əlaqələr ikitərfli əməkdaşlıq kontekstində reallaşdırılırdı. Azərbaycan da SSRİ-nin tərkib hissəsi kimi ümumdövlət siyasətindən çıxış edərək Çinlə mədəni əməkdaşlıq aparırdı. 1920-ci ilin sentyabrında Bakıda keçirilən Şərq xalqlarının I qurultayında Çindən də nümayəndələrin iştirakı yeni tarixi şəraitdə iki ölkə Sovet Azərbaycanı və Çinlə mədəni əlaqələrin qurulması işində mühüm əhəmiyyət kəsb edir.

İmperialist qüvvələrə qarşı mübarizə aparan Çin xalqı və dövlətinin marağı Sovet dövlətinin marağı ilə üst-üstə düşdüyünə görə sovet rejimi digər respublikaların ədəbiyyat və incəsənət xadimləri kimi Azərbaycan sənətkarlarının üzərinə Çin mövzusuna diqqəti gücləndirməyi başlıca vəzifələrdən biri kimi irəli sürdü. Bu bir ideoloji, mədəni siyasət olsa da Azərbaycan ədibləri bu mövzuya müraciət etməklə böyük Çin xalqına öz səmimi hisslərini ifadə edirdilər. Görkəmli şairlərinin - Rəsul Rzanın, Süleyman Rüstəmin, Hüseyn Hüseynzadənin yaradıcılığındakı şerlər buna sübutdur.

XX-ci əsrin 50-60-cı illərində Çin mövzusu Azərbaycanın digər şairləri Osman Sarıvəlli, Nəbi Xəzri, Mirvarid Dilbazi, Əhməd Cəmil, Zeynal Xəlil və başqalarının da yaradıcılığında mühüm yer tuturdu.

Şair Teymur Elçin qədim Çin əfsanəsi əsasında yazdığı «Pekin zəngi» poemasında Nizami dövründən başlanan gözəl bir ənənəni, Çin əfsanələrindən və hikmətlərindən istifadə olunmasını davam etdirmişdi.

Sovet dövründə Azərbaycan – Çin mədəni əməkdaşlığı sahəsində fəaliyyətin nizamlanması Çin - Sovet dostluğu cəmiyyətinin yerli şöbəsi xəttilə həyata keçirilirdi. Bu cəmiyyətin xəttilə Azərbaycanla Çin arasında mədəni əlaqələrin əməkdaşlıq səviyyəsində inkişaf etdirilməsi üçün rəngarəng forma və metodlardan istifadə olunurdu. Qarşılıqlı mədəniyyətlərin tanışlığı məqsədi ilə müştərək səfərlər, yaradıcılıq ezamiyyətləri belə tədbirlərdən idi. Artıq 50-ci illərdən başlayaraq Çin-Sovet dostluğu xəttilə çin yazıçı və incəsənət xadimləri Azərbaycanda yaradıcılıq ezamiyyətlərində olmuşlar. Bu cür görüşlər get-gedə ənənəvi səviyyə kəsb edərək sistemli və ardıcıl şəkildə davam etdirilirdi. Dəfələrlə Azərbaycanda olan Çin mədəniyyət xadimlərinin nümayəndə heyətləri hər iki ölkə arasındakı mədəni, ədəbi əlaqələrin daha da genişləndirilməsi üçün əlverişli şərait yaratmışlar. Çinin qocaman yazıçısı Ke Çjunpin 1954-cü ilin baharında Bakıya gələrkən Azərbaycan Sovet Yazıçıları İttifaqında respublikanın şair və yazıçıları ilə görüşmüş və xalq şairi Səməd Vurğunla dostluq yaratmışdır. Ke Çjunpin Azərbaycandan aldığı təəssüratı «Bakı» adlı şerində tərənnüm edərək belə təsvir etmişdir:

Seyr elədik biz Qafqazın başı qarlı dağlarını,
Coşğun axan çaylarını, bir də yaşıl bağlarını,
Gəlib çatdıq səhər çağı sahilinə göy Xəzərin,
Biz qovuşduq vüsalına Bakı adlı bir şəhərin.

Şeri Azərbaycan dilinə o vaxt gənc şair Nəbi Babayev (Xəzri) tərcümə etmişdir.

1957-ci ilin aprelində Azərbaycana gələn çin jurnalistləri nümayəndə heyətinin başında Şanxayda nəşr olunan «Benxueybao» qəzetinin redaktoru Suy Çju-Çen aldığı təəssüratı aşağıdakı fikirlərlə ifadə etmişdi: «Biz Azərbaycan haqqında çox oxumuşduq və çox şey bilirdik, indi isə sizin qazandığınız böyük müvəffəqiyyətləri öz gözümüzlə görə bildik… biz yəqin etdik ki, sizin həyatınızın bütün sahələrində – sənayedə, kənd təssərüfatında və mədəniyyətdə dərindən öyrənməyə layiq faydalı şeylər çoxdur».

Bundan irəli gələrək Çində də Azərbaycan ədəbiyyatına, mədəniyyətinə, incəsənətinə çox böyük maraq vardır. Çində S.Vurğunun şerləri, M.İbrahimovun «Gələcək gün» romanı, M.Hüseynin «Abşeron»

povesti həmin dövrdə çin dilinə tərcümə olunmuşdur. Çin yazıçılarından Lui Sin, Ouyan Şan, Şao Tszı-Nanyanın əsərləri, çin xalq nağılları Azərbaycan dilində nəşr olunmuşdur.

Həmin illərdə Azərbaycan respublikasının ictimaiyyəti böyük çin yazıçı və dramaturqu Quan Xan-Tsinin ədəbi fəaliyyətə başlamasının 700 illiyini geniş miqyasda qeyd etmişdir.

50-ci illərdə Çinlə mədəni əməkdaşlığın inkişaf etdirilməsində qastrol səfərlərinin rolunu da xüsusi olaraq vurğulamaq lazımdır. Çində hələ o vaxtlar Azərbaycan bəstəkarlarından Ü.Hacıbəyovun, Q.Qarayevin, F.Əmirovun əsərlərini çox yaxşı tanıyırdılar, çünki musiqi əsərləri ölkənin konsert salonlarında ifa olunurdu. 1952-ci ildə sovet incəsənət ustaları nümayəndə heyəti tərkibində Çin Xalq Respublikasına gedən Respublikanın xalq artisti Rəşid Behbudovu çinlilər hərarətlə qarşılamış, onun yaradıcılığına yüksək qiymət vermişlər. Çində nəşr olunan «Suntıyan Jinbao» qəzetinin 1952-ci il 28 iyun tarixli nömrəsində qəzetin müxbirləri Van Kvan və Mun Huy belə yazırdılar: « Çinlilər Behbudovu hələ «Arşın mal alan» filmindən tanıyırlar. Bu dəfə də o, öz zəngin repertuarı ilə çin xalqının böyük məhəbbətini qazandı. Elə bir konsert olmamışdır ki, Behbudov «Arşın mal alan»dan Azərbaycan, çin dillərində ariyalar oxumasın. Qeyri adi istedada malik olan Azərbaycan müğənnisi çin mahnılarını da bir çinli kimi ifa etdi».

Həmin dövrdə Azərbaycan – Çin mədəni əlaqələrinin inkişafının mühüm faktorlarından birini də çin sirk artistlərinin, çin rəssamlarının Bakıya gəlməsi, həmçinin çin tətbiqi incəsənət sərgisinin Bakıda böyük müvəffəqiyyət qazanmasıdır. R.Mustafayev adına İncəsənət Muzeyində təşkil olunan bu sərgiyə 2-3 ay ərzində bakılılar tamaşa etmişdirlər. Respublikaya qonaq gəlmiş çinli qonaqlar bir sıra qiymətli hədiyyələri Azərbaycan Tarixi Muzeyinə hədiyyə etdilər.

1961-ci ilin fevralında Çin Xalq Respublikası nümayəndələrinin Bakıya üç günlük səfəri Azərbaycan-Çin mədəni əlaqələrinin inkişafına əhəmiyyətli şəkildə təsir göstərdi. Azərbaycanın Xarici Ölkələrlə Dostluq və Mədəni Əlaqələr Cəmiyyətində bu cəmiyyətin, eləcə də Sovet-Çin dostluğu Cəmiyyətinin Azərbaycan şöbəsi idarə heyətinin üzvləri ilə ÇXR-dan qonaq gəlmiş nümayəndələri arasında mədəni əlaqələrin inkişaf perspektivləri də müzakirə olunmuşdur. Nümayəndə heyətinin başçısı Çjan Su görüş zamanı Azərbaycanla mədəni əlaqələrin diplomatik surətini aşağıdakı fikirləri ilə belə bildirmişdir: «Sizin respublikanızın bəstəkarlarının gözəl musiqi əsərləri bizim ölkəmizdə məşhurdur və biz bu musiqi əsərlərini sevirik. Pekin teatrlarının səhnəsində Ü.Hacıbəyovun «Arşın mal alan» operettası müvəffəqiyyətlə göstərilir. Yazıçılarınızın və şairlərinizin kitablarını bizim oxucular sevə-sevə oxuyurlar. Bizim dostluğumuz gündən günə möhkəmlənir». Nümayəndə heyətinin tərkibində gəlmiş Şanxay opera teatrının solisti Lin Min-Çjenin solo konserti azərbaycanlı musiqisevərlər tərəfindən maraqla qarşılandı.

Vətənə qayıtdıqdan sonra çin şairlərindən biri azərbaycanlı sənətkarların fədakar əməyini tərənnüm edərək yazmışdı ki, Çinin neft rayonu olan Yuymında Bakı neftinin ətri duyulur.

Əldə olunan razılıqlara əsasən Bakı və Sumqayıtın sənaye müəssisələrində Çin Xalq Respublikasının mütəxəssislərindən bir neçə qrupu istehsalat təcrübəsi keçmişdirlər. Eyni zamanda Azərbaycan mütəxəssisləri Çində inşa edilən Anşyan metallurgiya kombinatının tikilməsində, Çinin neft yataqlarının aşkara çıxarılmasında yaxından iştirak edərək fədakarlıq göstərmişlər.

1955-ci ildə Bakı Neft Emalı zavodunda ÇXR-nın Politexnik İnstitunun məzunları istehsalat təcrübəsini müvəffəqiyyətlə başa vurdular. Bu elmi əlaqələr həm də iki ölkə arasında dostluq münasibətlərinin dəyişilməsinə də əhəmiyyətli dərəcədə təsir göstərdi.

Mədəni əlaqələrin inkişafı prosesində 1958-ci ilin axırında Azərbaycan Mahnı və Rəqs ansamblının ÇXR-na qastrol səfərini xüsusi olaraq vurğulamaq lazımdır. Pekin və Çinin digər iri şəhərlərində ansambl onlarla maraqlı konsertlər vermişdir. Çinin musiqi ictimaiyyəti və xalq Azərbaycanın özünəməxsus incəsənətini nümayiş etdirən ansamblın ifaçılarına, onların yüksək peşəkarlığına heyran qalmışdılar. Çində nəşr olunan «Dostluq» jurnalında müxbir E.Lin «Dostlarımızın özünəməxsus incəsənəti» adlı məqaləsində deyirdi: «Azərbaycan xalqı son vaxtlarda özünəməxsus mahnı-rəqs sənətini yaratmışdı… Onların parlaq çıxışları Azərbaycan mahnı və rəqslərinə xas olan müxtəlif səciyyəvi xüsusiyyətləri hiss etmək, möhkəm ənənəyə malik olan bu sənətdə baş verən əhəmiyyətli dəyişikliklərin şahidi olmaqda bizə kömək etdi». Həmin məqalədə maraqlı cəhət odur ki, müəllif bu qastrolu sadəcə bir hadisə, yaxud mədəni tədbir kimi xarakterizə etmir, o, hər şeydən əvvəl Azərbaycan mədəniyyəti, incəsənətinə yaradıcı şəkildə yanaşaraq onu əsl sənətşünas, musiqi mütəxəssisi prizmasından şərh edir. Bu isə o deməkdir ki, Çində həqiqətən də Azərbaycan mədəniyyətinə, onun incəsənətinə böyük maraq vardır. Məqalə müəllifi E.Lin burada həmçinin yeni yaradılmış Azərbaycan xor sənətinin təşəkkülü məqamlarına da xüsusi toxunur. Bununla əlaqədar olaraq o, yazır: «Ansamblın artistləri öz xor ifalarında milli, xalq mahnılarının ən gözəl cəhətlərini saxlamışlar. Bununla onlar milli mahnı sənətinin məzmununu zənginləşdirmiş, onun sərhədlərini xeyli genişləndirmişlər.» Ümumiyyətlə «Dostluq» jurnalında nəşr olunan bu məqalə Azərbaycan mədəniyyətini xarici mətbuatda ətraflı və dərindən təhlil edən publisistik materialların ən önəmlilərindən biridir.

Faktlar bir daha sübut edir ki, Azərbaycan-Çin mədəni əlaqələrinin tarixi qədimlərə gedib çatsa da, sovet dövlətçiliyi ərzində bu münasibətlər qarşılıqlı əməkdaşlıq əsasında davam etdirilərək bu sahədə zəngin

təcrübə toplanmışdır. Lakin bir faktı da xüsusi olaraq qabartmaq zəruridir ki, Azərbaycan Çinlə mədəni əməkdaşlıq sahəsində müstəqil qərar çıxartmaq, yaxud bu mədəni əlaqələrin prioritetlərini müəyənləşdirmək səlahiyyətlərindən məhrum idi. Digər xarici dövlətlərlə olduğu kimi Çinlə də mədəni əlaqələrin istiqamətləri yalnız «mərkəz»dən diqtə olunurdu. Lakin 1991-ci ildə Azərbaycanda müstəqilliyin bərqərarı və Respublikada suverenliyin elan edilməsi Çinlə bütün əlaqələrin, eləcə də mədəni əlaqələrin yenidən qurulmasını təmin etdi. 1991-ci il dekabrın 27-də Azərbaycan Respublikasının müstəqilliyini tanıyan ÇXR 1992-ci ilin aprelində diplomatik əlaqələr yaratdı. 1992-2005-ci illər ərzində Azərbaycan-Çin arasında mədəni əlaqələrin müştərək əməkdaşlıq məqsədi ilə kinematoqrafiya, radio verilişləri və televiziya sahəsində əməkdaşlıq haqqında, turizm sahəsində əməkdaşlıq haqqında hökumətlərarası sazişlər imzalanmışdır. Bundan başqa iki ölkənin dövlət başçıları arasında Dostluq haqqında birgə bəyanat, mədəniyyət və təhsil sahəsində əməkdaşlıq haqqında protokol da imzalanmışdır. Dövlət başçıları səviyyəsində 1994-cü ilin martında Azərbaycan Prezidenti Heydər Əliyevin, 2005-ci ilin martında isə Azərbaycan Prezidenti İlham Əliyevin ÇXR-na səfərləri mədəni əməkdaşlığın inkişafına əhəmiyyətli şəkildə təsir göstərmişdir. Bundan əlavə, 2002-ci ilin iyununda Azərbaycan Respublikasının Təhsil nazirinin müavininin rəsmi görüşləri Azərbaycan-Çin mədəni əməkdaşlığının hüquqi bazasının yaradılması, mədəni əlaqələrin inkişaf etdirilməsi baxımından böyük əhəmiyyət kəsb etdi. Bütün bunlarla yanaşı, iki ölkənin parlamentlərarası münasibətlərini inkişaf etdirmək məqsədilə 2002-ci ildə təşkil olunan «Azərbaycan–Çin Dostluq Cəmiyyəti»nin yeni xəttilə mədəni əməkdaşlıq imkanlarının genişləndirilməsi nəzərdə tutulur. Cəmiyyətin prezidenti Milli Məclisin deputatı, AMEA-nın akademiki Cəlal Əliyev Çinlə müxtəlif, eləcə də mədəni əməkdaşlıq sahəsində şəxsi təşəbbüs və səy göstərir. Eyni bir cəmiyət «Çin–Azərbaycan Dostluq Cəmiyəti» 2006-cı ilin oktyabrından ÇXR-nın «Xarici ölkələrlə Dostluq Cəmiyyəti»nin nəzdində təşkil olunur. Hər iki cəmiyyət arasında əməkdaşlıq Azərbaycan – Çin mədəni əməkdaşlığının inkişafı işinə istiqamətləndirilmişdir.

Müstəqilliyin ilk illərində Çinlə mədəni əlaqələrin demokratik prinsiplər əsasında yenidən qurulmasında 1994-cü ilin sentyabrında Ümumçin Xalq Xarici Ölkələrlə Dostluq və Mədəni Əlaqələr Cəmiyyətinin dəvətilə «Azərbaycan dünyası» Beynəlxalq Əlaqələr Mərkəzinin Prezidenti Nəbi Xəzri başda olmaqla ziyalılardan ibarət bir qrup ÇXR-da səfərdə olmuş, ölkələr arasında dostluğun davam etdirilməsi məqsədi ilə mədəniyyət və turizm sahəsində əməkdaşlığın tezliklə bəyan edilməsi, qarşılıqlı surətdə mədəniyyət ongünlüklərinin keçirilməsi, mübadilə səfərlərinin təşkili haqqında razılıq əldə edildi. Eyni zamanda bu görüşdə Çinin Dalyan və Bakı şəhərlərinin qardaşlaşması barədə təklif də irəli sürüldü. Görüş zamanı qaldırılmış məsələlər öz həllini 1995-ci ildə Çin nümayəndə heyətinin Bakıya səfərində tapdı.

Təhsil sahəsində qarşılıqlı tələbə mübadiləsi ənənəviliyini indi də saxlamaqdadır. Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsində Çin dilinin öyrənilməsi mədəni əlaqələrin inkişafı baxımından çox əhəmiyyətlidir.

M.Rostropoviçin anadan olmasının 70 illiyi münasibətilə yubiley şənliklərini işıqlandırmaq üçün Çinin Sinxua agentliyi iki müxbirini Bakıya göndərmişdir. Müxbir Çjao Çjipenin səfərdən əldə etdiyi zəngin təəssürat «Sinxuanın gündəlik xəbərləri» qəzetində 1997-ci il 23 may tarixli nömrəsində dərc olunmuşdur. Həmin məqalədə Çin müxbirlərinin Azərbaycan mədəniyyəti haqqında səmimi düşüncələri diqqəti cəlb edir. Məqalədə yazılır: «Azərbaycan elə bir ölkədir ki, burada mədəniyyətə böyük ehtiram bəsləyirlər. Biz bunu çoxdan eşitmişik… Bakılılar Çinə dərin hörmət hissi bəsləyirlər. Bu mənim Bakıda olarkən aldığım ikinci ən güclü təəssüratdır.»[1]

Yeni tarixi şəraitdə Azərbaycan – Çin mədəni əlaqələrinin imkanları getdikcə artmaqdadır. Hər iki ölkə əhalisinin bir-biri ilə yaxından tanışlığı üçün mətbuatın geniş imkanlarından istifadə edilir. 2003-cü ildə «Azərbaycan-Çin lüğəti»nin nəşri «İqtisadiyyat» qəzetinin 2004-cü il oktyabr nömrəsinin bütünlüklə ÇXR-nın 55-ci ildönümünə həsr edilməsi Azərbaycanda Çin ölkəsinə, onun mədəniyytinə maraq və ehtiramın nümunəsi kimi qiymətləndirilirdi. Hazırda mədəniyyətin ayrılmaz qolu sayılan təhsil sahəsində də Çin Xalq Respublikası ilə birgə mübadilə aparılır. Təcrübə mübadiləsi məqsədilə respublikanın ali və orta ixtisas, ümumtəhsil məktəblərinin müəllimləri Respublika Təhsil Nazirliyinin əməkdaşları təcrübə mübadiləsi məqsədilə ÇXR-na ezam edilmişlər. Təhsildə islahatlar keçirən ÇXR-nın təcrübəsindən istifadə məqsədilə bu ölkə ilə mübadilə səmərəli olmuşdur.

Müasir mərhələdə Çin Xalq Respublikası böyük potensiala malik olaraq ən müasir texnologiyalar tətbiq edərək yüksək sürətlə tərəqqi edir. Bu gün Çin Milli Neft Korporasiyası, ümumilikdə Çin şirkətləri Azərbaycanın karbohidrogen ehtiyatlarının işlənilməsində fəal iştirak edirlər. Bu sahəyə böyük sərmayə qoyurlar. Çin şirkətlərinin neft layihələrində iştirakı ilə Azərbaycanda neft hasilatı artır. Belə ki, Çin Milli Neft Korporasiyasının vitse-prezidenti Çou Dzipinin başçılıq etdiyi nümayəndə heyətinin 2004-cü il iyul ayında Azərbaycana səfər etməsi bunu təsdiqləyən faktdır.

---

[1] Азярбайъан гязети. 1997-ъи ил, 4 ийун

Bu gün Çin ictimaiyyəti Azərbaycan Respublikasına böyük maraq göstərir. Belə ki, ÇXR-nın Sinxua İnformaiya Agentliyinin müxbiri Van Dzuoka 2005-ci il martın 2-də Azərbaycan Respublikası Prezidenti İlham Əliyevdən müsahibə almış, müsahibə zamanı Azərbaycan-Çin münasibətləri, müxtəlif sahələrdə ikitərəfli əməkdaşlıq, habelə regional və digər bir sıra mühüm məsələlərə aydınlıq gətirilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2005-ci ilin mart ayının 17-dən 19-dək Çin Xalq Respublikasında dövlət səfərində olmuşdur. ÇXR-nin sədri Xu Szintao Prezident İlham Əliyevin ölkəsinə səfərini Azərbaycan-Çin dövlətlərarası münasibətlərin tarixində çox mühüm hadisə kimi dəyərləndəndirmişdir. Bu səfər iki ölkə arasında siyasi, iqtisadi və mədəniyyət sahələrində münasibətlərinin yeni səhifəsini açdı. Belə ki, bu rəsmi səfər çərçivəsində atılan ən mühüm addımlardan biri Azərbaycan Mədəniyyət Nazirliyi ilə Çin Mədəniyət Nazirliyi arasında 2005-2009-cu illər dövründə mədəniyyət və incəsənət sahəsində əməkdaşlıq haqqında protokolun imzalanması oldu. Səfər zamanı Çinin Kommersiya Nazirliyi, Azərbaycanın İqtisadi İnkişaf Nazirlyi və ölkəmizin Çindəki səfirinin təşkilatçılığı ilə keçirilən forumda respublikamızın 40 və Çinin 400-dək şirkətinin nümayəndələri iştirak etmişlər. Forumda Azərbaycanda Çin texnologiyaları ilə şüşə-liftdən kabel, kompüterlər, neft sənayesi üçün səyyar qazma avadanlığı, kənd təsərrüfatında istifadə üçün qablar və qablaşdırma materialları üzrə müəssisələrin yaradılması, toxuculuq, ayaqqabı sənayəsi, tikinti materiallarınıın buraxılışı sahəsində əməkdaşlığı genişləndirmək məsələləri müzakirə olunmuşdur.

Həmin səfər proqramı çərçivəsində Prezident İlham Əliyev Çinin ən möhtəşəm abidələri olan Böyük Çin səddi və dünyanın ən nadir tikintilərindən sayılan memarlıq abidələri ilə tanış oldu. Şanxay şəhərini ziyarət edən İlham Əliyev məşhur teleqüllə və Şanxay Planlaşdırma Muzeyinə baş çəkmişdir.

Azərbaycan-Çin münasibətləri müxtəlif sahələrdə durmadan inkişaf edir. Beynəlxalq Təşkilatlar çərçivəsində iki ölkə arasında uğurlu əməkdaşlığın həyata keçirilməsi bu proseslərin iqtisadi, siyasi, mədəni əlaqələrin güclənməsi üçün yaxşı zəmin yaradılır.

Hal-hazırda Azərbaycan – Çin mədəni əməkdaşlığının səmərəli bir dövrü yaşanmaqdadır. İki ölkə arasında dostluğun yaxınlaşmanın əldə olunması kimi mühüm bir işdə mədəni əməkdaşlığın bütün imkanlarından kifayət qədər istifadə edilməlidir.

## 2.3. Azərbaycan -Yaponiya mədəni əlaqələri

Şərqi Asiyanın Azərbaycanla sıx münasibətlər və geniş partnyorluq əlaqələri yaratmış ikinci fəal dövləti Yaponiyadır. Bu ölkə də Azərbaycanın müstəqilliyini 1991-ci ilin dekabrında tanımışdır. 1992-ci ilin sentyabrından başlayaraq iki ölkə arasında diplomatik əlaqələr qurulurdu. Diplomatik əlaqələr sistemində mədəni əməkdaşlığın da xüsusi yeri vardır. Yaponiya ilə mədəni əlaqələrin yenidən qurulması, bu əlaqələrin əməkdaşlıq səviyyəsində davam etdirilməsi üçün kifayət qədər tarixi təcrübə var idi. Uzun müddət Yaponiya ilə gərgin münasibətləri olan SSRİ, nəhayət, 1956-cı ilin oktyabrında bu ölkə ilə diplomatik münasibətlər yaratdı. Həmin münasibətlərin müxtəlif sahələr, o cümlədən mədəniyyət üzrə bərpasını təzahür etdirən birgə bəyannamə imzalandı. Bu bəyannamə Azərbaycan-Yapon mədəni əlaqələrinin dirçəldilməsinə əhəmiyyətli dərəcədə təsir göstərdi. SSRİ-Yaponiya cəmiyyətinin Sumqayıt şəhəri üzrə şöbəsi təşkil olundu. Artıq XX əsrin 60-cı illərindən başlayaraq Azərbaycan-Yapon mədəni əlaqələrində canlanma hiss olunurdu. Elmi- ədəbi mübadilələrdə irəliləyişlərə nail olundu. SSRİ-Yaponiya Dostluq Cəmiyyətinin xəttiylə Azərbaycana gələn yapon xalqının qabaqcıl ictimai və mədəniyyət xadimləri Bakı və ölkənin mədəniyyəti ilə yaxından tanış olurdu.

1962-ci ildə Azərbaycana səfər edən «SSRİ-Yaponiya» cəmiyyətinin nümayəndələrindən biri Sitiro Takanaka öz ölkəsi adından Azərbaycan rəhbərliyinə ölkə ilə tanışlıq üçün geniş imkanlar yaratdığına görə dərin təşəkkürünü bildirmişdir. Təşəkkür məktubunda Azərbaycanla, onun mədəniyyəti ilə əyani tanış olan nümayəndə heyəti bu mədəniyyətin zəngin və qədim mədəniyyət olduğunu qeyd etmiş və yapon mədəniyyəti ilə bu mədəniyyət arasında bir doğmalıq olduğunu vurğulamışdır.

Xüsusilə, həmin dövrdə Yaponiya ilə elmi mübadilənin gücləndirilməsinə diqqət yetirən sovet dövləti Azərbaycan mütəxəssisləri ilə Yapon alimləri arasında yaradıcılıq münasibətlərinin yaradılmasını ön plana çəkdi. SSRİ-Yaponiya Dostluq Cəsmiyyətinin Sumqayıt şöbəsinin yaradılmasında əsas bir cəhət Sumqayıtın qabaqcıl-müasir kimya şəhəri olması faktı idi. Yaponiyanın tanınmış professoru, ekspert Suzumu Kobe BMT-nin Bakıya gələn nümayəndə heyətinin tərkibində idi. BMT-nin bu ekspertləri burayayeni şəhərlərin salınması layihəsinin işlənilməsi məqsədilə səfər etmişdilər. Onlar, eləcə də yapon mütəxəssiləri Bakı və Sumqayıtın planlaşdırılması və tikinti layihələri ilə yaxından tanış olmuş, Neft Daşlarında da olmuşdurlar. Yapon professoru Suzumu Kobe Neft Daşlarında gördüklərindən heyrətə gəlmişdir. Bakıda yapon qrafikasına həsr edilmiş sərgi, istedadlı yapon müğənnisi Teruko Ononun çıxışları azərbaycanlı tamaşaçıların diqqətini çəkmişdir. Sənətkarlar arasında yaradıcılıq əlaqələri qarşılıqlı xarakter daşıyırdı. Eyni zamanda Azərbaycan rəssamlarından T.Sadıqzadə və E.Rzaquliyev Yaponiyaya yaradıcılıq ezamiyyətinə getmiş və «Gündoğar ölkə» ni əks etdirən silsilə əsərlər yaratmışlar. Rəsam Toğrul Sadıqzadə Tokio, Osaka, Kioto, Mikko və digər şəhərlərdə olmuş, Yaponiya yazıçıları, rəssamları, ədibləri ilə yaradıcılıq mübadiləsi aparmışdır. Xirosima xarabalıqlarını öz gözləri ilə görən rəssam Yaponiyadan böyük təəssüratlarla qayıtmışdır. Sonralar Bakıda rəssamın əsərlərindən ibarət sərgisində Yaponiya mövzusuna həsr olunmuş 40-dan çox rəsm eskiz, zarisovka, etüd və lövhələri nümayiş etdirilmişdir. Onun «Xirosima» adlanan rəsm əsərləri silsiləsinə həyəcansız baxmaq mümkün deyildir. Ümumdünya Sülh Şurasının qızıl medalı ilə təltif olunmuş yapon rəssamı Tosiko Maruki Mosakoda xarici ölkələrlə Dostluq Evində «xarici ölkələr Azərbaycan rəssamlarının gözü ilə» silsilə rəsm ekspozisiyasına baxdıqdan sonra söylədiyi fikirlər diqqəti cəlb edir: «Mən Azərbaycan xalqının tarixi haqqında bəzi məlumatlar əldə etmişəm. Azərbaycan rəssamlarının xarici ölkələrə səfərləri, onların bu sərgidəki iştirakı bu sənətkarların öz yaradıcılıqlarında nə qədər yüksəldiklərini sübut edir. Mən tamamilə əminəm ki, Sovet rəssamları sırasında Azərbaycan sənətkarları ön sıralardadır.»[6]

1964-cü ilin yayında Yaponiyaya yaradıcılıq ezamiyyətinə getmiş yazıçı və kinorejissor Həsən Seyidbəyli 15 gün ərzində tanınmış yapon kino sənətkarları ilə yaradıcılıq mübadilələri aparmışdır. Yaponiya səfərinin məqsədini yapon jurnalistlərinə açıqlayan Həsən Seyidbəyli belə qeyd etmişdir: «Bizim bura gəlməkdə əsas məqsədimiz Yaponiyanın görkəmli kino xadimləri ilə yaxından tanış olmaq, mədəni əlaqələrimizi möhkəmlətmək, onların yaradıcılığını öyrənmək və mümkün qədər öz kinomatoqrafiyamız haqqında onlara məlumat verməkdən ibarətdir. Biz istəyirik ki, hər birimizin beş-on nəfər yaxşı yaponiyalı dostu olsun, bir kino xadimi kimi onlarla möhkəm əlaqə saxlayaq.»[1]

Yazıçı, kinorejissor H.Seyidbəylinin bu fikirlərini Azərbaycan-Yaponiya mədəni əməkdaşlığının əsas məzmunu kimi dəyərləndirmək olar.

Artıq Yaponiyada Azərbaycan haqqında informasiyaya da böyük tələbat vardı. 1965-ci ildə Yaponiyada Xəbərlər Mətbuat Agentliyinin nəşr etdirdiyi «Sovet İttifaqı bu gün» jurnalının bir nömrəsi bütünlüklə Azərbaycan SSR-ə həsr edilmişdir. Buna başlıca səbəb yaponların Bakı, Neft Daşları, Azərbaycan mədəniyyətinə olan marağı idi.

---

[6] Кулиев Р. Во имя мира и дружбы. Б., 1966, с. 125

[1] Коммунист гязети 1964-ъц ил 7 октйабр

Ölkələrin bir-biri ilə tanışlığı üçün səfərlərin ardıcıllığına diqqət yetirilirdi. Xüsusilə, XX əsrin 60-cı illərinin II yarısından başlayaraq məqsədli səfərlərin sayı artmağa başladı. Xüsusən, Azərbaycan-yapon gəncləri arasında dostluq və mədəni əlaqələrin canlandırılması məqsədi ilə festival, səfər, həftələrin təşkili əhəmiyyət kəsb etdi. 1969-cu il iyul ayının 20-25-də Bakıda keçirilən SSRİ-Yaponiya fəhlə gənclərinin həmrəylik festivalı bu baxımdan diqqəti cəlb edir. Tədbirin əsas məqsəd və məzmununu iki ölkə arasında dostluq və həmrəyliyin inkişaf etdirilməsi olsa da, bu mühüm missiyanın gerçəkləşməsində mədəni əməkdaşlıq prinsipləri də aparıcı yer tuturdu. Azərbaycana gələn 200 gənc yapon bir həftə ərzində Bakının tarixi mədəni yerləri ilə-Neft Daşları, gənclik şəhəri Sumqayıtla yaxından tanış oldu, Azərbaycan xalqının adət və ənənələri, milli mədəniyyəti ilə təmasda oldular. Festivalın zəngin mədəni proqramının bir müddəasını Yaponiyanın məhşur albalı ağacı Sakuranın Bakının mərkəzində, gənclik meydanında təntənəli şəkildə əkilməsi mərasimi oldu.

Festivaldan sonra elə həmin ilin sentyabrında Azərbaycan gənclərindən ibarət bir qrup Yaponiya ilə tanışlıq səfərinə çıxmışdılar. Bu səfərdə başlıca məqsəd Azərbaycan-Yaponiya gəncləri arasında başlanan ənənəvi dostluq və əlaqələri möhkəmləndirmək idi. Azərbaycandan getmiş gənc müəllim, mühəndis, ədəbiyyat və incəsənət nümayəndələri yapon həmkarları ilə ali məktəb, mədəniyyət ocaqlarında görüşlər keçirərək məşğul olduqları sahələr üzrə fikir mübadiləsi aparmışlar.

Azərbaycan-Yaponiya mədəni əməkdaşlıq sahələrinin inkişaf dinamikasında 1970-ci illərin xüsusi rolu olmuşdur. 1973-cü ilin oktyabrın 7-10-u tarixlərində SSRİ ilə Yaponiya arasında bir sıra sahələr, o cümlədən mədəniyyət sahəsi üzrə əlaqələrin genişləndirilməsi üzrə sazişlər imzalandı. Mədəniyyət sahəsi üzrə imzalanan sazişdə incəsənətin bütün sahələri üzrə fəal əməkdaşlıq, birgə yaradıcılığa xüsusi fikir verilmişdir. Ona görə də Azərbaycanın incəsənət xadimləri ilə yapon sənətkarları arasında mübadilələrin gücləndirilməsi ön plana çəkildi. 1970-ci illərin əvvəllərində görkəmli Azərbaycan bəstəkarı A.Məlikovun «Məhəbbət əfsanəsi» baletinin Yaponiya teatrında səhnələşdirilməsi iki ölkə arasında mədəni əməkdaşlığın qiymətli töhfələrindən idi. Bu əsər Yaponiyada misilsiz müvəffəqiyyət qazanmışdır. Bəstəkarın digər bir əsəri də yapon sənətkarlarının diqqətini çəkmişdir.

S.M.Kirov adına Leninqrad Dövlət Opera və Balet teatrı Arif Məlikovun «İki nəfər» baletini səhnəyə qoyarkən əsərlə yaponlar da maraqlanmış və bildirmişlər ki, bu əsər Xirosima faciəsi ilə yaxından səsləndiyinə görə Tokioda səhnələşdirmək fikrindədirlər.

Teatr sahəsində mədəni əlaqələr sistemində 1973-cü ilin payızında sovet mədəniyyət xadimləri qrupunun tərkibində Yaponiyaya yaradıcılq ezamiyyətində olan Azərbaycan Dövlət Akademik Dram Teatrının artisti Lütfi Məmmədbəyovun təəssüratları zəngin idi. Yaponiyanın kino və teatrlarlarının fəaliyyəti ilə yaxından tanış olan aktyor Tokionun yeganə dram teatrı olan «Kabuki»nin tamaşalarına da baxmış, teatrın yaradıcı heyəti ilə tanış olmuşlar.

1974-cü ildə Xəbərlər Mətbuat Agentliyinin Yaponiya şöbəsinin əməkdaşı Kadziko Kamoqava Azərbaycan qadınlarının vəziyyəti, ailə-məişət münasibətləri və mədəni nailiyyətlərini öyrənmək məqsədi ilə Bakıda olmuş, «Azərbaycan qadını» jurnalının əməkdaşları ilə fikir mübadiləsi aparmışlar. Səfər zamanı o, əldə etdiyi məlumatları ölkəsinin mətbuat orqanlarında çap etdirmişdir. Azərbaycan qadınlarının evdarlığı, səliqə-sahmanı, gözəl ailə başçısı olmalarına heyran qalan yapon jurnalisti Bakıda gördüklərini öz məqalələrində Azərbaycan qadını, ailəsinə hörmət ruhunda qələmə alaraq yapon oxucusuna təqdim etmişdir.

Azərbaycan-Yaponiya mədəni əlaqələri tarixində Yaponiyanın «Kristo-Forsingers» caz-vokal ansamblının Bakıdakı qastrol səfərinin də mədəni əhəmiyyəti var idi. 1972-ci ildə təşkil olunan bu musiqi kollektivinin ilk xarici səfəri 1979-cu ilin dekabrında, məhz Bakı şəhərinə olmuşdur.

Keçən əsrin 60-70-ci illərində Azərbaycan-Yaponiya mədəni əlaqələrinə qədər diplomatik münasibətlər inkişaf etmiş olsa da, lakin bu əməkdaşlıq sistemində, hər şeydən əvvəl, Azərbaycan bir dövlət olaraq bu sahədə müstəqil prinsip, siyasət yeritməkdə müəyyən imkanlardan məhrum idi. Ona görə də mədəni əməkdaşlığın keyfiyyətcə yeni dövrü, məhz Azərbaycanda müstəqilliyin bərpasından sonra mümkün oldu. «Gündoğar ölkə» ilə Azərbaycan arasında mədəni əlaqələrin tarixi təcrübəsinə əsaslanaraq elm, təhsil, incəsənət, kommunikasiya sahəsində əməkdaşlığa üstünlük verilməliydi.

Yaponiya ilə mədəni əməkdaşlığın keyfiyyətcə yeni məzmunda inkişaf etdirilməsində Azərbaycan prezidenti Heydər Əliyevin 1998-ci iln fevralında Yaponiyaya ilk səfərinin çox böyük tarixi əhəmiyyəti olmuşdur. Həmin görüşlər ərəfəsində Heydər Əliyevin Yaponiyada təhsil alan azərbaycanlı gənclərlə söhbəti və burada söylədiyi fikirlər Azərbaycan-Yaponiya elmi-mədəni, təhsil əlaqələrinin gələcəkdə inkişaf etdirilməsinin prioritetləri kimi də səslənə bilər. Azərbaycandan «Gündoğar ölkə»yə oxumağa getmiş Şəhriyar Cəfərov, Sevinc Məmmədova, Xəzər Fərhadov, Hafiz Qayıbov, Gursel İsmayılov, Elşən Qurbanovla ünsiyyət prosesində Azərbaycan prezidenti belə söyləmişdir: Yaponiyanın Azərbaycana marağı həddən artıq çoxdur və bu maraq gündən-günə daha da artmaqdadır. Ona görə də bizə Yaponiya üzrə mütəxəssislər lazımdır… lazımdır ki, yapon dilini yaxşı bilən azərbaycanlı mütəxəssislər olsun. Təkcə dil öyrənmək yox, gərək siz Yaponiyanın - bu qədər

inkişaf etmiş bir ölkənin bütün imkanlarından bəhrələnəsiniz, öyrənəsiniz. Necə olub ki, yaponlar dünyada bu qədər böyük nailiyyətlər əldə ediblər? Siz də bunları öyrənin, gətirib Azərbaycana tətbiq edin, yayın.»[1]

1995-ci ildə yapon türkoloqu, qafqazşünası və nəhayət azərbaycanşünası, professor Akira Matsunaqa ilə birgə yaradılan və səmərəli fəaliyyət göstərən Azərbaycan-Yaponiya elmi Tədqiqatlar və Mədəni Əlaqələr Mərkəzi ölkələr arasında mədəni münasibətlərin inkişafına təkan verdi. Azərbaycanın dostu və yorulmaz təbliğatçısı olan professor Akira Matsunaqa bu sahədə çox böyük işlər görüb. 1996-cı ildə «Azərbaycan türkcəsinin qrammatikası» 1999-cu ildə isə «Azərbaycan dilini müstəqil öyrənənlər üçün» kitabları, çoxlu sayda məqalələr və beynəlxalq konfranslarda məruzələr Azərbaycanın Yaponiyada tanınması işinə xidmət etmişdir. Bu xidmətlərinə görə Akira Matsunaqa Azərbaycan Mətbuat İşçiləri Həmkarlar İttifaqı Təşkilatının «Azərbaycan bayrağı» mükafatına layiq görülmüşdür. Alimin rəhbərlik etdiyi bu mərkəzin təşkilatçılığı ilə Bakıda ardıcıl olaraq konfrans, görüşlər keçirilir, təhsil müəssisələri arasında tələbə və elmi mübadilə aparılır. Azəcbaycan Milli Elmlər Akademiyası və Azərbaycan Universiteti ilə Yaponiya elmi araşdırmalar və mədəniyyət mərkəzinin qarşılıqlı əlaqələri mədəni əlaqələrin geniş vüsətinin bir timsalı idi. Birgə fəaliyyətin əsas məqsədi Azərbaycan-Yaponiya mədəniyyətlərinin mədəni əlaqələrinin bütün istiqamətlər üzrə xüsusiyyətlərini öyrənməkdir. Bu məqsədlə mərkəz müxtəlif tədbirlərdən, mədəni formalardan istifadəyə üstünlük verirdi. 1998-ci ilin avqustunda Azərbaycan Universitetində bu mərkəzlə birgə təşkil olunan «Azərbaycan-Yaponiya elmi-mədəni və təhsil əlaqələri» mövzusunda elmi konfransda Azərbaycan-Yaponiya elmi araşdırmalar və mədəniyyət mərkəzinin sədri Rəhbər Bəşirovun «Azərbaycan-Yaponiya elmi münasibətləri», Tokio Universitetinin professoru Masayuki Yamauçinin «1918-1920-ci illərdə Azərbaycan milli azadlıq hərəkatı və Ənvər Paşa» və s. mövzularda məruzələr edilmiş və sonra müzakirələr zamanı fikir mübadiləsi aparılmışdır. Konfransda irəli sürülən fikirlərdən biri bu idi ki, Azərbaycan-Yaponiya elmi əməkdaşlığını inkişaf etdirmək dövrün tələbidir. Tarixi «İpək yolu»nun varisləri sayılan həm Azərbaycan, həm də Yaponiyanın qarşılıqlı əlaqələrinin tarixi bilinəndən də qədimlərə gedib çıxır və buna görə də bu sahədə tədqiqatçılığın gücləndirilməsinə böyük ehtiyac duyulur.

Yaponiya ilə mədəni əlaqələrin inkişaf dinamikasına təsir edən mühüm tarixi hadisələrdən biri də 2000-ci ilin payızında Tokioda Yaponiya-Azərbaycan Dostluğu Cəmiyyətinin təşkili faktı oldu. Cəmiyyətin sədri Azərbaycanın dostu, iki ölkə arasında mədəni əlaqələrin inkişafında xüsusi xidmətləri olmuş cənab Kanci İşimota idi. Hələ keçən əsrin 60-70-ci illərindən Azərbaycanla tanış olmuş və bu xalqın mehribanlığı, qonaqpərvərliyinə heyran qalmış K.İşimota bu sevgidən irəli gələrək türk dilini mükəmməl şəkildə öyrənmişdir. Cəmiyyətin yaradılmasında məqsəd azərbaycanlılara Yaponiya mədəniyyəti haqqında məlumat vermək, eyni zamanda Yaponiyada Azərbaycan mədəniyyəti günlərini təşkil etmək, Dillər Universitetində yapon dili və ədəbiyyatının öyrənilməsi məqsədilə xüsusi fakültənin açılmasına nail olmaqdan ibarət idi. Turist mübadiləsi də bu cəmiyyətin başlıca məqsədlərindən biridir. Eyni məzmunda olan Yaponiyadakı digər cəmiyyət Azərbaycan-Yaponiya Dostluq Cəmiyyəti adı altında fəaliyyət göstərməkdədir. Cəmiyyət 2002-ci ilin noyabrında Naqoya şəhərində təsis edilmişdir. Cəmiyyətə Rəhman Şahhüseynli sədrlik edir. Cəmiyyət bu iki ölkə arasında sıx dostluq və əməkdaşlıq, mədəni və maarifçilik əlaqələri qurmağı qarşısına məqsəd qoyub. Cəmiyyət mütəmadi olaraq Yaponiyada Azərbaycan haqqında müxtəlif mövzularda tədbirlər, əyləncəli proqramlar, «dəyirmi masa»lar, konfranslar və seminarlar təşkil edir. Cəmiyyətin Azərbaycanın Yaponiyada təbliği məqsədi ilə keçirtdiyi layihələrdən biri də «Qafqaz-Xəzər salonu» tanıtma-təbliğat silsilə proqramı idi. Bu proqram çərçivəsində yaponiyanın Osaka Universitetində 2006-cı ilin iyulunda seminar təşkil olunmuşdur.

Azərbaycan-Yaponiya arasında əməkdaşlığın genişləndirilməsi sahəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Yaponiyanın «İnpex» şirkətinin prezidenti Kunixo Matsuonun başçılıq etdiyi nümayəndə heyətinin 2004-cü il martın 22-də qəbul edilməsi əlamətdar hadisələrdən biridir. Belə ki, «İnpex» şirkətinin Azərbaycanda sərmayə layihələrində fəal iştirakı, xüsusilə də «Azəri-Çıraq-Günəşli» layihəsində payçı kimi təmsilçiliyi əlaqələrimizin daha da inkişafı üçün geniş imkanlar açır. «İnpex» şirkətinin prezidenti Kunixo Matsuo Prezidentlə görüş zamanı bildirmişdir ki, «İnpex» şirkəti planetin müxtəlif güşələrində – Yaxın Şərqdə, Afrikada, Cənubi Amerikada, Okeaniyada öz fəaliyyətini genişləndirir. Şirkət Azərbaycanda bu cür çoxsaylı layihələr arasında «Azəri-Çıraq-Günəşli» və Bakı-Tbilisi-Ceyhan layihələrində iştirak edir.

Azərbaycan Dövlət Neft Şirkətilə birgə iri layihələr, xüsusilə Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəmərinin, «Azəri-Günəşli-Çıraq» layihəsinin həyata keçirilməsində Yaponiyanın «İTOÇU» şirkətinin mühüm rolu vardır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2004-cü il may ayının 20-də «İTOÇU» şirkətinin icraçı vitse-prezidentini qəbul etmişdir. Görüş zamanı bildirilmişdir ki, Azərbaycan və Yaponiya arasında əməkdaşlığın məhz neft sahəsində genişləndirilməsinin böyük önəmi vardır.

Müasir mərhələdə Azərbaycan-Yaponiya arasında bir çox istiqamətlərdə, o cümlədən siyasi, mədəni, xüsusilə də iqtisadi sahədə münasibətlər uğurla inkişaf edir. Yaponiya hökümətinin yardımı ilə Azərbaycanda bir sıra iri layihələr həyata keçirilir. Azərbaycana ən böyük həcmdə kredit qoyuluşları həyata keçirən ölkə

---

[1] Азярбайъан гязети 1998. 10 март

kimi Yaponiya neft-qaz sahəsində də Azərbaycan-Yaponiya əməkdaşlığı yüksək səviyyədə qurulur. 2004-cü il iyulun 19-da Tokio Dünya Ticarət Mərkəzinin sədri, Yaponiyanın Ticarət və Sərmayə Sığortalanması Təşkilatının rəhbəri Toru Toyoşimanın Azərbaycana səfəri buna nümunədir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2004-cü il avqustun 31-də Yaponiya-Azərbaycan parlamentlərarası dostluq liqasının sədri Akira Amarinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir. Yaponiya-Azərbaycan parlamentlərarası dostluq liqasının formalaşmasının əsası 1998-ci ildə qoyulmuşdur. Səfər zamanı iki dövlət arasında siyasi-iqtisadi münasibətlərin uğurla inkişafı, Yapon şirkətlərinin Azərbaycanda, xüsusilə energetika sahəsində fəal iştirakını və Yaponiya hökümətinin respublikamızın iqtisadiyyatının inkişafına töhvəsi yüksək qiymətləndirilmişdir. Belə ki, Azərbaycanda bir sıra iqtisadi layihələrin həyata keçirilməsində, ümumiyyətlə dostluq və mədəni əməkdaşlıq əlaqələrinin inkişafında xidmətlərinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2004-cü il oktyabrın 5-də Yaponiya səfiri Toşiyuki Fucivaranı Azərbaycanın ən yüksək mükafatı olan «Şöhrət» ordeni ilə təltif etmişdir.

Ümumiyyətlə, müassir mərhələdə iki dövlətin siyasi, iqtisadi və humanitar sahədə əlaqələri yüksək səviyyədə inkişaf edir. Buna, ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığı nümunədir. 2005-ci il dekabrın 2-də ölkəmizə fövqaladə və səlahiyyətli səfir Tadahiro Abenin etimadnaməsi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən qəbul edilmişdir. Azərbaycan-Yaponiya əməkdaşlığının dost münasibətləri səviyyəsinə çatdığını vurğulayan səfir bu əlaqələri daha da genişləndirməyi özünün başlıca vəzifəsi kimi etmişdirmüəyyən

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2006-ci ilin mart ayının 2-də Yaponiyanın Kiodo Susin agentliyinin və En-eyç-key televiziyasının müxbirlərinə müsahibə vermişdir. Prezident İlham Əliyev Azərbaycan-Yaponiya münasibətlərinin genişlənməsi, o cümlədən energetika sahəsində əməkdaşlıq, regional və beynəlxalq məsələlər ilə bağlı müxbirlərin suallarını ətraflı cavablandırmışdır.

Azərbaycan-Yaponiya mədəni əməkdaşlığın inkişafında Azərbaycan Respublikası prezidenti İlham Əliyevin 2006-cı ilin martında bu ölkəyə rəsmi səfəri əhəmiyyət kəsb etmişdir. Ölkələr arasında siyasi-iqtisadi əlaqələrin inkişafı mədəni əlaqələrin möhkəmləndirilməsi üçün də başlıca meyar idi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Yaponiyaya rəsmi səfəri çərçivəsində Yaponiya Beynəlxalq Münasibətlər İnstitutunda olmuşdur. Görüşdə Yaponiyanın təhsil və elm naziri, ölkənin sabiq Baş naziri, sabiq xarici işlər naziri, tanınmış elm xadimləri, nüfuzlu diplomatlar, səfirlər, iş adamları, hərbçilər, hazırda Yaponiyanın Xarici Əlaqələr İnstitutunun idarəçi direktoru olan Toşiyuko Fucivara, Yaponiya ictimaiyyətinin, kütləvi informasiya vasitələrinin nümayəndələri iştirak etmişlər. Bundan başqa, 2006-ci il noyabrın 22-də Tokionun «İmperial» mehmanxanasında Azərbaycan-Yaponiya iqtisadi forumu keçirilmişdir. Müxtəlif sahələri təmsil edən Azərbaycan 30-dək, Yaponiyadan isə 100-ə yaxın şirkətin nümayəndələri iştirak etmişlər.

Səfər proqramı çərçivəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Yaponiyanın Baş naziri Dzünitiro Koidzumi «Azərbaycan Respublikası və Yaponiya arasında dostluq və əməkdaşlığın gələcək inkişafı haqqında birgə Bəyannamə» imzalanmışdır.

Səfər zamanı Heydər Əliyev Fondunun Prezidenti YUNESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva Tokioda Yaponiya Kimono Akademiyası və məşhur İkobana Akademiyası (Mərkəzi) ilə tanış olmuşdur.

2006-ci ilin iyulun 14-də Yaponiya xarici işlər nazirinin müavini xanım Akiko Yamanaka Bakıda olarkən xarici işlər naziri Elmar Mmədyarov ilə görüşündə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Yaponiyada rəsmi səfərinin ölkələrimiz arasında əlaqələrin daha da möhkəmlənməsində önəmli rol oynadığını xüsusi vurğulamışdır. Ümumiyyətlə, bu səfər çərçivəsində imzalanmış müqavilələr dövlətimizin əməkdaşlığını daha da inkişaf etdirilməsinə xidmət edir. Qeyd edilməlidir ki, Yaponiyanın Azərbaycanda əczaçılığın, kondisioner istehsalının, kiçik və orta sahibkarlığın inkişaf etdirilməsi sahəsində dinamik işlər aparılmaqdadır. Bu gün Azərbaycan – Yaponiya arasında turizm, təhsil sahəsində də əlaqələrin inkifşaı üçün geniş perspektivlər mövcuddur.

Azərbaycan-Yaponiya Dövlət Komissiyasının 4-cü iclasının iştirakçıları Bakıda rəsmi səfərdə olmuşlar. Həmin səfər çərçivəsində v«İtochy Corporation» şirkətinin vitse-prezidenti Yokota Akira Yaponiya ilə Azərbaycan arasında ikitərəfli əlaqələrin müsbət istiqamətdə inkişaf etdiyini vurğulamışdır.

Azərbaycan-Yaponiya Elmi-Tədqiqat və Mədəni Əlaqələr Mərkəzinin xətti ilə təşkil olunan tədbirlərdən biri də Yaponiya sənətçiləri ilə bakılıların tanışlığıdır. 2007-ci ilin mayında İçəri Şəhərdəki İncəsənət mərkəzində Yaponiyanın Naqoya İncəsənət klubunun üzvləri ilə Azərbaycan rəssamlarının görüşləri keçirilmişdir. Görüş zamanı rəssam Kishio Kavantanın kalliqrafiya əsərləri nümayiş olunmuş, rəssamın oğlu Tashiaki 1500 yaşı olan yapon fleytasında (pyueteki) qədim yapon melodiyasını və yapon qılıncı kenqo ilə milli oyun hərəkətlərini tamaşaçılar üçün ifa etmişdir.

Azərbaycanda yapon incəsənətinin təbliği məqsədi ilə son illlərdə bir çox rəngarəng tədbirlər təşkil olunmuşdur. Xüsusilə, ənənəvi yapon sənətkarlığı ilə tanışlıq məqsədilə 2007-ci ildə təşkil olunan «Yapon

kuklaları», «Çay mərasimi» sərgisi, (2008) gül-çiçək düzəltmə (ikebana) mərasimi beləlırindəndir. Bu qəbildən olan mədəni tədbirlər Azərbaycanda böyük marağa səbəb olur. Azərbaycan ictimaiyyəti Yaponiyanın özünəməxsus bu sənətlərinin özəllikləri ilə yaxından tanış olurlar.

Azərbaycan-Yaponiya arasında ən mütəşəkkil əlaqələr isə təhsil, elm sahələrində inkişaf etdirilir. Hər iki ölkə bir-birinin mədəniyyətinə dərindən bələd olmaq məqsədilə dillərin qarşılıqlı şəkildə öyrənilməsinə xüsusi diqqət yetirir. Belə ki, Yaponiya hökuməti Bakı Dövlət Universitetinə dörd yapon dili mütəxəssisi göndərmiş və onlar yapon dilini öyrənən azərbaycanlı tələbələrin bilik səviyyəsinin yaxşılaşdırılması üçün gərgin çalışırlar. Bu məqsədlə, Yaponiya səfirliyi ilə Bakı Dövlət Universiteti arasında işguzar münasibətlər mövcuddur. Yapon dili kursları Bakının «Asiya» və «Təfəkkür» universitetlərində də tədris olunurdu.

Bundan başqa Azərbaycanın ali məktəblərində yapon tələbələri və doktorantları da təhsil alırlar. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin magistraturasında təhsil almış İnomuri Tomoko burada təhsil aldığı müddətdə qədim Azərbaycan musiqisini öyrənmiş, sazda yapon və azərbaycan musiqisini ifa etmişdir. Azərbaycan sənətinin vurğunu olan gənc yapon tədqiqatçısı xalqımızın tətbiqi sənət haqqında da araşdırmalarını davam etdirərək mətbuatda çıxış edir.

Yaponiyanın Keno Universitetində də Azərbaycan dili kursunun fəaliyyəti qarşılıqlı əlaqələrdə mühüm yer tutur.

Beləliklə, Azərbaycan-Yaponiya mədəni əlaqələrinin tarixi inkişaf dinamikasına nəzər saldıqda bu son illərdə xüsusi bir ardıcıllıqla inkişaf etdiyini müşahidə etmək olar. Bu, həm də mədəni əlaqələrin müasir mərhələsində tarixi İpək Yolu strategiyasının həyata keçirilməsi ilə bağlıdır. Bu konsepsiyaya görə tarixi İpək Yolu bərpa olunaraq Yaponiya Qafqaz regionu ölkələri, xüsusilə, Azərbaycanla bütün sahələrdə əlaqələri inkişaf etdirməyi qarşıya məqsəd qoymuşdur. Bu Azərbaycanın da məqsədləri ilə üst-üstə düşdüyü üçün Azərbaycan-Yaponiya mədəni ələqələrinin bundan sonra da yüksək səviyyədə inkişaf etdirilməsi mütləq və zəruridir.

Belə ki, 2007-ci ilin avqustun 16-da Azərbaycan Prezidenti İlham Əliyev Yaponiyanın xarici işlər nazirinin müavini Midori Matsuşimanın rəhbərlik etdiyi nümayəndə heyətinin qəbulu zamanı xüsusilə vurğulanmışdır ki, Ümumilli Lider Heydər Əliyevin rəhbərliyi altında 90-ci illərin ortalarından iki ölkə arasında həyata keçirilməyə başlamış siyasi, iqtisadi və mədəni əməkdaşlıq bu gün yeni inkişaf mərhələsinə qədəm qoyaraq uğurla davam etdirilir.

## ƏDƏBIYYAT SIYAHISI


1. Abdulla Əmir Haşimi (Cavanşir) İran İslam Respublikası ilə Azərbaycan Respublikası arasında iqtisadi-siyasi münasibətlər. (1991-1997) Stokholm 1999
2. Abdullayev M. Beynəlxalq münasibətlər tarixi (XX əsr). Dərs vəsaiti. B., 2003
3. Abid Tahirli. «Azərbaycan mühacirəti». B., 2001
4. Arzumanlı V. N.Gəncəvinin dünya şöhrəti. B.: 1997
5. Arzumanlı V. Azərbaycan diasporu. B., 2001
6. Arzumanlı V. Ürəklər qovuşanda. B., 1990
7. Arzumanlı V., Hüseynov A. Azərbaycan ünvanı. B., 1994
8. Aslanova R. Qloballaşma və mədəniyyət. B., 2002
9. Aslanova R. Qloballaşma və mədəni müxtəliflik. B., 2004
10. Azərbaycan Respublikası. 1991-2001. Bakı: Yeni nəşr evi, 2001
11. Azərbaycan tarixi. Yeddi cilddə, I cild, B., Elm, 1998
12. Azərbaycan tarixi. Yeddi cilddə, II cild, B., Elm,1998
13. Azərbaycan tarixi. Yeddi cilddə, III cild, B., Elm, 1999
14. Azərbaycan tarixi. Yeddi cilddə, IV cild, B., Elm, 2000
15. Azərbaycan tarixi. Yeddi cilddə, V cild, B., 2001
16. Azərbaycan tarixi. Yeddi cilddə, VI cild, B.: Elm, 2000
17. Azərbaycan tarixi. Yeddi cilddə, VII cild, B.: Elm, 2003
18. Azərbaycan və dünya. İnformasiya analitik jurnal. № 1, 2007
19. Azərbaycan və dünya. İnformasiya analitik jurnal. № 4, 2007
20. Azərbaycan beynəlxalq çoxtərəfli qarşılıqlı əlaqələrdə. B.,1997
21. Azərbaycan beynəlxalq aləmdə. I c., B., 1996
22. Azərbaycan beynəlxalq aləmdə. Bakı. 2001
23. Azərbaycanın beynəlxalq çoxtərəfli qarşılıqlı əlaqələrində Bakının rolu. B., 1997
24. Azərbaycanda mədəniyyət siyasəti . B.,2000
25. Azərbaycanda mədəniyyət siyasəti. B., 2003
26. Azərbaycan və YUNESKO. B.,2002
27. Azərbayjan Respublikasının Konstitusiyası. (Əsas Qanun). Azərbayjan Sovet Ensiklopediyası. 10 jilddə, III j., B., 1986
28. Azərbayjan tarixi. 7 jilddə, VI j. B., 2000
29. Azərbayjan tarixi. 7 jilddə VII j. B., 2003
30. Azərbayjanda mədəniyyət siyasəti. B., 2004
31. «Azərbayjan kinosu» (filmlərin izahlı kataloqu) I j. (1898-2002) B., 2003,
32. Bakıxanov T. Azərbayjan və İran musiqiçilərinin qarşılıqlı əlaqələri. B., 2006
33. Budaqova S. Azərbaycan-Hindistan: iqtisadi, elmi-texniki və mədəni əlaqələrin tarixindən (XX əsrin 50-80-cı illəri) B.: təfəkkür, 2003
34. Bünyadov Z. Azərbaycan Atabəyləri dövləti. B., 1984
35. Bünyadov Z. Azərbaycan VII – IX əsrlərdə. B., 1989
36. Xəbiboğlu V. Heydər Əliyev və Azərbayjan diasporu. B., 1999
37. Çəmənzəminli Y.V. Xarici siyasətimiz. B.: Azərnəşr, 1993, 37 s.
38. Əliyev Z. Beynəlxalq münasibətlərdə diasporların rolu. B., 2001
39. Ələsgərov Ə. Beynəlxalq hüquq. B., 1978
40. Fərhadov R.J. Q.Qarayevin baletləri (Bələdçi). B., 1979
41. Hacıyev T.İ., Vəliyev K.N. Azərbaycan dili tarixi. Bakı: Maarif, 1983
42. Hajıyev N.Ə. Dostluq və əməkdaşlıq telləri. B., 1985
43. Hacıyev H.A. Azərbaycanın xarici ölkələrlə iqtisadi elmi və mədəni əlaqələri, B.: 1976
44. Heydər Əliyev M.K.Atatürk haqqında. B., 2003
45. Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Dərslik. B., 2005
46. Hüseynov İ., Əfəndiyeva N. Turizmin əsasları. Dərslik. B., 2007
47. Xoşməramlı səfir. I kitab. B., 2005
48. İbayev V. İslam Konfransı Təşkilatı. B.,1998
49. İbrahimov J. Azərbayjan XV əsr tarixinə dair oçerklər. B.: 1958
50. İsmayılov İ. Dünya Azərbaycanlıları XX əsrdə. B., 1997
51. İsmayılov İ. Azərbaycan-İran mədəni əlaqələri XX əsrdə B., 2006
52. Kərimli E. Azərbayjan diasporu: nəzəriyyə və praktika. B., 2001

53. Kərimov İ. «Azərbayjan peşəkar teatrının tarixi və inkişaf mərhələləri». B., 2002
54. Kulturologiya. Dərslik. Bakı, 2003
55. Qasımov M. Azərbaycan beynəlxalq münasibətlər sistemində. 1991-1995. B., 1996
56. Qasımov M. Azərbaycan Respublikası dünya meridianlarında. B., 1992
57. Qasımov M. Azərbaycan beynəlxalq münasibətlər sistemində. B., 1996
58. Qasımov M. Azərbaycan Respublikası dünya meridianlarında. B., 1993
59. Qasımov M. Azərbaycan xarici siyasəti konsepsiyası məsələləri B., 1997,
60. Quliyev **R**. Azərbaycan elçilər. B.: Azərnəşr, 1972
61. Qiyasi C. Yaxın – uzaq ellərdə B., 1985
62. Qubadov Ə.B. Azərbaycan xalqı vahid qardaşlıq ailəsində. B., 1991
63. Qurbanov B. Azərbayjan sovet musiqi mədəniyyəti və xariji mətbuat. B., 1978
64. Qüdrətov D. Azərbaycanın qardaş sovet respublikaları ilə iqtisadi və mədəni əməkdaşlığı. B., 1972
65. Mahmudov Y. Azərbaycan diplomatiyası. B., 1996
66. Mahmudov Y. Azərbaycan tarixi. İntibah dövrü. B., 1996
67. Manafova M. Mədəniyyət tarixi və nəzəriyyəsi. B., 2006
68. Mehdi N. «Çətin və dolaşıq durumların kulturologiyası». Qərb və Şərq mədəniyyətində virtual örtüyün “kosmoqoniyası”. B., 2001
69. Məmmədzadə M.B. Ermənilər və İran B., 1993
70. Məmməzar M.B. Milli Azərbayjan hərəkatı . B., 1992
71. Məmmədov S. Azərbaycan XV – XIII əsrin I yarısında. B., 1981
72. Məmmdli N. Mərkəzi Asiyanın türk dövlətləri və Türkiyə. B., 2005
73. Mədəniyyət tarixi və nəzəriyyəsi. Dərslik. B., 2006
74. Muxtarova Ə. Heydər Əliyev və türk dünyası. Tarix və onun problemləri, 2003, № 1, s.100-114.
75. Rəcəbov H. BMT-nin ixtisaslaşmış qurumları və Azərbaycan. B., 1997
76. S.Sayadov. XX əsr; Azərbayjan və dünya. B., 2006

77. Vəlixanlı N. IX – XII əsr ərəb coğrafiyaşünas səyyahları Azərbaycan haqqında. B., 1974
78. Sovet Azərbaycanı və Xarici Şərq. B., 1980
79. Türkiyə Atatürkün, Azərbaycan Heydər Əliyevin əsəridir (Professor Nizami Cəfərovla Dəyanət Osmanlının söhbəti). Bakı, 2002.
80. Ulusel R. Mədəniyyət və texnosivilizasiya. Bakı: Azərbaycan Milli Ensiklopediyası. B., 2003
81. Ulusel R. Ulutürklük. Qloballaşma çağında milli öznüdərketmə və geostrategiya. B., 2002
82. Аверкиева Ю.П. Этнография и культурная (социальная) антропология на Западе. С Э. 1971.
83. Аверкиева Ю.П. История теоретической мысли в Американской этнографии. М.: наука, 1980.
84. Антология исследований культуры. М.: 1997.
85. Антропология исследований культуры. Санкт-Петербург. Университетская книга. 1997.
86. Антология исследований культуры. Санкт-Петербург 1997.
87. Арнольдов А.И., Баллер Э.А. Философские проблемы культуры. М.: 1968
88. Арнолъдов А. Введение в кулътурологию. М., 1998
89. Артановский С.Н. К вопросу о понятии культуры. Сб. XX. Л.: 1967
90. Артановский С.Н. Историческое единство человечества и взаимное влияние культур. Л.: 1967
91. Ачкасов В.А. Глобализация и будущее национального государства. http://www.google.az/search
92. Ашурбейли С.Б. Экономические и культурные связи Азербайджана с Индии. Б.: 1969
93. Ашурбейли С.Б. Некоторые данные об экономических и культурных связях Азербайджана с Китаем в средние века. Сов. Китаеведение. 1958, №2 стр.123-128
94. Ашурбейли С.Б. Экономических и культурные связи Азербайджана с Китаем в период средневековья. В кн: Первая Всесоюзная Конференция Востоковедов (Тезисы докладов и сообщений) Ташкент, 1957. стр. 122-123
95. Бакыханов А. Сочинения. Записки. Письмо. Б., 1983
96. Беркович Н.А. Нация в процессе глобальной этнической интегрированности человечества. Глобализация в социально-философском измерении. Сборник материалов конференции. С.П.Б: Санкт-Петербургское философское общество, 2003

97. Богусловский М.М. Международная охрана культурных ценностей и международные отношения. М., 1978
98. Богусловский М.М.Культурные ценности в международном обороте: правовые аспекты. М.,2005
99. Введение в культурологию (под.ред. Е.В.Попова). М., 1995.
100. Векилов Дж.М. Азербайджанская ССР в развитии советско-иранских культурных связей (1941-1946-е годы) Автореферат Б., 1988
101. «Всемирная история.» 13 т., М., 1955-1983.
102. Гаджибеков У. О музыкальном искусствеАзербайджана. Б.:
103. Гайденко. Экзистенциализм и проблема культуры. М., 1963
104. Гирц К. Интерпретация культур. М.: 2000
105. Глобализация – этнизация (этнокультурные и этноязыковые процессы), М.: 2006.
106. Гусейнов А. Азербайджано-русские отношения (15-17 вв.) Б.,1963
107. Дергачев В.А. Глобалистика. М.: 2005
108. Додельцев Р.Ф. Концепция культуры З.Фрейда. М., 1989
109. Ерасов Б.С. Социальная культурология. М., 1994
110. Жданов Н.В. Исламская концепция мирового порядка. Москва: 1991
111. Иваненко А.И. Экуменизм и царство Антихриста. Глобализация в социально-философском измерении. Сборник материалов конференции. СПБ: Санкт-Петербургское философское общество, 2003
112. Культурология. История мировой культуры. Учебник под ред. проф. А.Н.Марковой. М., 2000.
113. Культурология. (Сост.А.А.Радугин). М., 1999
114. Культурология. (Под ред.Драча). Ростов-на Дону. 1996
115. Культурология. Краткий тематический словарь. Ростов-на-Дону, 2001
116. Льюис Р.Д. Деловые культуры в международном бизнесе (от столкновение к взаимопониманию). М., 2001.
117. Малиновский Б. Научная теория культуры. М., 2000
118. Мамедов Р. Азербайджан и развивающиеся страны. Б.: Ганджлик, 1979
119. Никонов В. Глобализация и государство – Тезисы выступления президента Фонда "Политика". Конференция "Революция и эволюция менеджеров". http://www.amr.ru/doc_26.html
120. Освальд Шпенглер. Закат Европы. Новосибирск, 1991
121. Руднев В.П. Словарь культуры XX века. Ключевые понятия и тексты. М.: 2003.
122. Сильвестров В.В. Философское обоснование теории и истории культуры. М., 1990
123. Сноу Ч.П. Две культуры. М., 1973
124. Специализированные учреждения ООН в современном мире. М.,1967
125. Чумаков А.Н. Глобализация (контуры целостного мира),М.,2005.